Yanvar- 2015

336

# KHAZAR-REVIEW

khazar-review.khazar.org



## ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU

ISSN 2218 - 2772

AYLIQ DƏRGİ


KHAZAR UNIVERSITY
KHAZAR VIEW
BAKU, REPUBLIC OF AZERBAIJAN
No 1
Dr.Hamid Notghi
In Search of
A Universal
Turkish Alph
Khazar View
15 SENTYABR 1999
№70
Xəzər Xəbər
YENİ DƏRS İLİNİZ MÜBARƏK!
Xəzər Xəbər
Khazar View
Khazar View
Xəzər Xəbər
15 OKTYABR 2000
N° 92
MƏZUNLARIMIZA UĞURLAR OLSUN!
Həyat dolu qucağıdır
Könlümün saf bucağıdır
Xoş arzular ocağıdır
Xəzər Universitəm!
XƏZƏR
KHAZAR VIEW
15 fevral 2001
№100
Jurnalımızın 100-cü nömrəsi
"Xəzər"in tarixi yaradılır və yazılır
Şer dünyası
Borçalı yaylaqları
"Dünya"nın uşaqları - uşaqların dünyası
Sevib-sevilənlər günü
Bakı xarici qonağın gözü ilə
100-cü SAYIN MÜBARƏK, "XƏZƏR XƏBƏR"!
www.khazar.org
20
XƏZƏR XƏBƏR
1-15 APREL 2003
KHAZAR VIEW
XƏZƏR XƏBƏR
ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU
www.khazar.org
XƏZƏR XƏBƏR
15 NOYABR 2002
ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK NƏŞR
Anlamaq İstəyirsinizmi?
www.khazar.org

# İÇİNDƏKİLƏR

*Hamlet İsaxanlı.* "Xəzər Xəbər": Həyatımızın 20 ilinin güzgüsü . . . . . 4
Universitet xəbərləri . . . . . 6
Təhsil . . . . . 14
*Hamlet İsaxanlı.* Qəribə dünya və qəribə fikir dünyası . . . . . 18
*Hamlet Isaxanli.* Our Strange World and the Strange World of Ideas . . . . . 18
Mədəniyyət . . . . . 24
Elm . . . . . 30
Hadisə . . . . . 34
"Xəzər Universitetində başqa ab-hava gördüm, azad düşüncəli, fərqli ruhlu tələbələr gördüm. (*Nuranə Məmmədzadə*) . . . . . 36
Turkic World . . . . . 39
Economy . . . . . 42
Türk dünyası . . . . . 44
Dünya . . . . . 46
İslam dünyada . . . . . 49
Пианист Риад Мамедов: «Желаю всем нам, чтобы мы собрались в Шуше и слушали хорошую музыку...» (*Ругия Ашрафли*) . . . . . 52
Dino Bussati. Həyat . . . . . 56
Sosial . . . . . 58
Zülfiyyə Sadıqova. Sərdar Fərəcovun "4 vals"ı . . . . . 60
Molla Xəzər . . . . . 64
Turizm . . . . . 66
Maraqlı . . . . . 68
Təbabət . . . . . 70
Mozaika . . . . . 73
İdman . . . . . 76

***1995-ci ilin yanvarından nəşr olunur***

**Təsisçi:**
*Xəzər Universiteti*

**Baş redaktor:**
*Hamlet İsaxanlı*

**Baş redaktor müavini:**
*Əlirza Balayev*

**Redaksiya heyəti:**
*Camal Mustafayev*
*Əjdər Ağayev*
*Alla Axundova*
*Knyaz Aslan*

**Rəssam:**
*Mir Rafiq Əbdülrəhimov*

**Kompüter tərtibatçısı:**
*Nigar Aydəmirova*

**Foto:**
*Multimedia Mərkəzi*

**Ünvan:**
*Bakı, Məhsəti küç. 41,*
*("Neftçilər" metrosunun yanı)*
*Tel.: (+99412) 323 93 13*
*(+99412) 421 10 93 (209)*
*GSM: (+99450) 321 31 69*
*Faks: (+99412) 493 93 79*
*E-mail: xazarxabar@khazar.org*
*Şəhadətnamə: 376*
*İndeks: 67178*
*Tiraj: 3000*

***It has been published since January 1995***

**Founder:**
*Khazar University*

**Editor-in-chief:**
*Hamlet Isaxanli*

**Associate editors:**
*Alirza Balayev*

**Editorial member:**
*Jamal Mustafayev*
*Ajdar Aghayev*
*Alla Akhundova*
*Knyaz Aslan*

**Design by:**
*Mir Rafig Abdulrahimov*

**Computer graphics:**
*Nigar Aydemirova*

**Photo:**
*Multimedia Centre*

**Address:**
*41 Mahsati str., Baku*
*(near the "Neftchilar" metro)*
*Tel.: (+99412) 323 93 13*
*(+99412) 421 10 93 (209)*
*GSM: (+99450) 321 31 69*
*Faks: (+99412) 493 93 79*
*E-mail: xazarxabar@khazar.org*
*Certificate: 376*
*Index: 67178*
*Copies: 3000*

*Baş redaktordan*

# "XƏZƏR XƏBƏR": HƏYATIMIZIN 20 İLİNİN GÜZGÜSÜ



1994-95-ci tədris ilinin payız semestrində "Xəzər Universitetinin bir qəzeti ola bilərmi?" sualı məni məşğul etməyə başladı. Düşüncəmə istiqamət verən səbəblər göz qabağında idi. 1, 2 və 3-cü il tələbələrimizlə tədris prosesini davam etdiririk, növbəti tədris ili ilk məzunlarımız olacaq. Beynəlxalq layihələrə qoşulmuşuq, xüsusilə Los Angeles Kaliforniya Universiteti (UCLA) ilə əməkdaşlıq proqramımız böyük uğurla davam etməkdədir. Müəllim, digər əməkdaşlar və tələbələrimizdən ibarət sanki ciddi və eyni zamanda mehriban bir kollektiv formalaşıb. Universitetimizin söz yaradıcılığını gücləndirmək, elmi-tədris fəaliyyətinin müəyyən uğurlarını qələmə almaq, universitetdaxili polemikalara meydan vermək, gələcək üçün xronika yaratmaq kimi fikirlər qəzetin vacib, hətta zəruri olduğunu demirmi?!

Qəzetin nəşrinə yeni ildən başlamağı qərara aldıq. "Yazıların dili Azərbaycan, ingilis və rusca ola bilər" dedik. Nə xüsusi bir redaksiya heyəti yaratdıq, nə yazılar üzərində işləyəcək jurnalistləri müəyyən etdik, nə də texniki heyət düzəltdik. Necə deyərlər, işə "öz gücümüzlə" başladıq. Bu, əlbəttə ki, peşəkar yanaşma deyildi. Görək nə olur?! Hay-küy yaratmadıq, sakitcə işə başladıq. İşə başladıq deyəndə ki, yazıları mən yazdım, məlumat xarakterli digər yazıları hazırladım, kompüter işləri isə Zakirin, ilk kompüterçimizin öhdəsində idi.

1995-ci ilin yanvar ayında "Xəzər Xəbər"in ilk sayı işıq üzü gördü! Universitetimizin mahiyyətini açıqlayan "Nədir Xəzər Universiteti?" adlı yazı ilə başladıq. "Bəstəkar Tofiq Quliyev Xəzər Universitetinin fəxri doktorudur" adlı məqalə ilk fəxri doktorumuzun kimliyi və təntənəli mərasimin necə keçdiyini nəql edirdi. İngiliscə "Khazar University Core Curriculum" adlı mühüm məlumatı xüsusi qeyd etmək lazımdır; burada tətbiq etməkdə olduğumuz "kredit sistemi", 100 ballıq şkala üzrə biliklərin qiymətləndirməsi siyasəti, tədris planlarının (curriculum`un) tərtib olunma prinsipləri izah və şərh edilmişdi. Bunları Azərbaycanda ancaq 2006-cı ildən başlayaraq (2005-ci ilin ortalarında rəsmi olaraq Bologna prosesinə qoşulduqdan sonra) asta-asta öyrənməyə və daxil etməyə başlayacaqdılar. İlk sayımızda yanvarın sonlarında keçirəcəyimiz beynəlxalq konfrans haqqında elan, həmçinin Qafqaz və Orta Asiyanın öyrənilməsində Xəzər Universitetinin rolu haqqında söhbət də açılmışdı. "Xəzər Xəbər"in ilk sayı redaktor adı və müəlliflər (daha doğrusu, müəllifi) göstərilmədən çıxmışdı ("*Xəzər Xəbər"in ilk sayından baş redaktoru Hamlet İsaxanlıdır* - **red**).

"Xəzər Xəbər"in ikinci sayında Xəzər Universitetində təşkil olunmuş "Azərbaycan Respublikasında məktəb islahatı" beynəlxalq konfransının (27-28 yanvar 1995) materialları geniş əksini tapmışdı. UCLA professoru Val Rust`la intervyu və bəzi digər materiallar ingiliscə verilmişdi. "Khazar University Core Curriculum" davam etdirilmiş, onun azərbaycanca variantı verilməyə başlanılmışdı. Bunlar, həmçinin, Xəzər Universitetinin akademik kataloqunu nəşr etməyə hazırlıq idi. "Xəzər Xəbər" quru məlumat xarakterli qəzet olmadığını göstərir, şən yazılar və maraqlı şəkillər də verirdi. Beynəlxalq əlaqələrin genişlənməsi öz əksini tapırdı. Qəzetin 4-cü sayında ABŞ-da Atlanta şəhərində yerləşən Georgia State University ilə tələbə mübadiləsi, müsabiqə yolu ilə Amerikaya 9 tələbənin gedəcəyi elan olunmuş, 6-cı sayında isə müsabiqənin qalibləri, onların hansı göstəricilərə görə necə qiymət aldıqları haqqında məlumat dərc olunmuşdu (professor Bijan Fazlollahi`nin imzası ilə). Tələbə və müəllimlər, eləcə də valideynlər Xəzər Universitetində, xüsusi halda onun beynəlxalq proqramlarında necə tərəfsiz, ciddi və açıq müsabiqə keçirildiyinin, onun qəzetdə işıqlandırıldığının şahidi oldular.

"Xəzər Xəbər" öz 5, 7, 8 və 9-cu sayları ilə konfrans və polemika meydanını əks etdirmək gücünü

göstərdi. “Azərbaycan tarixinin problemləri, müasir tədris və elmi nəşrlərdə onların əksi” konfransı haqqında geniş məlumat və təhlil verildi. Fəridə Məmmədovanın “Voprosı istoriçeskoy qeoqrafii, etnoqeneza v poslednix izdaniyax, uçebnıx posobiyax...” adlı polemik yazısına (5-ci sayı) professor Süleyman Əliyarlı cavab verdi (7-ci sayı). “Azərbaycanda milli azlıqların mədəni-tarixi inkişafı” haqqında böyük maraq doğuran konfransımızın (27 may 1995) materialları da qəzet səhifələrində geniş işıqlandırıldı. “Xəzər Xəbər”in 8-ci sayında “Azərbaycan qadınları tarix boyu və bu gün” mövzusunda ingiliscə maraqlı yazılar dərc olundu (Roza Arazova, İradə Qasımova, Firəngiz Nəsirova, Nayereh Tohidi), 9-cu sayı isə tamamilə görkəmli tarixçi Sara xanım Aşurbəylinin həyat və yaradıcılığı ilə bağlı tanınmış alimlərin yazılarından ibarət oldu.

“Xəzər Xəbər”in başlanğıc dövrü, göründüyü kimi, üçdilli, geniş əhatəli, sanballı və maraqlı idi. Bir qədər sonra Nigar Bağırova qəzetin məsul katibi təyin edildi (14-cü sayı). “Xəzər Xəbər”in iki yaşı (1997, yanvar) qəzetdən jurnala keçidlə yadda qaldı. Ali məktəb üçün sanki jurnal qəzetdən daha uyğun görünür, üstəlik jurnalın çapı, oxunması və saxlanması kimi məsələlər də daha rahat həllini tapır. Yadımdadır ki, 1998-ci il iyulun 6-da 16 səhifəlik jurnalın üz qabığında iri hərflərlə “Dünya məktəbi. Bəli, Xəzər Universiteti öz məktəbini açmağı qərara alıb!” yazıldı...

1998-ci ilin payızında (54-cü sayı) “Xəzər Xəbər” üz qabığı rəngli olmaqla ayda iki dəfə çıxmağa başladı. Knyaz Aslan baş redaktorun müavini oldu, tərtibatçı-rəssamımız Rafiq Əbdülrəhimov və Vahid Ömərli işçi heyətə daxil oldular. 1999-un ortalarından jurnalın həcmi artmağa başladı: 20, 24, 32, 36 və nəhayət, 40 səhifədə stabilləşdi. 2003-cü ilin aprel sayı ortası şəkilli (hər sayı üçün öz şəkli olan) mavi üzlə çıxdı; bu forma uzun müddət davam etdi. 2008-ci ilin sentyabr ayında təcrübəli jurnalist Əlirza Balayev baş redaktor müavini kimi işə başladı. Nəhayət, 2010-cu ildə “Xəzər Xəbər”də daha bir yenilik baş verdi: jurnalın 80 səhifədən ibarət və qismən rəngli olmaqla ayda bir dəfə (ildə 11 sayı olaraq) nəşr olunması qərara alındı.

“Xəzər Xəbər” bir tərəfdən dünyada baş verənləri, təhsil, elm, mədəniyyət və siyasət xəbərlərini dərc edən, digər yandan müəllim və tələbələrin yaradıcılıqlarını, ümumiyyətlə həyatımızı güzgü kimi əks etdirən, yeri görünən bir jurnala çevrildi.

2015- ci ilin yanvar ayında 336 saylı “Xəzər Xəbər” işıq üzü görür. 20 yaşın mübarək, sevimli “Xəzər Xəbər”!

*Hamlet İsaxanlı*

## "XƏZƏR XƏBƏR" JURNALININ REDAKSİYASINA



Kütləvi informasiya vasitələri tipologiyasında jurnallar əvəzedilməz yeri və rolu olan mətbu vasitələr sayılır. Lakin mediamızın bitib-tükənməyən qayğılarına, spesifik yaşantılarına, gərgin axtarışlarla dolu həyatında duruş gətirmək, eyni zamanda cəmiyyətdə özünü təsdiqləmək heç də hər jurnala nəsib olmur. "Xəzər Xəbər" isə çoxlarından fərqlənməklə üzərinə düşən missiyanı uğurla yerinə yetirməkdədir. Bunu şərtləndirən amillər göz önündədir.

Əvvəla, "Xəzər Xəbər" ölkənin ali məktəblərində buraxılan dərgilər arasında yeganə elmi-kütləvi və ədəbi-publisistik jurnaldır. Lakin məxsusi çalara mövzu zənginliyinin, janr rəngarəngliyinin, dərin fikir və ifadələr palitrasının cinahdaşlığı onun dəyər sərhədlərini universitet çərçivəsindən çıxararaq ictimailəşdirib. Bax, buna nail olmaq jurnalistikada hünərdir.

İkincisi, "Xəzər Xəbər"in maarifləndirici funksiyası da bir ali məktəb hüdudları ilə məhdudlaşmır. Azərbaycan, türk, ingilis, rus dillərində olan materiallarda Azərbaycan həqiqətləri barədə bilgilər verir. Bunun nə dərəcədə vacibliyinin dərki üçün müstəqil dövlətimizin hər bir vətəndaşının, hər bir qurumunun qarşısında duran ən ümdə vəzifələrə nəzər salmaq kifayətdir.

Üçüncüsü, "Xəzər Xəbər" mətbu mühitimizə 17 il əvvəl qədəm qoyub. Özünü təsdiqinin başlıca meyarlarından biri də jurnalistika məktəbi kimi formalaşmasıdır. Jurnalın əməkdaşları sözün, sənətin qədr-qiymətini bilən, yaradıcılıq məsuliyyətini əməli fəaliyyətində nümayiş etdirən istedadlı qələm sahibləridir. Nəşrlə mütəmadi əlaqə saxlayan müəlliflərin isə əksəriyyəti beynəlxalq aləmdə kifayət qədər tanınan insanlardır.

*Əflatun Amaşov,*
*Azərbaycan Mətbuat Şurasının sədri*
(*“Xəzər Xəbər”in 300-cü nömrəsi münasibətilə təbrikdən*)

# "XƏZƏR" YENƏ AZƏRBAYCANDA BİRİNCİDİR

## XƏZƏR UNİVERSİTETİ 100 ƏN YAXŞI UNİVERSİTET SIRASINDA

Dünyada universitetlərin reytinqinin müəyyənləşdirilməsi sahəsində tanınmış təşkilatlardan biri **"QS"** (Quacquarelli Symonds) təşkilatıdır.

"QS" təşkilatı 2014-cü il dekabr ayının 17-də özünün böyük maraq kəsb edən yeni reytinq cədvəlini açıqlamışdır. Bu dəfə "QS" təşkilatı ilk dəfə olaraq dünyanın Şərqi Avropa, Keçmiş Sovet ölkələri və Türkiyə daxil olan bu çox böyük regionunun 100 ən yaxşı ali məktəbini elan etmişdir.

Bu reytinq cədvəlində Azərbaycandan yalnız 3 ali məktəb yer alıb.

- **Xəzər Universiteti**
  39.6 balla 71-ci yerdə qərarlaşıb.
- **Bakı Dövlət Universiteti**
  39.4 balla Çexiyanın Palacky-Olomous Universiteti
  ilə 72-73-cü yerləri bölüşdürmüşdür.
- **Qafqaz Universiteti** isə
  38.5 balla 75-ci yerdədir.

"QS" reytinq cədvəli universitetin dünyada nüfuzu (30%), məzunların nüfuzlu təşkilatlarda işlə təmin olunması (20%), müəllim - tələbə nisbəti (15%), xarici müəllimlər (2,5 %), xarici tələbələr (2,5 %), Ph.D dərəcəsi olan müəllimlər (5%), elmi məqalələrin sayı (10 %), məqalələrə edilən istinadlar (5%), universitet saytının gücü (10%) kimi meyarlara görə formalaşdırılır.

Qeyd edək ki, xarici mütəxəssislərin işə cəlb edilməsi indikatoru üzrə Xəzər Universiteti ilk 5 ən yaxşı universitet sırasındadır.

Ətraflı məlumat: *http://www.iu.qs.com/eeca2014-rankings-results/*

---

## XƏZƏR UNİVERSİTETİNİN MAGİSTR İXTİSASLARI DÜNYANIN ƏN YAXŞI MAGİSTR PROQRAMLARI SİYAHISINDA

Ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində fəaliyyət göstərən nüfuzlu təşkilatlardan biri **EDUNIVERSAL Beynəlxalq Elmi Cəmiyyətidir**. Bu təşkilat hər il dünyada 12.000-dən çox magistr proqramlarını tədqiq edir, qiymətləndirir və «Ən Yaxşı Magistr Proqramları»nı elan edir. Bu qiymətləndirmə perspektivli tələbələrə daha yaxşı seçim imkanı verir.

**2014-cü il dekabr ayının 24-də EDUNIVERSAL 2014-2015-ci il üçün «Ən Yaxşı Magistr Proqramları» (Eduniversal Best Masters) reytinq cədvəlini açıqlamışdır.**

Bu dəfə EDUNIVERSAL dünyanı 9 əsas məkana ayırmış və hər məkan üçün ayrı reyting araşdırması aparmışdır. İqtisadiyyat və biznesin idarə edilməsi üzrə müxtəlif ixtisaslar üzrə magistr proqramları araşdırılmış, nəticədə Xəzər Universitetinin ***Menecment, Iqtisadiyyat, Mühasibat uçotu və audit*** ixtisasları üzrə MBA proqramları Avrasya və Yaxın Şərq bölgəsi üzrə ən yaxşı 10 (on) magistr proqramı siyahısında yer alıb:

- **Menecment – 9-cu yer**
- **İqtisadiyyat – 9-cu yer**
- **Mühasibat uçotu və audit – 10-cu yer**

Ətraflı məlumat: *www.best-masters.com*





## “XƏZƏR”İN “XƏZƏR - XƏBƏR”İ

Ölkəmizin ali təhsil mühitində müstəqillik dövrünün ərsəyə gətirdiyi yeni hadisələrdən biri olan Xəzər Universiteti, bir çox istiqamətlərdə olduğu kimi, informasiya jurnalı nəşr etmək baxımından da Qərbyönlü modeli əsas götürməklə xəbərlər bülleteninin çap olunmasını təmin etmişdir.

Beləliklə, universitet 1995-ci ildən “Xəzər Xəbər” adlı informasiya jurnalını da nəşr edərək, doğma kollektivə və geniş ictimaiyyətə çatdırmaqdadır. Bu, müstəqillik dövründə Azərbaycan ali məktəb sistemində meydana çıxmış birinci universitet informasiya jurnalıdır. “Xəzər Xəbər” jurnalında əsas etibarilə Xəzər Universitetinin, eyni zamanda dünyanın və ölkəmizin digər ali məktəblərinin, elmi qurumlarının həyatından soraq verən xəbərlərin öz əksini tapması bu jurnal vasitəsilə geniş mənada qlobal məkanda universitet dünyasının gedişatından, yeniləşmə proseslərindən xəbər tutmağa imkan yaradır.

“Xəzər Xəbər” jurnalının xəbərləri ali təhsil sahəsində ölkə təcrübəsi ilə dünyada baş verən prosesləri birlikdə, vəhdətdə öyrənməyə meydan açır. Həm də türk, ingilis və rus dillərində materiallar dərc edən “Xəzər Xəbər” Azərbaycan ali təhsilinin uğurlarını dünyaya çatdıran universitet jurnalı kimi də böyük iş görür, ümummilli vəzifələri məsuliyyətlə yerinə yetirir. Bu, Azərbaycanın dünya ali məktəb məkanında çıxan “Xəzər Xəbər”dir. Bu, beynəlxalq aləmdə səslənmək imkanlarına malik olan “Xəzər”in xəbəridir. “Xəzər Xəbər” Xəzər Universitetinin xəzinəsidir.

*İsa Həbibbəyli,*
*Milli Məclisin deputatı, akademik*
*(“Xəzər Xəbər”in 300-cü nömrəsi münasibətilə təbrikdən)*

## GƏNCLİK YAŞIN MÜBARƏK!

20 ildir ki, “Xəzər Xəbər” oxucuları ilə həmsöhbətdir. 20 ildir ki, “Xəzər Xəbər”lə hər görüşümdə dünyanı öyrənirəm, istedad sahibləri haqqında məlumat alıram, tarixləşən illərin kəşflərlə, yeniliklərlə dolu gələcəyini görürəm. 20 il nə çoxdur, nə də az. Amma bir həqiqət bəllidir ki, bu yaş artıq yolun, amalın müəyyənləşdiyi, məqsəd aydınlığının olduğu, hədəflərin seçildiyi, ona doğru yürüşün başlandığı – enerji dolu gənclik yaşı dövrüdür.

“Xəzər Xəbər” elmi-kütləvi, ədəbi-publisistik toplu olaraq geniş məzmun daşıyır. Toplunun hər sayında insanların marağını cəlb edən ən aktual xəbərlər yer tutur.

Səhifələrdə əksini tapan şəkilli-illüstrasiyalı müxtəlif məzmunlu xəbərlərdən tutmuş bədii əsərlərə, elmi məqalələrə, təqdimatlara, yubileylərə aid və digər yazılara qədər hər bir materialı oxumaq zərurətini duyursan. Məzmun rəngarəngliyi və dolğunluğundan əlavə, yazılardakı konkretlik və lakoniklik keyfiyyətləri oxunun tamlığını təmin edir.

Toplu dünya təhsili mənzərəsində Xəzər Universitetinin obrazını yarada və təqdim edə bilir.

Topluda “Dünya məktəbi” adlı əlavənin də öz məziyyətləri vardır.

“Xəzər Xəbər” dərgisini 20 illiyi – gənclik yaşı münasibəti ilə təbrik edir, toplunun bütün əməkdaşlarına yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

*Əjdər AĞAYEV,*
*Azərbaycan Təhsil Şurasının sədri,*
*pedaqoji elmlər doktoru, professor,*
*əməkdar müəllim*



## TARİXÇİ ALİMLƏ GÖRÜŞ

Dekabrın 16-da Xəzər Universiteti Təhsil fakültəsinin tarix ixtisası üzrə təhsil alan II kurs tələbələrinin AMEA Tarix İnstitutunun Azərbaycanın qədim tarixi şöbəsinin müdiri Allahverdi Əlimirzəyevlə görüşü keçirildi. A.Əlimirzəyev “Qədim Ön Asiya mixi yazılarında” mövzusunda çıxış etdi və tələbələri maraqlandıran sualları dolğun şəkildə cavablandırdı.

## PROFESSOR HAMLET İSAXANLININ MƏQALƏSİ “META” BEYNƏLXALQ ELMİ JURNALINDA




Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar şurasının sədri professor Hamlet İsaxanlının “History and Policy of Translating Poetry: Azerbaijan and Its Neighbors” (Poeziya tərcüməsinin tarixi və siyasəti: Azərbaycan və qonşu ölkələrdə) adlı məqaləsi Montreal Universitetinin (Fransa) “META” tərcümə sahəsi üzrə beynəlxalq elmi jurnalının 59-ci cildi, 2-ci nömrəsində dekabr ayında çap olunmuşdur. Məqalənin xülasəsi ilə bu linkdə tanış ola bilərsiniz:
*http://www.erudit.org/revue/meta/2014/v59/n2/1027478ar.html?vue=resume&mode=restriction*

## AZƏRBAYCAN MEŞƏLƏRİNİN EKOSİSTEM SERVİSLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR TƏDQİQAT



Xəzər Universiteti Ətraf Mühitin Tədqiqi Mərkəzi Azərbaycan meşələrinin ekosistem servislərinin qiymətləndirilməsinə dair "Azərbaycanın meşə sektoru üçün ilkin iqtisadi qiymətləndirmə (TEEB Scoping Study for forestry sector of Azerbaijan)" adlı yeni tədqiqatı dekabr ayında təqdim etmişdir.

Bu tədqiqat işi Avropa birliyinin ENPİ FLEG proqramı çərçivəsində Ümumdunya Vəhşi Təbiəti Mühafizə Fondu (World Wild Foundation) ilə birgə həyata keçirilib.

## TEXAS A&M UNİVERSİTETİNİN PROFESSORU “XƏZƏR”DƏ MÜHAZİRƏ OXUMUŞDUR

Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin dəvəti ilə TEXAS A&M Universitetinin (ABŞ, Texas A&M University) professoru Gabriel Ekstein dekabrın 17-də Təhsil fakültəsinin 3-cü kurs tələbələri üçün “Su – əmtəə kimi” mövzusunda mühazirə oxumuşdur.

## GÖRKƏMLİ ALİMİN XATİRƏSİ YAD EDİLDİ

Səksən üç illik ömrünün altmış ilə yaxınını Azərbaycan xalqının tarixinin öyrənilməsinə həsr etmiş görkəmli alim Süleyman Əliyarlının doğum günü münasibətilə dekabrın 18-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə anım tədbiri keçirlmişdir. Tədbirdə Xəzər Universitetinin tələbələri və Bakı Dövlət Universitetinin müəllimləri iştirak etmişlər. Qeyd edilmişdir ki, S. Əliyarlı Xəzər Universiteti ilə sıx bağlı olmuş, universitetin mütəmadi keçirilən elm və sənət məclislərinin daim fəal iştirakçısı olmuşdur.

Tədbir iştirakçıları S. Əliyarlının məzarını ziyarət etmişlər.



## TEHRAN UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

Dekabrın 19-da Tehran Universitetinin rektoru professor Mahmud Nili Əhmədabadi, Beynəlxalq əlaqələr üzrə prorektoru dosent Məhəmməd Bagher Qəhramani, rektor müşaviri, İctimai əlaqələr şöbəsinin rəhbəri professor Seyid Əhməd Reza Xəzri Xəzər Universitetində olub, universitetin rəhbərliyi və əməkdaşları ilə görüşdülər.

Görüşdə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı professor Hassan Niknafs, İnşaat mühəndisliyi departamentinin müəllimi Tahir Çegini, Riyaziyyat departamentinin müəllimi Cavad Mehri, Neft mühəndisliyi departamentinin müəllimi Mehdi Zarei, Şərq dilləri və din araşdırmaları depatamentinin müəllimi Zivər Hüseynova və İngilis dili departamentinin müəllimi Məryəm Ağazadə iştirak etdilər.

Görüş zamanı universitetlərarası gələcək əməkdaşlıq məsələləri müzakirə olundu və universitet Anlaşma Memorandumu imzalandı. Tehran Universitetinin rektoru Professor Mahmud Nili Əhmədabadi Xəzər Universitetinin əməkdaşlarını Tehran Universitetinə dəvət etdi.

## TƏHSİL NAZİRLİYİNİN KEÇİRDİYİ KONFRANSDA XƏZƏR UNİVERSİTETİNİN VİRTUAL ALƏMDƏ DAHA AKTİV FƏALİYYƏT GÖSTƏRDİYİ QEYD EDİLMİŞDİR

Təhsil Nazirliyinin təşkilatçılığı ilə dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (ADİA) "Media və təhsil dialoqu" mövzusunda konfrans keçirilmişdir. Konfransda Təhsil Nazirliyinin nümayəndələri, ali məktəblərin mətbuat xidmətlərinin və media qurumlarının rəhbərləri iştirak etmişlər.

Təhsil Nazirliyinin İnformasiya şöbəsinin QHT və KİV-lə İş sektorunun müdiri Cəsarət Valehov, ADİA-nın rektoru Urxan Ələkbərov çıxış edərək, konfransın əhəmiyyətindən danışmışlar. Sonra konfrans işini bölmələrdə davam etdirmişdir. Təhsil Nazirliyinin veb-masteri Mehman Şəfaqətov ali məktəblərin veb-resursları və virtual aləmdəki fəaliyyəti ilə bağlı aparılan monitorinqin nəticələrini iştirakçılara təqdim edib. O, bir neçə universitetlə yanaşı, Xəzər Universitetinin virtual aləmdə daha aktiv fəaliyyət göstərdiyini söyləmişdir.

Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli universitetlərin saytları ilə bağlı müzakirələrdə söz alaraq, fikir və iradlarını bildirmişdir.

## "XƏZƏR-XƏBƏR" JURNALININ BAŞ REDAKTORU, PROFESSOR HAMLET İSAXANLIYA, BAŞ REDAKTORUN MÜAVİNİ, ƏMƏKDAR JURNALİST ƏLİRZA BALAYEVƏ



Hörmətli Hamlet müəllim, Əlirza müəllim!

"Xəzər-Xəbər" jurnalının 20 illiyi münasibəti ilə sizi, jurnalın bütün əməkdaşlarını, oxucularını ürəkdən alqışlayır, təbrik edirəm.

Mən bu jurnalın daimi oxucusuyam, redaksiya heyətinin üzvü, fəal müəlliflərindənəm.

"Xəzər-Xəbər"in üstün məziyyətləri müsbət ictimai rəy qazanıb. Bu jurnalın müxtəlif sahələrdən məlumatları Azərbaycan, rus, ingilis dillərində əks etdirməsi onun oxucu auditoriyasının genişliyini göstərir.

Məni, bir elm adamı kimi, jurnalda elmə, sənətə, poeziyaya xüsusi diqqət yetirilməsi ayrıca maraqlandırır. Elmi, bədii-tənqidi yaradıcılığımın xeyli qismi bu jurnalda işıq üzü görüb. Respublikanın elmi ictimaiyyətində xeyirxahlıqla qarşılanan "Fəzlullah Nəiminin iziylə" (bu əsər eyni zamanda professor Eldar Şahgəldiyevin ingilis dilində tərcüməsində nəşr edilmişdir), "Nəsiminin açılmamış sirləri" "Xəzər-Xəbər"in sayəsində yayılmışdır. Bütün bunlara görə sizə, redaksiyaya dərin təşəkkürümü bildirirəm.

*Səmimi salamlar, xoş arzularla*
*Camal Mustafayev*

## 20 İL NƏ TEZ KEÇDİ!



Salam, mənim "Xəzər-Xəbər"im!

Xeyli vaxtdır səninlə görüşmürük. Bilsəydin, necə darıxmışam sənin üçün! Yəqin ki, sən də mənim üçün darıxmısan. Axı, neçə illərdir biz dostuq, sirdaşıq. Mənim yazılarımı bəyəndiyin üçün həmişə qürur, şərəf duymuşam. Bilirəm ki, səni razı salmaq asan iş deyil, axı, sən dünyada tanınan bir universitetin adından danışırsan. Şadam ki, məni öz sıralarınızda görürsünüz.

Səninlə keçirdiyim hər il mənim üçün qiymətlidir, əzizdir. Nə tez keçdi bu 20 il! Bu illər ərzində "Xəzər" böyüdü, məşhurlaşdı, şöhrəti sərhədləri keçdi, dünyada seçilən universitetə çevrildi. "Xəzər"in bu triumfunda sənin də payın var, "Xəzər-Xəbər".

Mən deməyəcəyəm sənin 30 illiyini, 50 illiyini bayram edəcəklər. Deyəcəyəm: nə qədər ki, "Xəzər" var, sən də varsan, "Xəzər-Xəbər".

Adın mübarək, 20 yaşın mübarək, mənim "Xəzər-Xəbər"im!

Arzum budur ki, həmişə "Xəzər"ə layiq olasan, "Xəzər-Xəbər"!

*Tezliklə görüşmək ümidi ilə,*

*Xəlil Məcidoğlu,*
*Texnika elmləri doktoru, professor,*
*Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki*

## "XƏZƏR XƏBƏR" JURNALININ KOLLEKTİVİNƏ



Təxminən beş ildir ki, "Xəzər Xəbər" jurnalının hər nömrəsini alır və ailəlikcə oxuyuruq. Jurnal rəssamlar ittifaqına da göndərilir və həmkarlarımda da maraq doğurduğunun şahidi oluram.

Mən jurnalın yalnız oxucusu deyiləm, əməkdaşlıq da edirik. Jurnalda mənimlə, oğlum – Rusiyada yaşayan, dünyada tanınan kino rəssamlarından biri olan Addis Hacıyevlə geniş müsahibələr dərc olunmuş, 80 illik yubileyim qeyd edilmişdir ki, bunlara görə redaksiyaya minnətdaram.

Yurnalı ilk səhifələrdən vərəqlədikcə universitet xəbərlərinə nəzər yetirir və qürur hissi keçirirəm: Xəzər Universitetinin xarici əlaqələri nə qədər genişdir, nə qədər beynəlxalq layihələrdə iştirak edir, universitetin rəhbəri Hamlet İsaxanlı başda olmaqla əməkdaşlar nə qədər xarici ölkələrdə olur, universitetlərdə və digər qurumlarda görüşlər keçirir, müqavilələr imzalayırlar – bütün bunlar Azərbaycan mühitində heyrət doğurur və universitetin necə bir qaynar həyat yaşadığını göstərir.

Jurnalda "Təhsil", "Elm", "Dünya", "İslam dünyada" və digər rubrikalar altında verilən yazılar böyük maraqla oxunur və təbii ki, mənim diqqətimi daimi rubrikalardan olan "Mədəniyyət" rubrikası xüsusi cəlb edir. Digər rubrikalarda olduğu kimi, bu rubrikada da təsadüfi, yaxud az əhəmiyyətli yazıya rast gəlmək mümkün deyl. Yurnalın hər sahədə öz siyasətinin olduğu duyulur.

Yaşlı nəslə mənsub insan kimi mütaliə mənim həyatımda xüsusi yer tutur və "Xəzər Xəbər"in hər nömrəsində dünya ədəbiyyatından verilən hekayələri böyük maraqla oxuyuram. Qeyd edim ki, bu hekayələr redaksiya tərəfindən peşəkarcasına seçilir və hər bir müəllifin yaradıcılığı haqqında təəssürat yarada bilir.

"Xəzər Xəbər" jurnalının kollektivini dərginin 20 illiyi münasibəti ilə təbrik edir, yeni yaradıcılıq uğurları arzulayıram.

*Altay Hacıyev,*
*Xalq rəsaamı,*
*Prezident təqaüdçüsü*

## "XƏZƏR XƏBƏR" REDAKSİYASINA



"Xəzər Xəbər"in kollektivini qədim Naxçıvan diyarından salamlayıram.

İndiki mətbuat bolluğunda öz dəsti-xətti ilə, mövzularının əhatə dairəsinin genişliyi ilə, çap etdiyi yazıların aktuallığı ilə seçilən "Xəzər Xəbər" jurnalı Naxçıvan Muxtar Respublikasında, o cümlədən bizim universitetdə də özünə xeyli oxucu toplaya bilmiş və böyük oxucu marağına səbəb olmuşdur. "Xəzər Xəbər" klassikliyi, milliliyi və müasirliyi özündə ehtiva edən mətbuat orqanı kimi çox təqdirəlayiqdir. "Xəzər Xəbər" Azərbaycanımızın mədəniyyəti, ədəbi-elmi mühiti ilə bağlı maraqlı yazılar verir və o yazılar sırasında bizm Naxçıvan Dövlət Universitetinə həsr olunmuş materiallar da xüsusi yer tutur. Eyni zamanda, jurnal dünyanın ən uzaq ölkələrindən, hətta okeanın o tayından məlumatlar dərc edir.

Mən də Naxçıvan Dövlət Universitetinin "Qeyrət" nəşriyyatının kollektivi adından "Xəzər Xəbər" jurnalının 20 illik yubileyini təbrik edir, jurnalın yaradıcı heyətinə iti qələm və daim yazıb-yaratmaq arzulayıram.

*Hörmətlə,*
*Vaqif Məmmədov,*
*NDU-nun "Qeyrət" nəşriyyatının direktoru,*
*Tarix üzrə fəlsəfə doktoru, əməkdar mədəniyyət işçisi,*
*Azərbaycan Yazıçılar Birliyinin, Avrasiya Yazarlar Birliyinin üzvü,*
*"Xəzər Xəbər"in NDU bürosunun rəhbəri*



## "TRANSTECH CAPITAL" ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

Dekabrın 16-da "TransTech Capital" (TTC) şirkətinin (Böyük Britaniya) İdarə Heyətinin nümayəndələri Simon Robeson, David Livsli, Riçard Henderson, Mahmut Sinoplu, Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun icraçı direktorunun müavini Azər Bayramov Xəzər Universitetində oldular.

İngiltərə və Türkiyə universitetlərinin tədqiqatlarının maliyyələşdirilməsi və tədqiqat nəticələri olaraq kəşf etdiklərinin sənayeləşdirilməsi ilə məşğul olan TTC şirkəti hazırda Azərbaycan universitetləri ilə əməkdaşlıq yaratmaq məqsədi ilə görüşlər keçirir.

Qonaqlar Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı professor Hassan Niknafs, İnşaat mühəndisliyi laboratoriyasının müdiri Taher Çegini, Neft mühəndisliyi departamentinin müdiri dosent Qəşəm Zeynalov, İnformasiya sistemlərinin proqram təminatçısı və meneceri Rəşad Xalıqov, İnsan resursları şöbəsinin müdiri Ülkər İsayeva, Biologiya departamentinin müdiri İradə Xəlilova, Kimya departamentinin müəllimi Jestin Mandumpal ilə görüşdülər.

Görüşdə H.İsaxanlı Xəzər Universitetinin fəaliyyəti və perspektivləri haqqında çıxış etdi. Sonra isə Xəzər Universitetinin bir sıra elmi tətqiqatçıları (İ.Xəlilova, Ü.İsayeva, H.Niknafs, J.Mandumpal, R.Xaliqov) öz elmi tətqiqatları, əldə edilən nəticələr haqqında məlumat verdilər. TTC ilə Xəzər Universiteti arasında səmərəli əməkdaşlıq məsələləri müzakirə olundu.

## SEMİNAR İŞTİRAKÇILARINA SERTİFİKAT TƏQDİM OLUNDU

Xəzər Universitetinin İngilis dili və ədəbiyyat departamentinə təcrübə mübadiləsi proqramı ilə dəvət olunmuş Seattle Universitetinin (ABŞ) aparıcı mütəxəssisi Mary Kay Seales sentyabr - dekabr aylarında departamentin müəllimləri üçün "Akademik yazı və nitq", Humanitar və sosial elmlər fakültəsinin magistr tələbələri üçün "Tədqiqat işinin yazılması" mövzularında seminar keçirmişdir.

Seminarın başa çatması münasibətilə Xəzər Universitetində ABŞ səfirliyindən dəvət olunan qonaqlarla birlikdə İngilis dili və ədəbiyyatı departamentinin müəllimləri, magistr tələbələr iştirak edirdilər.

Tədbirdə Mary Kay Seales çıxış edərək, Xəzər Universiteti və tədris prosesində iştirakı haqqında təəssüratlarını bölüşdü. Tədbir iştirakçıları Mary Kay Seales haqqında xoş sözlər dedilər, seminarlarda öyrəndikləri yeni biliklər və təcrübələr haqqında danışdılar.

Tədbir ABŞ səfirliyinin Mədəni əlaqələr departamentindən Kelly Cullum və İngilis dili proqramları üzrə koordinator Zülfiyyə Şirinovanın çıxışları ilə davam etdi. Onlar hal-hazırda ABŞ səfirliyinin müəllimlər üçün açıq elan etdiyi proqramlar haqqında ərtaflı məlumat verdilər. Sonda seminar iştirakçılarına sertifikat təqdim olundu.

## "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN 62-ci MƏŞĞƏLƏSİ



Dekabrın 17-də Xəzər Universitetinin Mərkəz kampusunda ənənəvi "Elm və Sənət Məclisi"nin 62-ci məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, məclisə toplaşanları salamladı. O, bu günə kimi məclislə bağlı görülən işlər haqqında iştirakçılara məlumat verdi və məclisin bu günkü qonağını Gürcüstandan şəxsən dəvət etdiyini bildirdi. Sonra məruzə üçün sözü Gürcüstan Elmlər Akademiyasının prezidenti, akademik Giorgi Kvesitadzeyə verdi.

G. Kvesitadze "Cənubi Qafqazın ekoloji birliyi" mövzusunda məruzə etdi. Məruzə geniş müzakirələrə səbəb oldu. Müzakirələrdə Hamlet İsaxanlı, Fərda Əsədov, İngilab Əhmədov, İradə Xəlilova, Roza Arazova, Rövşən Abbasov, Seymur Rzayev (Xəzər Universiteti) , Pənah Muradov (AMEA-nın müxbir üzvü), Qəhrəman Yusifov (Turizm İnstitutu), Rza Mahmudov (Ekologiya Nazirliyi) və digər alimlər çıxış etdilər. Sonda xatirə şəkilləri çəkildi. Məclisin işində Gürcüstan Elmlər Akademiyasının məsul katibi İrakli Jordaniya iştirak edirdi.

Məclis Azərbaycan Televiziyası (AzTV) və İctimai Televiziya tərəfindən geniş işıqlandırılmışdır.





## ƏMƏKDAŞIMIZ YUBİLEY TƏDBİRİNDƏ

Dekabrın 18-də Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda görkəmli şair, nasir, dramaturq və tarixi mövzuda bir neçə kitabın müəllifi Teyyub Qurbanın 80 illiyi münasibətilə mərasim keçirilmişdir. AYB-nin sədri, xalq yazıçısı Anar çıxışında T. Qurbanın çoxşaxəli yaradıcılığından danışmış, ona AYB-nin hədiyyəsini təqdim etmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova, "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev, rəssam Rəis Rəsulzadə və digərləri yubilyarı təbrik edərək, ona yeni yaradıcılıq uğurları arzulamışlar.

Mərasimdə AYB-nin katibi İlqar Fəhmi iştirak etmişdir.

## MÜƏLLİMİMİZ BEYNƏLXALQ SİMPOZİUMDA

Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Dilavər Əzimli dekabrın 18-20-də Türkiyənin Diyarbəkir şəhərindəki Dicle Universitetində dünyanın bir çox ölkələrindən gəlmiş tarixçi alimlərin iştirakı ilə təşkil olunmuş "Ermənilərin köçürülməsinin100 ili və Osmanlı imperiyasının son dönəmindəki üsyanlar" adlı beynəlxalq simpoziumda məruzə etmişdir.

# AZƏRBAYCANDA YENİ UNİVERSİTET YARADILDI

*Prezident İlham Əliyev dekabrın 22-də Azərbaycan Turizm və Menecment Universitetinin yaradılması haqqında sərəncam imzalayıb*



AzərTAc-ın verdiyi xəbərə görə, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan Turizm İnstitutunun bazasında ali təhsilin bütün pillələrində turizm və menecment sahələri üzrə kadr hazırlığını həyata keçirən Azərbaycan Turizm və Menecment Universiteti formalaşdırılacaq.

Nazirlər Kabineti Azərbaycan Turizm və Menecment Universitetinin nizamnaməsinin layihəsini üç ay müddətində, universitetin fəaliyyətinin maliyyələşdirilməsi və maddi-texniki təminatı, o cümlədən müvafiq tədris şəhərciyinin yaradılması ilə bağlı təklifləri iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn digər məsələləri həll edəcək.

## ALİ MƏKTƏBLƏRDƏ İKİ YENİ FƏNN TƏDRİS OLUNACAQ

*"Millətlərarası, Multikulturalizm və Dini Məsələlər üzrə Dövlət müşaviri Xidməti tərəfindən iki tədris proqramı hazırlanıb"*



Bunu dövlət müşaviri Kamal Abdulla AzərTAc-a müsahibəsində bildirib. Müşavir vurğulayıb ki, onlardan biri bakalavr səviyyəsi üçün "Multikulturalizmə giriş", digəri magistratura səviyyəsi üçün "Azərbaycan multikulturalizmi" proqramıdır: "Bu proqramlar həm Azərbaycan, həm də xarici ölkə universitetlərinin tələbələri üçün nəzərdə tutulur. Təsəvvür edin, müxtəlif xarici ölkələrdə bu istiqamətdə çoxlu tədbirlər – konfranslar, dəyirmi masalar, sərgilər, konsertlər təşkil edilir, xeyriyyəçilik aksiyaları həyata keçirilir. Bunlar çox yaxşıdır.

Eyni zamanda, bəzi əlavələrə də ehtiyac var. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi bu istiqamətdə öz missiyasına uyğun konkret addımlar atmağa hazırlaşır. Qarşıdakı semestrdən etibarən Avropanın bir neçə universitetində həm də "Azərbaycan multikulturalizmi" fənni tədris olunacaq. Artıq Rusiyanın, Litvanın, İtaliyanın, Gürcüstanın, İsveçrənin, Türkiyənin, Bolqarıstanın bəzi tanınmış universitetləri onlara təklif edilən bu fənnin tədrisinə razılıq veriblər".

K. Abdullanın sözlərinə görə, fənn yeni olduğundan onu tədris edəcək mütəxəssislər üçün Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi hazırda hazırlıq məşğələləri keçirir.

"Azərbaycan multikulturalizmi" fənni ya xarici ölkə universitetlərinin mütəxəssisləri tərəfindən tədris ediləcək, ya da həmin fənn üzrə müəllim buradan göndəriləcək. İndi bu böyük işin hazırlığı gedir. İnanıram ki, ildən-ilə həm xaricdə, həm də ölkə daxilində bu tədris ocaqlarının sayı artacaq və daha çox xarici ölkə gənci Azərbaycan barədə məlumat alacaq, onun dostuna çevriləcək".

## AMEA PREZİDENTİ: "ÜZÜMÜZÜ ORTA MƏKTƏBƏ TUTMALIYIQ"

*"Elmin bugünkü problemlərinin həlli üçün biz, sözsüz ki, üzümüzü orta məktəbə tutmalıyıq; aydındır ki, məktəb də islahat prosesindədir"*



Bunu AMEA prezidenti Akif Əlizadə bildirib. O qeyd edib ki, orta məktəb müəllimləri bəlkə də hamıdan gözəl başa düşürlər ki, bu informasiya məkanında uşaqları düzgün təhsilləndirmək üçün onlara ilk növbədə hansı isə biliklər toplusunun yox, həyat boyu maariflənmək və təhsilinin səviyyəsini artırmaq qabiliyyətini aşılamaq lazımdır.

"Bugünkü təhsilimizdə yeni innovasiya tutumlu texnologiyalara ehtiyac duyulur. Virtual məkandakı təhsil interaktivliyin tamamilə yeni səviyyəsini bərqərar etməyə imkan verir, biliklərə yiyələnmə prosesini olduqca maraqlı edir. Yalnız yeniləşən məktəb Azərbaycan elminin inkişafı üçün hava-su kimi lazım olan şəxsiyyəti formalaşdıra bilər. Lakin faktlar göstərir ki, şagirdlər arasında iqtisadi və humanitar elmlərə maraq artır, fizikaya, riyaziyyata və təbiət elmlərinə maraq gündən-günə azalır. Sözsüz ki, bu üçlük: orta məktəb – universitet – Elmlər Akademiyası öz fəaliyyətini elə qurmalıdır ki, gələcək alimi biz 7-ci – 8-ci sinifdə aşkar edib, onunla işləməyə başlasın. Yalnız belə olan halda biz bugünkü mənfi tendensiyaları sındırıb yeni istedadlı nəslin elmə gəlməsini təmin edə bilərik".

## TƏHSİL NAZİRİ: "AZƏRBAYCANDA ORTA MƏKTƏBLƏRDƏN BİRİ AMEA-YA VERİLƏCƏK"



*"Təhsil Nazirliyinin tabeçiliyində olan tam orta məktəblərdən birinin AMEA-nın baza məktəbi kimi fəaliyyət göstərməsi qərara alınıb"*

Bunu təhsil naziri Mikayıl Cabbarov bildirib. O qeyd edib ki, həmin məktəbə bu günün tələblərinə cavab verən yeni modelin və proqramın tətbiqi üçün poliqon kimi baxılmalıdır: "Bunun ümumu təhsil sistemində interaktiv elmi biliklərin tətbiqinə yol açacağına ümid edirik.

Dünya rəqabət dünyasıdır. Bizim uşaqların rəqibləri hazırda dünyanın müxtəlif ölkələrində böyüyür. Elmi potensialın qorunub saxlanması, gənc elmi kadrların hazırlanması qarşımızda duran ən vacib məsələrdəndir".

M. Cabbarov bildirib ki, təhsilsiz elmi, elmsiz təhsili təsəvvür etmək mümkün deyil. Ali təhsildə istedadlı gənclərin potensialının inkişafı, elm, təhsil, müasir texnologiyalara bağlılığı təmin etmək məqsədilə ali məktəblərdə "Sabah" qrupları yaradılıb.

Nazir vurğulayıb ki, indiyə kimi 3184 nəfər müvafiq Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alıb: "Proqram çərçivəsində son 2 ildə seçilmiş 572 tələbədən 330 nəfər magistr, 45 nəfər doktorant, 65 nəfər dissertant təhsili qazanıb. Hazırda 2016-2020-ci illərdə xaricdə təhsil üzrə dövlət proqramının hazırlanması sahəsində işlər gedir. Bu layihədə ali təhsil müəssisələri üçün elmi kadrların yetişdirilməsi, ali məktəb müəllimlərinin təcrübə keçmə və ixtisasartırma, professor-müəllim heyətinin mübadiləsinə mühüm yer verilib. Eyni zamanda əcnəbi professor-müəllim heyətinin Azərbaycanın ali məktəblərində tədris prosesinə cəlb olunması təmin ediləcək. Bu layihənin icrası nəticəsində ali təhsil müəssisələrində kreativ düşüncəli gənc alimləri yetişdirmək mümkün olacaq".

## TEMPUS LAYİHƏSİ ÜZRƏ MONİTORİNQ KEÇİRİLDİ







Dekabrın 16-da "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsi üzrə monitorinq keçirildi. Monitorinqdə Avropa Komissiyasının Təhsil, audiovizual və mədəniyyət üzrə nümayəndəsi José Gutierrez və Azərbaycanda Milli TEMPUS Ofisinin rəhbəri Pərviz Bağırov, həmçinin, layihənin yerli partnyorları – Azərbaycan Dövlət İqtisad Universiteti, Lənkəran Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzinin (ETTM) nümayəndələri və Xəzər Universitetinin layihə üzrə işçı qrupu iştirak etdilər.

Görüşdə Layihənin koordinatoru Rima Məmmədova layihə çərçivəsində görülmüş, hal-hazırda üzərində işlənilən və gələcəkdə nəzərdə tutulmuş fəaliyyətlər haqqında geniş məlumat verdi. José Gutierrez layihənin gedişatı haqqında öz müsbət fikirlərini bildirdi və layihə ilə bağlı suallar aydınlaşdırıldı.

## XƏZƏR UNİVERSİTETİNİN KAMERA ORKESTRİ VƏ RƏQS ANSAMBLI MƏDƏNİYYƏT EVİNİN AÇILIŞINDA

Dekabrın 16-da Binəqədi rayonunda Binəqədi Mədəniyyət evinin açılışı olmuşdur. Tədbirin açılışında Xəzər Universitetinin Kamera Orkestrı və rəqs ansamblı çıxış etmişdir. Açılışda Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov və millət vəkilləri iştirak etmişlər.

## TƏLƏBƏLƏRİMİZ TƏCRÜBƏ MƏŞĞƏLƏSİNDƏ

Dekabrın 20-də Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin təşəbbüsü ilə Təhsil fakültəsinin 3-cü kurs tələbələri Ceyranbatan Su Kəmərləri İdarəsində (Jeyranbatan Drinking Water Purification Department) təcrübə keçmiş və Bakı şəhərinin su təchizatı problemlərini öyrənmişlər.

## RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRİ İLƏ GÖRÜŞ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı dekabrın 20-də Azərbaycan Respublikasının rabitə və yüksək texnologiyalar naziri Əli Abbasovla görüşdü.

Görüşdə universitet texnoparkının, mühəndislik və tətbiqi elmlər üzrə laboratoriyalarının, texnoloji transfer ofisinin, universitet-sənaye münasibətlərinin müxtəlif problemləri və inkişaf perspektivləri müzakirə olundu.

## "ELM ÜÇBUCAĞI" PROQRAMININ NÖVBƏTİ VERİLİŞİ

Dekabrın 21-də İctimai TV- də professor Hamlet İsaxanlının "Elm üçbucağı" proqramının növbəti verilişi oldu.

Veriliş 220 illik yubileyi qeyd olunan Azərbaycanın mütəfəkkir çoxbilgini (polimath) Abbasqulu ağa Bakıxanovun tarix, coğrafiya, təhsil, fəlsəfə və elm tarixi üzrə fəaliyyətinə həsr edilmişdi.




# BAKSELL-İN ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞ



Dekabrın 17-də Xəzər Universitetinin Karyera mərkəzi və İctimai əlaqələr və media qurumunun təşkilatçılığı ilə tələbələr üçün Bakcell əməkdaşları ilə "İnnovativ ideyalarını APPLAB-da həyata keçir" adlı biznes görüş keçirildi. Görüşü giriş sözü ilə İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli açaraq, Baksell şirkətinin son illərdə Xəzər Universiteti ilə birgə həyata keçirdiyi layihələrlə bağlı məlumat verdi və Xəzər Universitinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tərəfindən imzalanmış təşəkkür plaketini Baksell şirkətinin Kadrlar idarəsinin rəisi Oksana İsmayılovaya təqdim etdi.

Sonra şirkətin Kadrlar Şöbəsinin işə qəbul üzrə mütəxəssisi Natəvan Mirməmmədli və Bakcell-in digər nümayəndələri görüşdə çıxış etdilər. Onlar proqram tərtibatçılarının regional səviyyədə dəstəklənməsi və inkişafI üçün Bakcell-in beynəlxalq tərəfdaşı olan QUALCOMM-la birlikdə APPLAB layihəsinin təşkilindən danışdılar. Biznes görüşün məqsədi yeni ideyaları və işləmək həvəsi olan gənclər və peşəkar tərtibatçıları APPLAB layihəsinə cəlb etmək və Bakcell-in köməkliyi ilə onlara dəstək verməkdir.

90 günlük proqram çərçivəsində seçilmiş yerli proqram tərtibatçıları üçün yeni mobil aplikasiya və texnologiya ideyalarının həyata keçirilməsi nəzərdə tutulmuşdur. Uğurlu layihələrin Bakcell-in aplikasiyaları arasında öz yerini tutacaqı vurğulandı. Sonda tələbərə Bakcell şirkətinin hədiyyələri paylandı.

# "YAXŞILARDAN SEÇ GÖTÜR..." KİTABINDA HAMLET İSAXANLI HAQQINDA MƏQALƏ

Şair-publisist Mülkədar Nadirin "Yeni Poliqrafist" MMC nəşriyyatında çapdan çıxmış "Yaxşılardan seç götür..." kitabında müəllifin son illərdə yazdığı müxtəlif səpkili yazıları toplanmışdır. Kitabda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı haqqında "60-cı aşırım..." adlı məqalə də verilmişdir (səh. 185-188).




# ADA UNİVERSİTETİNİN TƏQDİMATI

Azerbaijan Diplomatic Academy
School of International Affairs

Dekabrın 24-də Xəzər Universitetində ADA Universitetinin təqdimatı keçirildi. Universitetin Tələbə qəbulu şöbəsinin mütəxəssisi Sona Dadaşova ADA Universitəsində mövcud olan magistratura proqramları haqqında geniş məlumat verdi və tələbələrin suallarını cavablandırdı.

## QƏRİBƏ DÜNYA VƏ QƏRİBƏ FİKİR DÜNYASI

*Hamlet İsaxanlı tərəfindən bir konfransın açılış nitqi üçün hazırlanmış, lakin oxunmamış, yazı şəklində qalmış esse*

*Hamlet İsaxanlı*
*Xəzər Universiteti, Bakı, Azərbaycan*

Dünya həmişə qəribə və həmişə mürəkkəb olub. Dünya həmişə həm sevinclə, həm kədərlə dolu olub. İnsan həzz almış və əzab çəkmiş, ömür sürmüş və ölümə təslim olmuşdur. İnsan həm azad iradənin hökmü ilə hərəkət etməyə can atmış, həm də mənsub olduğu ailə, icma və xalqın kimliyinin qayğıları ilə yaşamış, onlara borcunu, "üzvlük haqqını" verməyə çalışmışdır. İnsan ictimai-siyasi-iqtisadi-milli-dini amillərin xüsusi çulğaşması nəticəsində və ortaya çıxan güclü, qüdrətli insanın iradəsinə tabe olmaqla böyük üsyanların, savaşların iştirakçısı olmuş, insanların qanını axıtmış, canını almışdır.

Dünyada qızıl dövr olmayıb. Amma insan qızıl dövr arzusunda olmuş, utopik cəmiyyətlər, dövlətlər haqqında xəyal qurmuş, əsərlər yazmış, nəzəriyyələr yaratmışdır.

Condorcet (1743-1794) ümid edirdi ki, idrak insanları ideala gətirəcək (və bu ümidlərini ideal cəmiyyət qurmaq istəyən Fransız inqilabının ölüm təhdidi altında, həbsxanada yazırdı!). V. Hugo ("Səfillər", Anjolrasın dilindən) yazırdı: vətəndaşlar, 19-cu əsr böyükdür, amma 20-ci xoşbəxt əsr olacaq... Daha aclıq, əsarət, fahişəlik olmayacaq... Ümumxalq səadəti gələcək. Lev Tolstoy ümid edirdi ki, 20-ci əsrin insanları daha mehriban və sülhsevər olacaqlar və daha savaşlar olmayacaq... Maarifçilik dövründən başlayaraq "elm və bilik artdıqca bəşəriyyətin qarşısında duran maneələr aradan qalxacaq, problemlər həll olunacaq" fikri, əsasən, hakim idi. Ç. Darvin, K. Marks kimi mütəfəkkirlərin, rasionalizm və pozitivizm kimi cərəyanların təsiri hər gələn nəslin və bütövlükdə cəmiyyətin əvvəlkindən daha mükəmməl olacağı, həyatın daha firavan və daha ədalətli olacağı haqqında fikir yaradırdı.

Lakin 19-cu əsrin axırlarına yaxın və 20-ci əsrin əvvəllərində Nietzsche, Freud kimi irrasionalistlərin fikirləri artan gərginlikdən, idrakın büdrəməsindən xəbər verirdi. Nietzsche`nin "Allah öldü" tezisi və yaxın gələcəkdə bəşəriyyətin böyük fəlakətlə üz-üzə dayanacağı barədə öngörmələri təlaş doğururdu: "Bizim bütün Avropa mədəniyyətimiz artıq uzun zamandır ki, bir əsrdən o biri əsrə keçdikcə artan bir gərginlik əzabı içində hərəkət edir və sanki fəlakətə (katastrofa) doğ-



## OUR STRANGE WORLD AND THE STRANGE WORLD OF IDEAS

*The following speech was prepared by Hamlet Isaxanli for the opening ceremony of a conference, but not read. We present it to our readers in essay form.*

*Hamlet Isaxanli*
*Khazar University, Baku, Azerbaijan*

The world has always been strange and complex. The world has always been full of both joy and sorrow. Humans experience both delight and agony; they live their lives and then surrender to death. They long to follow the whims of their free will, but at the same time live with concern for the families, communities, nations, and identities to which they belong, always trying to fulfill their duties and (metaphorically) pay their membership dues. As a result of the interweave of human social, political, economic, ethnic, and religious factors, they fall prey to the leadership of powerful individuals who crop up; they become participants in large uprisings and battles, spilling others' blood and taking lives.

There has never been a global "golden age." But people have always dreamed of a golden age. They construct fantasies, writing works about utopia and creating theories about ideal societies.

De Condorcet (1743-1794) hoped that human reason would bring people to an ideal state (and wrote of these hopes from a prison while facing the threat of death due to the French Revolution, the goal of which was to create an ideal society!) Victor Hugo wrote in Les Misérables, in the words of his character Enjolras, "Citizens, the 19th century is great, but the 20th century will be happy.... there will be no cause longer to fear famine, exhaustion, prostitution ... Oh, the human race will be delivered, relieved, and consoled!" Lev Tolstoy hoped that people of the 20th century would be more kind and peace-loving than previous generations and that there would be no more wars...The thought that "as knowledge and science increase, the obstacles standing before humanity will be eliminated and problems will be solved" essentially dominated from the beginning of the Enlightenment period. The influence of thinkers like Charles Darwin and Karl Marx and of trends like rationalism and positivism served to create ideas that each coming generation and society as a whole would be more excellent than in the past; life would be more prosperous and more just.

However, towards the end of the 19th century and in the early 20th century the thoughts of irrationalists such as Nietzsche and Freud told of increasing tension and deviation from reason. Nietzsche's statement "God is dead" and foresights that humanity would turn against itself in a sweeping tragedy in the near future birthed alarm: "The whole of our culture in Europe has long been writhing in an agony of suspense which increases from decade to decade as if in

ru gedir" ("Hakimiyyət əzmi"nə girişdən).

Utopiyanı nəyin bahasına olursa-olsun həyatda qurmaq istəyənlər meydana çıxdı. Sovet İttifaqı və ondan sonra yaranan sosializm adlandırılan dövlət sistemi xalqa çox şey verdi: bərabərlik, savadsızlığın aradan qaldırılması və icbari orta təhsil, ödənişsiz səhiyyə, ali təhsil və mənzil, işsizliyin tam aradan qaldırılması, yəni hamının işlə təmin edilməsi, elm, mədəniyyət və incəsənətə dövlət qayğısı... Daha nələr: inqilab və sürgünlər, özəl mülkiyyətin ləğvi, kənd təsərrüfatının kollektivləşdirilməsi və milyonların aclıqdan məhv olması, totalitar düşüncənin hökmü, ziyalıların məhv edilməsi, insanın iqtisadi (və bir sıra digər) təşəbbüsünün öldürülməsi, hər şeyin dövlət planına tabe edilməsi və bu total planlamanın iflasa uğraması... Çox qəribə dünya idi... Saf ideallar və yırtıcı, dağıdıcı təxəyyül sanki yanaşı var olmuşlar.

Böyük utopiyalar, xoşbəxt gələcək haqqında miflər dövrü bitdi, gərginlik, stres, risk, müdafiəsizlik genişləndi.

İnformasiya partlayışı təcrid olunmanı aradan qaldırdı. Qloballaşma yeni imkanlar yaradır və... istismarı, bərabərsizliyi gücləndirir. Pulun gücü siyasətin və vətəndaşlığın gücündən artıqdır. İqtisadi, ekoloji və siyasi tərəqqi və ya, heç olmazsa, davamlılıq əldə edilmir... Amma, qəribədir, nə olursa-olsun, həyat davam edir, həm də həyat qəribə və maraqlıdır.

Bu qəribə dünyada qəribə bir məkanda yaşayırıq: Şərqi Avropa və ya Cənub-Şərqi Avropa, Qəribə Rusiya və Qəribə Orta Şərqin qarşılaşdığı yer, Qara dəniz ətrafı və ya Genişlənmiş Qara dəniz bölgəsi və ya Qara dəniz-Xəzər dənizi bölgəsi deyə bilərik. Bu yaxınlarda qəribə sosializmi qəribə kapitalizmlə əvəz edən ölkələrdən və həmçinin çalxalanan kapitalizmdən gələn, İslam və Xristian mədəniyyətindən, Avropa və Asiyadan gələn qəribə, maraqlı, görkəmli insanların toplantısında iştirak etmək çox xoşdur. Böyük və kiçik problemlərimizi müzakirə edəcəyik. Təhlükələrdən və təhlükəsizlikdən, düşmənçilik və əməkdaşlıqdan, kasıbçılıq və zənginlikdən, totalitarizm və demokratiyadan, iqtisadi maraqlardan və siyasi oyunlardan, ədalətdən və ikili standartlardan, beynəlxalq güclərdən və bölgəsəl gücsüzlüklərdən, diametral əks yanaşmalardan və konfliktlərin həlli üsullarından... söhbət açacağıq. Yəqin ki, növbəti qayğılar və növbəti tövsiyələr dilə gətiriləcək. Mümkündür ki, gerçəklərin arasında utopik fikirlər də özünə yer tapacaq; mümkündür ki, dövlətlərin əlindən gəlməyəni xalq diplomatiyasının öhdəsinə verənlər olacaq. Nə etmək olar - Dünya çox qəribədir, bu qəribə dünya çox gözəl və çox ziddiyyətlidir, fikirlər də müxtəlif, maraqlı və qəribədir.

Böyük və qəribə fikir dünyamızla yüklənərək, bu gözəl və qəribə cazibəli yerə gəlmişik. Dünya fikir dünyasıdır. Yaxşı edib gəlmişik! Xoş gəlmisiniz!

expectation of a catastrophe" (from the introduction of *The Will to Power*).

People wanting to create utopia in life, no matter what the cost, entered the scene. The Soviet Union and the ensuing state system by the name of socialism gave humanity many things: equality, the elimination of illiteracy, compulsory high school education, free health care and higher education, the complete elimination of homelessness and unemployment as jobs were provided for everyone, government concern about academics, culture and the arts... and then more: revolution and deportations, the abolition of private property, the collectivization of agriculture and the death of millions by starvation, a totalitarian regime, the destruction of intellectuals, the extinguishment of people's economic and many other initiatives, the subordination of everything to a state plan and the failure of that total plan... It was a very strange world. Pure ideals and predatory, destructive fantasies simply existed side by side.

The era of myths about large utopias and happiness to come has ended. Tension, stress, risk, and defenselessness have spread.

The information explosion has eliminated isolation. Globalization creates new opportunities and... strengthens exploitation and inequality. The power of money is greater than the power of politics or citizenship. Economics, ecology and politics have not made progress, nor have they even maintained stability. But, it's strange. C'est la vie. Life goes on, and life is ever strange and interesting.

We live in a strange place within this strange world: the place where Eastern Europe or Southeastern Europe, Strange Russia and the Strange Middle East meet; we can refer to it as the area around the Black Sea or the Greater Black Sea region, or the Black Sea-Caspian Sea region. It is a great pleasure to participate in a gathering of strange, interesting, and distinguished people from countries where strange socialism was replaced by strange capitalism and also from countries with troubled capitalism, from cultures of Islam and Christianity, from Europe and Asia. We will discuss our major and minor problems. We will talk about safety and danger, enmity and cooperation, poverty and wealth, totalitarianism and democracy, economic interests and political games, justice and double standards, international powers and regional weaknesses, polar opposite approaches and conflict resolution methods. We will most likely verbalize our rising concerns and future recommendations. It is possible that thoughts of utopia will even find their place among the realities we discuss; it is possible that there will be those who assign responsibility to people's diplomacy for what does not come down from states. Why should we be surprised? The world is very strange; this strange world is very beautiful and very full of contradictions; and opinions are also varied, interesting and strange.

We have all loaded up our large and strange worlds of ideas and all come to this beautiful and strangely attractive place. The world is a world of ideas. We have done well to come! Welcome!

# "ŞƏHİDLƏR XİYABANI"NI ZİYARƏT





Yanvarın 19-da Xəzər Universitetinin kollektivi və Tələbə Məclisinin üzvləri "Şəhidlər Xiyabanı"nı ziyarət etdilər. Kollektiv adından abidənin önünə əklil qoyuldu, Universitet əməkdaşları və tələbələr Türk Şəhidləri abidəsini də ziyarət edib, önünə qərənfillər düzdülər.

Anım mərasimində İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri Vurğun Əyyub, Jurnalistika departamentinin müdiri Cabir Məmmədli, Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov, Xarici əlaqələr departamentinin müdiri Turan Cəfərova, Biologiya elmləri departamentinin müdiri İradə Xəlilova, İngilis dili və ədəbiyyat departamentinin koordinatoru Ceyhun Kərimov, Tələbə Məclisinin prezidenti Mirzəağa Səmədov iştirak etdilər.

Anım mərasimində xatirə şəkilləri çəkildi.

## AKADEMİK DEPARTAMENTLƏRİN SAYTDAKI BÖLMƏLƏRİNİN REYTİNQİNƏ AİD İCLAS

Dekabrın 26-da Xəzər Universitetində akademik departamentlərin universitet saytındakı bölmələrinin reytinqi ilə bağlı ikinci iclas keçirildi. İlk iclas mayın 20-də keçirilmişdi. Həmin vaxtdan sonrakı müddət ərzində bölmə saytlarındakı inkişafı izləmək məqsədi daşıyan tədbirdə universitet rəhbərliyi, fakültə dekanları və departament müdirləri iştirak edirdilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı iclası açaraq, akademik departamentlərin saytdakı bölmələrinin informasiya ilə təmin olunmasının mühüm əhəmiyyətini və zəruriliyini vurğuladı.

Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova təqdimatla çıxış edərək, yeni reytinq cədvəlini açıqladı və bölmə saytlarının məzmunu və dizaynı haqqında ətraflı məlumat verdi.

Reytinqin nəticələri iştirakçılar tərəfindən müzakirə edildi və bu sahədəki işlərin təkmilləşdirilməsinin vacibliyi qeyd olundu.

## ƏMƏKDAŞIMIZ DOSENT DİPLOMU ALMIŞDIR

Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi Elmira Məmmədova-Kekecə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən folklorşünaslıq ixtisası üzrə dosent diplomu təqdim edilmişdir. Həmkarımızı təbrik edir və uğurlar diləyirik.

## MÜƏLLİMİMİZİN DƏRS VƏSAİTİNƏ NƏŞR HÜQUQU VERİLMİŞDİR

Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi Xatirə Bəşirlinin "Bədii nəsr poetikası və folklorizm" adlı dərs vəsaitinə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən nəşr hüququ verilmişdir.

# MƏTBUAT KONFRANSI: “AZƏRBAYCANDA ALİ TƏHSİLİN İNKİŞAFI VƏ DÜNYA REYTİNQ CƏDVƏLLƏRİ”













Yanvarın 15-də Xəzər Universitetində “Azərbaycanda ali təhsilin inkişafı və dünya reytinq cədvəlləri” mövzusunda mətbuat konfransı keçirildi. Tədbirdə AzTV, İctimai TV, “525-ci qəzet”, APA, “Xəbər-365” və digər ölkə mediasının nümayəndələri, universitetin əməkdaşları iştirak edirdilər.

Mətbuat konfransını Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, media mənsublarını salamladı və mövzu ilə bağlı geniş çıxış etdi. H. İsaxanlı qeyd etdi ki, son bir neçə ildə nüfuzlu beynəlxalq təşkilatların reytinq cədvəllərində Azərbaycan universitetləri də yer almağa başlayıb. Bu, Azərbaycanda ali təhsil sahəsində inkişaf və ciddi uğurlar olduğunun göstəricisidir.

Lakin saytlarda, qəzetlərdə və digər KİV-lərdə bu haqda verilən məlumatlarda qeyri-dəqiq fikir, şərh və təhlillər yer alır, ali məktəblərin reytinq cədvəllərindəki yerləri yanlış göstərilir. Bəzi nüfuzlu təşkilatların reytinq cədvəlləri isə ümumiyyətlə diqqətdən kəharda qalır, bu haqda ictimaiyyətə məlumat çatdırılmır. H. İsaxanlı son dövrdəki reytinq cədvəllərində Xəzər Universietinin tutduğu yerlər haqqında həmin cədvəlləri nümayiş etdirməklə aydın izahat verdi.

H. İsaxanlı sözünə davam edərək, dünyada ali təhsil müəssisələrinin reytinqini müəyyənləşdrən nüfuzlu təşkilatlar – QS, WEBOMETRICS və EDUNİVERSAL haqqında ətraflı məlumat verdi və onların reytinqləri müəyyənləşdirərkən əsas götürdükləri meyarları nəzərə çatdırdı.

Sonra H. İsaxanl media nümayəndələrinin suallarını cavablandırdı və mətbuat konfransında iştirak etdiklərinə görə onlara təşəkkürünü bildirdi.



## MÜƏLLİMİMİZİN MƏKTƏBDƏ AÇIQ DƏRSİ

Azərbaycan dili və ədəbiyyat departamentinin təşəbbüsü ilə Xəzər Universitetinin məktəblərlə əlaqəsini daha da inkişaf etdirmək məqsədilə Nizami rayonunun 328 saylı məktəbi ilə birlikdə yeni layihə həyata keçirilir. Layihə çərçivəsində ilk olaraq dekabrın18-də departamentin müəllimi İlahə Hacıyeva tərəfindən həmin məktəbdə "Əvəzlik və onun məna növləri" mövzusunda açıq dərs keçirilmişdir.

Dərs İKT-nin tətbiqi və yeni təlim üsullarına əsaslanmış metodika ilə təşkil edilmişdir. Təhsil fakültəsinin dekanı Elza Səmədova, məktəbin direktoru Leyla Baxşıyeva və məktəbin Azərbaycan dili üzrə fənn müəllimi Elnaz Eyvazlının iştirakı ilə keçirilən açıq dərs maraqla izlənilib. Sonda isə iştirakçılar tərəfindən bəzi mülahizə və təkliflər söylənilib. Növbəti həftələrdə də bu cür dərslərin təşkili gözlənilir.

## NAXÇIVANDA ESFIDIP LAYİHƏSİNƏ AİD KONFRANS

Dekabrın 19-20-də "Əlilliyi olan şəxslərin Azərbaycan Ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsi çərçivəsində Naxçıvan Dövlət Universitetində yerli tərəfdaşların iştirakı ilə konfrans keçirildi. Tədbirdə Xəzər Universiteti İnsan resursları departamentinin direktoru Ülkər İsayeva, Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Mələk Kərimova və Şərq dilləri və din araşdırmaları departamentinin müdiri, fəlsəfə doktoru Elnurə Əzizova Xəzər Universitetini təmsil edirdilər.

Konfransın birinci günü yerli tərəfdaş universitetlər layihə çərçivəsində görülmüş işlər barəsində hesabatlarını təqdim etdilər. Xəzər Universitetindən layihəyə məsul şəxs kimi Ü. İsayeva təqvim üzrə görülmüş işlər haqqında hesabat verdi.

Sonra Azərbaycan Dövlət İqtisad Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Gəncə Dövlət Universiteti və Sumqayıt Dövlət Universitetinin təmsilçiləri layihə çərçivəsində gördükləri işlər haqqında məruzə etdilər. Əlil Təşkilatları İttifaqının (ƏTİ), Təhsil Nazirliyinin (TN) və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) əməkdaşları çıxışlarında inklüsiv təhsil sahəsində ölkədəki mövcud qanunvericiliyə, ehtiyac duyulan dəyişiklik və təklif olunan islahatlara aid mülahizələrini bildirdilər.

Konfransın ikinci günündə layihə çərçivəsində tərəfdaş universitetlər tərəfindən təsdiqlənməsi nəzərdə tutulan Əsasnamənin maddələri müzakirə olundu.

Müzakirələr zamanı tədbirdə iştirak edən TN, ƏƏSMN və ƏTİ ekspertləri tərəfindən irəli sürülən təkliflər əsasında Əsasnaməyə bəzi dəyişiklik və əlavələr edildi. Konfransdan sonra Naxçıvan Dövlət Universiteti tərəfindən Naxçıvanın tarixi əhəmiyyətli yerlərinə səfər təşkil olundu.

## ERASMUS MUNDUS PROQRAMININ MƏLUMAT GÜNÜ KEÇİRİLDİ

Dekabrın 22-də Xəzər Universitəsində Erasmus Mundus Action2 Ember proqramının məlumat günü keçirildi. Tədbirdə xaricdə təhsil və təcrübə mübadiləsi ilə maraqlanan müəllim və tələbələr iştirak etdilər. Proqramın Xəzər Universitəsində koordinatoru Ülkər İsayeva tələbələrin və müəllimlərin suallarını cavablandırdı.



## HAMLET İSAXANLI "DÜNYA" MƏKTƏBİNDƏ MÜHAZİRƏ OXUDU





Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı dekabrın 19-da "Dünya" məktəbində məktəbin müəllim və şagirdləri ilə görüş keçirdi və "Tarix boyu azərbaycanlılar Amerika haqqında nə bilmiş və nə düşünmüşlər" mövzusunda mühazirə oxudu.

Mühazirədən sonra bu mövzu geniş şəkildə müzakirə olundu. H. İsaxanlı çoxsaylı suallara cavab verdi.

## TƏLƏBƏ MƏCLİSİMİZ "TƏHSİL AÇARI" MÜKAFATI İLƏ TƏLTİF OLUNMUŞDUR



Dekabrın 19-da Binəqədi Rayon İcra Hakimiyyətində icra hakimiyyəti, "Mənim təhsilim, mənim gələcəyim!" kampaniyası və Gənclər üçün Təhsil Mərkəzi İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Azərbaycan Gənclərinin Maarifçilik Forumu" keçirilmişdir. Forumda icra hakimiyyətinin rəhbərliyi və işçiləri, ali məktəblərin tələbələri və gənclərlə işləyən müvafiq dövlət qurumlarının nümayəndələri iştirak etmişlər.

Forumda Xəzər Universiteti Tələbə Məclisinin ötən il ərzində gənclərin maarifləndirilməsi istiqamətində göstərdiyi fəaliyyətə görə "Təhsi açarı" mükafatına layiq görüldüyü elan olunmuş və mükafatı Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov Tələbə Məclisinin prezidenti Mirzəağa Səmədova təqdim etmişdir.

Tələbə Məclisimizi bu münasibətlə təbrk edir, ona yeni uğurlar arzulayırıq.

## SPAGETTİ KÖRPÜ MÜSABİQƏSİ

Dekabrın 23-də Xəzər Universitetində İnşaat Mühəndisliyi departamenti tərəfindən ikinci dəfə Spagetti Körpü Müsabiqəsi keçirildi.

Müsabiqədən iki gün əvvəl körpünün standartlara cavab verib-verməməsi nəzarət komitəsi tərəfindən yoxlanılmış, 12 körpünün standartlara cavab verdiyi təsdiq olunmuşdur.

Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Hassan Niknafsın iştirakı ilə keçirilən müsabiqədə Mühəndislik mexanikası və materialların gücü dərslərində iştirak edən 36 tələbə 12 qrupda mübarizə apardı.

"Suicide" və "Slayer" qrupları müsabiqənin qalibləri oldular. Qeyd edək ki, bu iki qalib qrup gələn il Xəzər Universiteti tərəfindən Azərbaycan üzrə keçiriləcək növbəti Spagetti Körpü Müsabiqəsində iştirak edə biləcəklər.



## FİRƏNGİZ ƏLİZADƏ: BU MƏNİM ÜÇÜN BÖYÜK UĞURDUR

*Dekabrın 16-da Beynəlxalq "Grammy" mükafatına "Klassik musiqi" nominasiyasında namizədlərin adları açıqlanıb*



Bəstəkarlar İttifaqından AzərTAc-a bildirilib ki, Azərbaycan bəstəkarlıq məktəbi tarixində ilk dəfədir ki, bəstəkarımız belə məşhur mükafata namizəd göstərilir. Bu Azərbaycan musiqi ictimaiyyəti üçün çox əlamətdar hadisədir ki, üç namizəddən biri dünya şöhrətli bəstəkar, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq Artisti Firəngiz Əlizadədir.

Beynəlxalq "Grammy" mükafatı musiqi sahəsində dünyanın ən məşhur mükafatı sayılır və "Oskar"ın musiqi variantı hesab edilir.

Bu xəbərə münasibət bildirən Firəngiz Əlizadə deyib: "Mən bu şad xəbəri "Hans Sikorski" yayım evinin xəbər lentindən əldə etdim. Orada üç bəstəkarın adı qeyd edilib. Bunlardan biri müasir musiqi sahəsində böyük müvəffəqiyyətlər əldə etmiş ən məhsuldar bəstəkarlardan olan amerikalı Lera Auerbaxdır. Digər bəstəkar Meçislav Vaynberq yaşlı nəslin nümayəndəsidir və onun "Anna Frankın gündəliyi" operası dünyanın bir çox ölkəsində səhnəyə qoyulub.

Fəxrlə deyə bilərəm ki, bu üç namizəddən biri olmaq mənim üçün böyük uğurdur. Bu mükafatı almağa nə qədər şansımın olduğunu deyə bilmərəm, lakin 2015-ci il fevralın 8-də keçiriləcək təqdimat mərasiminə artıq dəvət almışam. Mənim üçün əlamətdar məqam odur ki, bu ali mükafata məşhur amerikalı skripkaçı, meqa-star Hillari Hanın "Deutsche Grammofon"da işıq üzü görən, musiqilərimdən ibarət alboma görə namizəd göstərilmişəm".

## GÖRKƏMLİ RƏSSAM HAQQINDA ROMAN

*Səttar Bəhlulzadənin ev-muzeyində Məhbubə Hacıyevanın "Fələklər yandı ahimdən..." romanının təqdimatı keçirilib*

Muzeydən AzərTAc-a bildirilib ki, Azərbaycanın Xalq Rəssamı Səttar Bəhlulzadəyə həsr edilmiş kitabın təqdimat mərasimində sənət adamları, sənətşünaslar, jurnalistlər iştirak ediblər.

Ev-muzeyinin direktoru İradə Abdinova deyib ki, bu təqdimat mərasimi rəssamın 105 illik yubileyi ilə əlaqədar keçirilən silsilə tədbirlərin davamıdır. O, yeni kitabı S.Bəhlulzadə şəxsiyyətinə, sənətkarlığına olan hörmət və marağın nəticəsi kimi dəyərləndirib. Bildirib ki, belə əsərlər gənclərə həm S.Bəhlulzadə sənətini, həm də ümumilikdə Azərbaycan incəsənətini daha yaxından tanımağa təkan verəcəkdir.

Kitabın yazılmasının çoxdankı arzusu olduğunu söyləyən Məhbubə Hacıyeva əsərin əsas qayəsi, məzmunu haqqında ətraflı məlumat verib. Romanda rəssamın həyatı, yaradıcılığı, yaşadığı Əmircan qəsəbəsinin tarixi bədii formada təsvir olunub.



## AZƏRBAYCAN RƏSSAMININ ƏSƏRİ 107 MİN DOLLARA SATILDI

Məşhur Azərbaycan rəssamı Toğrul Nərimanbəyovun "Böyük qoç" (1982) adlı rəsm əsəri Böyük Britaniyanın "Sotheby's" hərrac evində 68,500 funt-sterlinqə (107, 400 dollar) satılıb.

Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, hərrac evində Rusiya, Qafqaz və Mərkəzi Asiya üzrə kurator Suad Qarayevadır və onun bu layihənin gerçəkləşməsində böyük rolu olub.

T. Nərimanbəyov 1930-cu ildə Bakıda anadan olub.1950-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbini, 1955-ci ildə isə Litvada Vilnüs Rəssamlıq İnstitutunu bitirib.

Sənətkarın mənzərə, portret, monumental boyakarlıq, illüstrasiya və teatr rəssamlığı kimi müxtəlif sahələrdə yaratdığı əsərlər mövzu və janr rəngarəngliyi, estetik kamilliyi və özünəməxsus üslubu ilə səciyyələnir. Onun insanların daxili aləminin ən incə çalarlarınadək təsvirini verən portretləri bu janrda yaradılmış əsərlər içərisində öz orijinallığı, bədii forma kamilliyi və novatorluğu ilə seçilir. Sənətkar təzad və şərtiliyi, ənənəvilik və müasirlik kimi müxtəlif yanaşmaları öz əsərlərində harmonik şəkildə əks etdirib. Ayrı-ayrı tamaşalara verdiyi bədii tərtibatlarla Azərbaycan teatr rəssamlığının dəyərli nümunələrini yaradıb. Monumental boyakarlıq və divar rəssamlığı janrında işlənmiş tabloları xəlqilik ruhu ilə seçilərək böyük estetik təsir qüvvəsinə malikdir.

*Toğrul Nərimanbəyovun "Böyük qoç" (1982) rəsm əsəri Böyük Britaniyanın "Sotheby's" hərrac evində satışa çıxarılıb və baha qiymətə alınıb*



Rəssamın əsərləri dünya sərgi salonlarında, rəsm qalereyalarında, incəsənət muzeylərində nümayiş etdirilir, müxtəlif dövlətlərin muzeylərində və ayrı-ayrı şəxslərin kolleksiyalarında saxlanılır.

T. Nərimanbəyov 2013- cü il iyunun 2- də Parisdə vəfat edib və orada dəfn olunub.




## QARABAĞIN
### GÖRKƏMLİ XADİMLƏRİNƏ HƏSR OLUNMUŞ POÇT MARKALARI BURAXILIB

*Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərmarka" şirkəti yeni marka seriyası nəşr etdirib*

Nazirlikdən AzərTAc-a bildirilib ki, "Qarabağın görkəmli xadimləri" adlandırılan marka seriyasına 6 poçt markası daxildir.

Markaların üzərində Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Əbdürrəhim bəy Haqverdiyev, Bülbül, Üzeyir Hacıbəyli və Xan Şuşinskinin portretləri yer alıb.

## MƏHƏMMƏD PEYĞƏMBƏR HAQQINDA FİLMİN ÇƏKİLİŞLƏRİ BAŞA ÇATIB

*İran İslam Respublikasının istehsalı olan "Məhəmməd Allahın Rəsuludur" filminin rejissoru Məcid Məcidi Tehranda yanvarın 10-da keçirdiyi mətbuat konfransında maraqlı açıqlamalar verib*



Tanınmış rejissor çəkilişin başa çatdığını bildirib və qeyd edib ki, filmdə Məhəmməd Peyğəmbərin üzü göstərilməyəcək. "Peyğəmbərin surəti yoxdur" - deyə, sözlərinə davam edən M.Məcidi qeyd edib ki, filmin ərsəyə gəlməsində şiə və sünni din alimlərinin böyük rolu olub. Onlar Peyğəmbərin həyatı və fəaliyyəti haqqında dəyərli məlumatlar veriblər.

Məhəmməd Peyğəmbər haqqında cəmi 40 filmin çəkildiyini bildirən M.Məcidi onların bir çoxunun zəif olduğunu diqqətə çatdırıb. Rejissor müasir dövrdə İslam dininin və onun Peyğəmbərinin daha geniş şəkildə və düzgün təbliğ olunmasının vacibliyini qeyd edib.

Xatırladaq ki, bu filmin çəkilişləri dövründə İran mətbuatında Məhəmməd Peyğəmbərin surətinin göstəriləcəyi barədə məlumatlar yayılmışdı. İranın və başqa müsəlman ölkələrinin din xadimləri filmdə Peyğəmbərin surətinin göstərilməsinin əleyhinə olmuş və rejissoru tənqid etmişdilər.

## "KİTABİ - DƏDƏ QORQUD" OĞUZ DASTANINDA TÜRKLƏRİN HƏRB SƏNƏTİ"NƏ DAİR KİTAB

*"Ol" nəşriyyatında Yusif Ağayev və Səbuhi Əhmədovun "Kitabi-Dədə Qorqud" dastanı əsasında qələmə alınmış "Kitabi-Dədə Qorqud" oğuz dastanında türklərin hərb sənəti" kitabı rus dilində ("Voyennoye iskusstvo tyurkov v oquzskom epose "Kitabi-Dede Qorqud") çapdan çıxıb*

AzərTAc xəbər verir ki, 137 səhifədən ibarət kitabın elmi redaktoru AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlıdır.

İlk dəfədir ki, dastan orta əsr hərb sənətinin müxtəlif tərəflərini öyrənməyə imkan verən müstəqil mənbə kimi araşdırılır. Müəlliflər dastanda verilən hərbi-texniki, hərbi-taktiki və hərbi-hüquqi məqamlara aydınlıq gətiriblər.

Müəlliflər kitabda verilən silah və sursat adlarını, hərbi vəzifə və rütbələri, taktiki məqamların təhlilini verməklə bərabər onların sosial, ritual, siyasi köklərini göstərməyə də çalışıblar. Kitabda çoxsaylı arxeoloji, yazılı, təsviri və muzey materiallarını nümayiş etdirən illüstrasiyalar da yer alıb.

## YENİ MÜKAFAT TƏSİS OLUNUB

*Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı ASSİTEJ - Azərbaycan Milli Mərkəzi ilə birgə yeni mükafat təsis edib*



Teatrdan verilən məlumata görə, məqsəd teatrda fəaliyyət göstərən bədii heyətin əməyinin yüksək qiymətləndirilməsi, onların həvəsləndirilməsi, yaradıcılıqlarına diqqət və qayğının daha da artırılmasıdır.

87-ci teatr mövsümü ərzində uğurlu obrazları, debüt tamaşaları, maraqlı layihələri ilə seçilən, müxtəlif xarici ölkələrdə festival və qastrollarda çıxış edən və ASSİTEJ-Azərbaycan Milli Mərkəzinin işində fəal iştirak edən teatrın yaradıcı heyəti bu il teatr mövsümünün sonunda "İlin ən yaxşı aktyoru", "İlin ən yaxşı aktrisası", "İlin debüt tamaşası" və digər nominasiyalar üzrə mükafatlandırılacaq.



# UŞAQ EVİNDƏ BAYRAM

Dekabrın 23 - də Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbələri 3 nömrəli uşaq evində bayram şənliyi təşkil etdilər. Uşaqlar bizim gəlişimizə çox sevindilər. Fakültənin birinci kurs tələbələri Leyla Mahmudova aparıcı, Zeynəb Seyidova Qar qız, üçüncü kurs tələbəsi Ruslan İsmayılov Şaxta baba rolunda çıxış etdilər.

Xəzər Universiteti Tələbə Məclisinin prezidenti Mirzəağa Səmədov uşaqları Yeni il münasibətilə təbrik etdi. Universitetimizin rəqs ansamblı öz gözəl rəqsləri ilə uşaqları sevindirdilər. Uşaqlar da öz növbələrində bizə musiqili səhnələr göstərdilər.

Sonra bütün uşaqlara hədiyyələr verildi. Uşaq evi də Xəzər Universitetinə uşaqların əlləri ilə toxuduqları xalça və göz muncuqlarından ibarət ağac bağışladılar. Balaca dostlarımızla bayram şənliyi xoş əhval-ruhiyyə ilə başa çatdı.

*Leyla Mahmudova,*
*İqtisadiyyat və menecment fakültəsinin*
*birinci kurs tələbəsi*






# UNUDULMAZ ALİMİN XATİRƏSİ



Dekabrın 24-də akademik Ziya Bünyadovun doğum günü ilə əlaqədar Xəzər Universitetinin Humanitar və sosial elmlər fakültəsinin rus bölməsi tələbələrinin iştirakı ilə dərsdə tədbir təşkil olundu.

Bu münasibətlə tələbələr hazırladıqları materialları təqdim etdilər, müharibə illərində Z.Bünyadov haqqında sənədli film nümayiş olundu.

Tədbirdə Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Fərda Əsədov da iştirak edirdi. F.Əsədov Ziya Bünaydovla bağlı maraqlı xatirələr danışdı, onun həyat və yaradıcılığından ətraflı şəkildə bəhs etdi, tələbələrdə maraq doğuran sualları cavablandırdı.

# BMT SİMULYASİYA OYUNU





Dekabrın 25-də Siyasi elm və beynəlxalq münasibətlər departamentinin tələbələri Birməşmiş Millətlər Təşkilatı Simulyasiya Oyununda iştirak etdilər. Simulyasiya oyunu Azərbaycanın xarici siyasəti fənni çərçivəsində təşkil olundu.

2012-ci ildə BMT-də baş vermiş real müzakirələri imitasiya edən ssenaridə Suriya böhranına BMT Təhlükəsizlik Şurası və Baş Assambleyası tərəfindən baxılması nəzərdə tutulmuşdu. Tələbələr müxtəlif üzv dövlətlərin daimi nümayəndələri və BMT-nin rəsmiləri rollarında çıxış edirdilər.

Məşğələnin ssenarisinə görə, Amerika Birləşmiş Ştatları BMT Nizamnaməsinin VII fəslinə əsasən güc istifadəsi üçün avtorizasiyanı nəzərdə tutan qətnamə layihəsi təqdim etdi.

Gözlənildiyi kimi, bu addım qızğın müzakirələrə yol açdı və iki daimi şura üzvü qətnamə layihəsinə veto qoydu. Bundan sonra, ABŞ məsələni Baş Assambleyaya çıxartdı və burada mütləq əksəriyyətin səsi ilə qətnamə qəbul olundu.

Daimi təmsilçilərin rolunda olan tələbələr müzakirələrdə öz ölkələrinin mövqelərini müdafiə etdilər. Bu məşğələ tələbələrə çoxtərəfli formatda praktik diplomatiyanı duymağa imkan yaratdı. Tədbir, həmçinin, iştirakçılara Azərbaycanın 2012-2013-cü illərdə Təhlükəsizlik Şurasında iki illik qeyri-daimi üzv kimi apardığı diplomatiyanı daha yaxşı qavramağa kömək etdi.

## DEPARTAMENT MÜDİRİMİZİN MƏQALƏSİ “MUSİQİ DÜNYASI” JURNALINDA DƏRC EDİLMİŞDİR




“Musiqi dünyası” jurnalının ötən ilki sonuncu nömrəsində Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqovanın “Sərdar Fərəcovun “4 vals”ı” adlı məqaləsi çap olunmuşdur. “Musiqi dünyası” beynəlxalq, elmi-pedaqoji, tənqidi-publisistik, mədəni-maarif musiqi jurnalıdır.

Məqalədə vals janrının 18-ci əsrdən etibarən keçdiyi inkişaf yolunun qısa tarixçəsi verilib. 20-ci əsrin əvvəllərində valsın Avropa musiqi formalarından biri kimi Azərbaycan musiqisinə gəlişi prosesi izlənib. Bu məsələdə Üzeyir Hacıbəylinin elmi mövqeyi, yəni “musiqidə tərcümə” ideyası xüsusi qeyd olunub. Vals janrına müraciət etmiş Azərbaycan bəstəkarlarının əsərləri sadalanıb. Müəllif bəstəkar Sərdar Fərəcovun yaradıcılığında valsın yerini müəyyənləşdirib. Onun «4 vals» silsiləsi qısa təhlil edilib. Məqalənin sonunda bu valsların fortepiano ifaçılığı baxımından bəzi tövsiyələr verilib.

Qeyd edək ki, vals silsiləsinin bütün nömrələrinin ilk ifaçısı Zülfiyyə Sadıqova olmuşdur.

*(Məqalə jurnalın 60-cı səhifəsində dərc olunur).*

# Təbrik Edirik !

## "XƏZƏR"DƏ YUBİLEY MƏRASİMİ



Dekabrın 26-da Xəzər Universitetində universitetin əməkdaşı Qətibə Kərimovanın yubileyi küçirildi. Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Q. Kərimovanı təbrik edərək, həyat və fəaliyyətində ona uğurlar arzuladı. Yubilyara universitetin təbrik məktubu, xatirə hədiyyəsi və gül dəstəsi təqdim olundu.

Universitetin prorektorları Məhəmməd Nuriyev, İsaxan İsaxanlı və digərləri çıxış edərək, Q. Kərimovanın fəaliyyətindən söhbət açdılar, təbrik və xoş arzularını çatdırdılar.

Mərasim musiqi ilə müşayiət olundu.

## "KİTAB KLUBU"NDA ŞAİRLƏ GÖRÜŞ





Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin təşəbbüsü ilə dekabrın 26-da "Kitab klubu"nda şair Elnaz Eyvazlı ilə görüş keçirildi. Görüşü giriş sözü ilə açan departamentin müdiri Vurğun Əyyub E. Eyvazlını tələbələrə təqdim etdi. Şairin 11 yaşlı qızı Yeganənin Xəzər Universitetinin təşkil etdiyi konsertdə oxuduğu mahnının səsləndirilməsi əsl sürpriz oldu.

Şair sözə, yaradıcılığa qısaca münasibətini bildirdikdən sonra tələbələr onun şeirlərini oxudular. Verilmiş suallar əsasında şairlə tələbələr arasında səmimi müzakirə mühiti yarandı, onun cavabları dinləyicilərin dərin marağına səbəb oldu. Görüşün yaddaqalan hissələrindən biri də E. Eyvazlının orta məktəbdə dərs dediyi şagirdlərinin müəllimləri haqqında sevgi ilə danışması idi. Sonda E. Eyvazlı tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirdi, iki şeir kitabını – "Yaxşı ki, yaza bilirəm", "Kişi etirafı" kitablarını tələbələrə hədiyyə etdi. *(E.Eyvazlı ilə müsahibə jurnalın 36-cı səhifəsində dərc olunur).*

## MÜƏLLİMİMİZ BEYNƏLXALQ KONFRANSDA

Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Yeganə Gözəlova dekabrın 27-29-da Maqusa (Kipr) şəhərində Atatürk Kültür, Dil və Tarix Qurumunun və Doğu Ağdəniz Universitetinin birgə keçirdiyi "Beynəlxalq arenada Kipr problemi və gələcəyi" adlı konfransda "Kipr problemi Rusiya tarixşünaslığında" növzusunda məruzə ilə çıxış etmişdir.

## AZƏRBAYCANDA SÜRÜŞMƏ SAHƏSİ İLK DƏFƏ YENİ ÜSULLA TƏDQİQ EDİLDİ

*Bu barədə Trendə AMEA Coğrafiya İnstitutunun landşaftşünaslıq və landşaft planlaşdırılması şöbəsinin aparıcı elmi işçisi Mirnuh İsmayılov məlumat verib*



O bildirib ki, Şamaxının Muğanlı kəndində sürüşmə sahəsi müasir üsullarla – kosmik şəkillər əsasında coğrafi informasiya sistemləri vasitəsilə öyrənilib.

Onun sözlərinə görə, Azərbaycanın istənilən sahəsində sürüşmələrin risk və təhlükəlilik dərəcəsini həmin yeni modellə tədqiq etmək olar. Bu model əsasında sürüşməyə təsir edən 16-dan çox parametri (yamacların meylliliyi, yamacların səmti, ekzodinamik gərginlik, səthin şaquli, üfiqi parçalanması və s.) öyrənmək mümkün olur. Bu modellə otaq şəraitində çox qısa zaman ərzində sürüşmələrin risk və təhlükəlilik dərəcəsini üzrə çıxarmaq mümkündür:

"İndiyədək sürüşmələrlə bağlı aparılan tədqiqatlar bir növ vizual xarakterli olub. Sürüşmə ərazilərinin süxurlarının litologiyası, tərkibi haqqında, sürüşmələrin xarici görünüşü barədə məlumat verilirdi, geoloji amillərə və sürüşmə səthində baş verən dəyişmələrə görə genetik təsnifat aparılırdı. Onda da 2-3 təsnifat aparılırdı".

## CƏLİLABADDA ALTI MİN İL BUNDAN ƏVVƏLƏ AİD MADDİ-MƏDƏNİYYƏT NÜMUNƏLƏRİ TAPILIB

*AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Muğan-neolit ekspedisiyası Cəlilabad royununda arxeoloji tədqiqat işlərini başa çatdırıb*

Ekspedisiyanın rəhbəri, tarix elmləri doktoru Tufan Axundov AzərTAc-a bildirib ki, tədqiqat işləri rayonun Üçtəpə kəndi ərazisində aparılıb. Burada Polutəpə qədim yaşayış yerində 6 min bundan əvvələ aid maddi-mədəniyyət nümunələri-kərpicdən tikilmiş bina qalıqları, saxsı qablar, kiçik ölçülü fiqurlar aşkar olunub.

## BRİTANİYALILAR AY EKSPEDİSİYASININ TƏFƏRRÜATLARINI AÇIQLADILAR

*Böyük Britaniya alimləri Ayı təhqiq etməklə bağlı planları barədə məlumat veriblər*

Lunar Mission One (LMO) adlı yeni missiya Yerin yeganə peykinə insanın ayaq basdığı "Appalon" missiyasından bəri ilk proqram olacaq.

AzərTAc xəbər verir ki, LMO missiyasının məqsədi Ayın cənub qütbünü tədqiq etmək və peykin səthinin planetoloji xüsusiyyətlərini öyrənməkdir. Eyni zamanda, alimlər ekspedisiya əsnasında peykdə gələcək kolonistlərin bir neçə il ərzində daimi yaşaması və onu tədqiq etməsi üçün şərait yaradılmasının mümkünlüyünü aydınlaşdırmağa çalışacaqlar.

Layihənin rəhbərləri suxur nümunələri götürmək üçün xüsusi qurğular vasitəsi ilə Ayın səthini 100 metr dərinliyə qədər qazmağı, bundan başqa kosmosu və qədim qalaktikaları daha dəqiq öyrənmək məqsədi ilə burada rəsədxana quraşdırmağı da planlaşdırdıqlarını bildiriblər.

Ay səthinin 100 metrədək qazılması alimlərin peykin dərin qatlarında su və orqanik birləşmələrin tapılmasının mümkünlüyü barədə suallarına da aydınlıq gətirə bilər.



## MOBİL TELEFONLARIN TƏHLÜKƏSİZ OLDUĞUNU SÜBUT EDƏN TƏDQİQAT

*Mançester Universiteti alimlərinin qənaətinə görə, mobil telefonlar və elektrik xətlərinin yaratdığı maqnit sahələr insan sağlamlığı üçün zərərsizdir*

Bundan əvvəl keçirilmiş tədqiqatlarda isə mobil qurğular və şəbəkə kabellərindən yayılan elektromaqnit şüalanmanın sonsuzluq və xərçəng xəstəliyinə səbəb olduğu bildirilirdi. Bəzi ekspertlər hətta bunun uşaq leykemiyası ilə nəticələnə biləcəyini qeyd edirdilər. Lakin Mançester Universiteti alimləri bunu təkzib ediblər.

Tədqiqatçılar zəif maqnit sahələrinin sağlamlıq vəziyyətinin formalaşmasında, əsəb sisteminin idarə edilməsində və DNK-nın bərpasında mühüm rol oynayan flavoproteidlərə (Orqanizmdə oksidləşdirici-bərpaedici reaksiyaların bəzi fermentləri) necə təsir göstərməsini müşahidə ediblər. Çünki bu zülalların zədələnməsi sağlamlıqda problemlər yarada bilər. Nəticədə məlum olub ki, şüalar flavoproteidlərin fəaliyyətinə tam təsirsizdir.

Flavoproteidlər elektronları bir yerdən digər yerə aparır. Yolda radikal cütlüklər kimi tanınan qısaömürlü birləşmələr yaranır. Hesab olunur ki, onların iştirak etdiyi biokimyəvi reaksiyalar müəyyən şəraitdə elektromaqnit şüalanmaya qarşı çox həssasdır. Aparılan yeni tədqiqat göstərib ki, zəif elektromaqnit sahəsinin biokimyəvi effekti üçün insan biologiyasında düzgün şəraitə nadir hallarda rast gəlinir.



Qeyd etmək lazımdır ki, bu, mobil qurğuların təhlükəsiz olmasını sübut edən yeganə tədqiqat deyil. Belə ki, 2010-cu ildə Britaniya Səhiyyə Mühafizəsi Agentliyi mobil telefonlar və Wi-Fi çıxış nöqtələrinin insan üçün zərərli olması ilə bağlı əsaslı sübutlar aşkar edə bilməyib. Lakin qeyri-ionlaşdırıcı şüalanma üzrə müstəqil AGNIR qrupu mobil qurğu şüalarının effektinin uzunmüddətli araşdırılmasına təkid edir.

Mançester Universitetinin tədqiqatı *Journal of the Royal Society Interface* jurnalında dərc edilib.

---

## TƏHLÜKƏLİ ZONALAR ÜÇÜN
# SUPER - ROBOTLAR

*Amerika mütəxəssisləri təhlükəli zonalarda əməliyyatlar üçün super-robotlar yaradıblar*




Yaponiyada Fukusima-1 AES-də baş vermiş partlayışdan sonra Amerika alimləri təhlükəli zonalarda əməliyyatlar apara biləcək çoxfunksiyalı robotlar yaratmaq qərarına gəliblər. Xarici kütləvi informasiya vasitələri xəbər verirlər ki, bunlar xilasetmə-axtarış, kəşfiyyat əməliyyatları və başqa əməliyyatlardır.

Reaktiv hərəkət laboratoriyasının (NASA) və "DARPA" müdafiə elmi-tədqiqat agentliyinin aparıcı mütəxəssisləri iki robot – "RoboSimian" və "Surrogate" robotlarını layihələşdirib və quraşdırıblar. Bu robotları "2015 DARPA Robotics Challenge Finals" müsabiqəsində təqdim etmək planlaşdırılır.

"Surrogate" robotu insana daha çox bənzəyir. Onun hündürlüyü 1,4 metr, çəkisi 90,7 kiloqramdır. Bu robot müxtəlif obyektləri tuta bilir. Onun elastik kürəyi müxtəlif manevrlər və hərəkətlər etməyə imkan verir. Lakin bu robot üçün pillələri qalxmaq hələlik çətindir. "RoboSimian" robotu dördayaqlı hörümçəyə bənzəyir. O, hər cür maneələri əla keçir və demək olar ki, hər cür səthi qalxa bilir.







## MUSİQİ VƏ İNCƏSƏNƏT DEPARTAMENTİNİN HESABAT KONSERTİ

Dekabrın 18-də Xəzər Universitetinin "Dünya" konsert salonunda Musiqi və incəsənət departamentinin yarım illik hesabat konserti keçirilmişdir. Konsertin aparıcısı və bədii rəhbəri departamentin müdiri Zülfiyyə Sadıqova idi.

Konsertdə Xəzər Universitetinin Kamera orkestri, Humanitar və sosial elmlər, Mühəndislik və tətbiqi elmlər və Təhsil fakültəsinin 1-ci kurs tələbələrindən ibarət Xor kollektivi (bədii rəhbər Xəzər Universitetinin müəllimi Məhsəti Cabbarova), qızlardan və oğlanlardan ibarət rəqs ansamblı (müəllimlər Səbinə İsmayılova və Telman Əliyev), ilk dəfə olaraq Xəzər Universitetinin Azərbaycan milli alətlərindən ibarət Kamera orkestri (bədii rəhbər Arif Azərtürk) çıxış etdilər.

Kamera orkestrinin müşayiəti ilə "Dilican", "Qafqazi" , "Evləri var xanə-xanə", F.Əmirovun "Gecə keçdi" əsəri Arif Azərtürkün ifasında səsləndi. Solistlərdən Mühəndislik və tətbiqi elmlər fakultəsinin tələbələri Kənan Məmmədov, Günel Səbzəliyeva, Humanitar və sosial elmlər fakultəsinin tələbələri Aygün Həsənzadə, Ləman Əhmədova, Təhsil fakultəsinin magistr tələbəsi Elçin Feyzullayev, S.Rüstəmov Ü.Hacıbəyli və T.Quliyevin mahnılarını ifa etdilər.

## ƏMƏKDAŞLARIMIZIN HƏMMÜƏLLİFİ OLDUĞU KİTAB İNGİLİS DİLİNDƏ ÇAPDAN ÇIXMIŞDIR

Xəzər Universitetinin Tədris işləri üzrə prorektoru, professor Məhəmməd Nuriyev, Magistratura, Doktorantura və Elmi işlər Bölməsinin müdiri fəlsəfə doktoru Eldar Şahgəldiyev və İspaniyadakı Avropa Universiteti Biznes Məktəbinin əməkdaşı Zəka Salmanlının həmmüəllifi olduqları "Modern challenges of oil producing countries and the ways for establishing a non-oil dependent economy in Azerbaijan" ("Neft istehsal edən ölkələrin müasir problemləri və Azərbaycanda neftdən asılı olmayan iqtisadiyyat yaratmağın yolları") adlı kitab "Müəllim" nəşriyyatında işıq üzü görmüşdür. Kitabda Azərbaycanın neft biznesi və hidrokarbon asılılığının səviyyəsi ilə bağlı dərin araşdırmalar aparılmışdır.

Araşdırmalar Azərbaycan iqtisadiyyatında neft asılılığının azaldılması yollarını göstərir və neft istehsal edən ölkələrin müasir problemlərini üzə çıxarır. Bundan başqa, kitabda həmçinin idxal və ixrac balansları əsasən neft biznesi ilə nizamlanan iqtisadi strukturların da iqtisadi və sosial-siyasi vəziyyətlərinə aydınlıq gətirilmişdir.

Kitabın məsləhətçisi ispaniyalı professor Hubert Codur (Hubert Joo).







## XƏZƏR UNİVERSİTETİNDƏ “POTENSİAL MƏKTƏB DİREKTORLARINA MƏKTƏBİN İDARƏ EDİLMƏSİ ÜZRƏ TƏLİM KURSLARI” DAVAM EDİR

UNICEF və Xəzər Universitetinin birlikdə həyata keçirmək istədiyi “Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu” layihəsi üzrə 17 noyabr 2014-cü il tarixində başlayan təlimlər Xəzər Universitetinin Neftçilər kampusunda davam edir.

Təlimin əsas məqsədi ölkədəki yeni təhsil strategiyasına və təhsil islahatına uyğun olaraq məktəb direktorlarının və gələcəkdə bu sahədə fəaliyyət göstərmək istəyən təhsil işçilərinin bilik və bacarıqlarını artırmaq, onları dünyadakı səmərəli idarəetmə təcrübəsi ilə tanış etməkdir.

Bu məqsədlə İKT, Kurikulumun tətbiqi və idarəedilməsi, Təhsilin idarəolunması, Statistika və məlumatların təhlili, Maliyyə və mühasibat uçotu, Qanunvericilik və təhsil hüququ, Təhsil psixologiyası, Psixometrika, Kitabxana - İnformasiya Mərkəzi Resursları fənləri üzrə həftədə 4 gün mütəmadi dərslər keçirilir.

## TƏHSİL FAKÜLTƏSİNDƏ YENİ İL ŞƏNLİYİ

Dekabrın 23-də Təhsil fakültəsi öz tələbələri üçün universitetin yeməkxanasında Yeni il şənliyi təşkil etdi. Tədbiri universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli açaraq, tələbələri Yeni il münasibətilə təbrik etdi və onlara uğurlar arzu etdi. Şənlikdə tələbələr müxtəlif viktorina və yarışlarda iştirak etməklə tədbiri daha da maraqlı etdilər. Yeni il şənliyi bir-birindən rəngarəng rəqs və musiqi nömrələri ilə sona çatdı.





## TƏLƏBƏMİZİN ƏL İŞLƏRİNDƏN İBARƏT SƏRGİSİ

Dekabrın 24-26-da Xəzər Universitetinin sərgi salonunda Humanitar və sosial elmlər fakültəsinin 1-ci kurs tələbəsi Pəri Qazıbəyovanın fərdi sərgisi keçirildi. P.Qazıbəyova əl işlərindən ibarət 20-dən artıq əsərini sərgidə nümayiş etdirdi. Sərgi müəllimlərin və tələbələrin böyük marağına səbəb oldu.

Qərara alındı ki, universitetdə P. Qazıbəyovanın bundan sonrakı əl işlərinin də sərgisi keçirilsin.

## "CHARLIE HEBDO" JURNALININ REDAKSİYASINA BASQIN




*Yanvarın 7-də Fransada nəşr olunan "Charlie Hebdo" satirik jurnalının Parisdəki redaksiyasına silahlı hücum olub*

Verilən məlumata görə, üç naməlum şəxs redaksiyaya daxil olaraq, əməkdaşları atəşə tutub. Onların "Kalaşnikov" avtomatları ilə atəş açdıqları bildirilir.

İlkin informasiyalara əsasən hadisə zamanı 12 nəfər ölüb, 7 nəfər yaralanıb. Ölənlərdən ikisi polisdir.

Fransa prezidenti Fransua Olland hadisə yerində olandan sonra  hökumətin təcili iclasını çağırmış, ölkədə 3 günlük matəm elan olunmuşdur.

Qeyd edək ki, "Charlie Hebdo" jurnalı Məhəmməd peyğəmbərin karikaturalarını dərc etmişdi.

Şahidlər hücum edənlərin polislə atışaraq binadan ayrıldıqları anı mobil telefonla çəkə biliblər. Qara geyimli üç kişi "Allahu Əkbər!", "Biz peyğəmbərə görə qisas aldıq!" deyə qışqırıb. Şübhəli şəxs qismində həbs olunanlar var.

## "CHARLIE HEBDO" JURNALININ YENİ SAYINDA İSLAM YENƏ TƏHQİR OLUNDU

*Yanvarın 14- də Fransada "Charlie Hebdo" satirik jurnalının yeni sayı 3 milyon nüsxə ilə çap olunaraq satışa buraxılmışdır*

Redaksiyaya hücum nəticəsində qətlə yetirilmiş jurnalistlərin xatirəsinə həsr olunmuş yeni nömrənin birinci səhifəsində Məhəmməd peyğəmbərin ağlayan şəkildə təsvir olunmuş karikaturası verilmişdir.



## FRANSADA VƏ DİGƏR ÖLKƏLƏRDƏ MƏSCİDLƏRƏ HÜCUM

*Yanvarın 7-də baş vermiş hadisədən sonra Fransada bir neçə məscid hücuma məruz qalıb*

Naməlum şəxslər tərəfindən Le-Man şəhəri yaxınlığındakı Sablon məscidinin həyətinə bir neçə əl qumbarası atılıb. Qumbaralardan ancaq biri partlayıb, heç kim xəsarət almayıb. Hazırda ibadətgah ətrafında polis mühafizəsi var.

Daha bir hücum Od departamentinin Por-la-Nuvel şəhərində baş verib. Cinayətkarlar axşam namazından təxminən 1 saat sonra şəhərdəki məscidi tapançadan atəşə tutublar. Həmin anda məscid boş olduğuna görə ölən və yaralanan olmayıb.

Avropanın bir sıra digər ölkələrində də məscidlər həqarətə məruz qalmışdır.

## DÜNYA MƏTBUATINDAN "CHARLIE HEBDO"YA DƏSTƏK

*Dünyanın bir sıra qəzet və jurnalları  "Charlie Hebdo" redaksiyasına dəstək vermək üçün qalmaqallı karikaturaları yenidən nəşr ediblər*

"Business Insider", "Huffington Post", "Daily Beast" kimi nəşrlər "Charlie Hebdo"nun 2011-ci ildəki karikaturalarını dərc edib. Məhz həmin vaxt redaksiyaya ilk hücumlar qeydə alınmışdı.

Dünya KİV-ləri Parisdəki hadisəni ümumilikdə söz azadlığına hücum kimi qiymətləndirirlər. Dəstək aksiyasına qoşulanlar arasında Almaniya, Danimarka KİV-ləri, ABŞ-ın NBC, CNN, ABC və CBS telekanalları da var.

## ANARDAN PARİS HADİSƏSİNƏ MÜNASİBƏT: "KİMSƏNİN İXTİYARI YOXDUR Kİ..."



*"Fransada baş vermiş terror aktında günahı ilk növbədə jurnalistlərdə görürəm"*

Bu sözləri Lent.az -a açıqlamasında Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri Anar Parisdəki "Charlie Hebdo" satirik jurnalının redaksiyasına edilmiş silahlı basqını şərh edərkən deyib.

Anarın sözlərinə görə, kimsənin milyonların itaət etdiyi islamın sonuncu peyğəmbərini lağa qoymağa, onun karikaturasını çəkməyə ixtiyarı yoxdur: "Əlbəttə ki, mən terrora yox deyirəm və onu qətiyyətlə pisləyirəm. Amma jurnalistlər də gərək belə hadisələrdə həssas davransınlar, insanların qüruru ilə oynamasınlar".

## PROBLEMİN HƏLLİ ƏDALƏTLİ OLMAQDADIR

*Yanvarın 7-də Parisdə "Charlie Hebdo" satirik nəşrinə silahlı hücum edilərək ofis atəşə tutuldu və ondan çox insan öldürüldü, bir çox insan yaralandı. İlkin versiyaya görə, hadisə dini zəmində baş verib*

Belə ki, adıçəkilən satirik nəşr 2011-ci ildə İslam peyğəmbəri Həzrəti Məhəmmədin karikaturalarını paylaşmışdı və bu hadisə bütün müsəlmanların hiddətinə səbəb olmuşdu. Hadisəni avtomat silahı ilə silahlanmış iki naməlum şəxsin törətdiyi bildirilir. Onlar jurnalın ofisinə hücum edərkən qara maskada olublar.

İlk olaraq ağıla cinayəti törədib qaçanların müsəlman olduqları gəlir. Ən azından, məntiq belə deyir. Üstəlik, son zamanlar Avropa ölkələrində, xüsusilə, Almaniya və İsveçdə müsəlmanlara qarşı kin və nifrətin artması fonunda bu, qarşı tərəfin cavabı kimi qələmə verilə bilər.

Almaniya və İsveçdə məscidlərin oda verilməsi artıq bir növ adi hal alıb. Təkcə ötən il İsveçdə məscidlərə 12 dəfə hücum edilib. Almaniyada isə "Pegida", yəni "Qərbin İslamlaşmasına Qarşı Vətənsevər Avropalılar" təşkilatı qurulub. 2014-cü ildə qurulan təşkilat Almaniyada vaxtaşırı müsəlmanlara qarşı aksiyalar təşkil edir.

Əlbəttə ki, bu cür hadisələri dinindən, milliyyətindən asılı olmayaraq hər kəs qınayır. Lakin sual yaranır: hadisələrin belə gedişatında kimdir günahkar? Qərb, yoxsa İslam dünyası? Bir neçə misal çəkməklə bu suala cavab axtarmağa çalışaq. Bənzər hadisələrə hər hansı İslam ölkəsində rast gəlinirmi? Müsəlman ölkələrində kilsələrə od vurulurmu, xristianlar əleyhinə aksiya keçirilirmi, onların dini heysiyyatına toxunulurmu?

Sualın cavab birmənalı olaraq "xeyr" olacaq. Bunların müsəlman ölkələrində baş verməməsinin əsas səbəbi isə yenə də Qərbin sevmədiyi İslamdır. Məhz İslam vandalizmi, terroru qadağan edir. İslam Həzrəti İsanı peyğəmbər kimi tanıyır və ona qarşı hörmətsizlik yolverilməzdir. Digər tərəfdən isə xristianların öz dinlərindən uzaqlaşması problemi yaşanır. Boş qalan kilsələr, İsa peyğəmbəri təhqir edən hərəkətlər xristian dünyasında geniş yayılıb. Buna Roma papaları sərt reaksiya və bir növ dinin əldən getməsi ilə bağlı bəzi işarətlər veriblər. Bu mənada, öz dininə hörmət etməyənlərdən başqasının dininə hörmət gözləməyə dəyməz.

Əgər Qərb liderləri satirik nəşrin qalmaqallı şəkillər paylaşmasına, məscidlərin yandırılmasına qarşı bu cür həmrəylik göstərsəydilər, problemin silahlı müstəviyə keçməsinin qarşısını almaq olardı. İndi dünyada xristian-İslam davasının qızışdırılmasında maraqlı olan qüvvələr də var. İslamofobiyanın gücləndiyi dövrdə ola bilsin ki, bu əməl elə həmin qüvvələrin işidir.

İstənilən halda terrorçunun dini, milli mənsubiyyəti olmur. Terrordan İslam ölkələri də əziyyət çəkirlər. Parisdəki hadisə Suriya və İraqda baş verən terror aktlarının yanında heç nədir. Vəziyyətdən çıxış yolu məsələyə ədalətli yanaşmaq və onun kökündə dayanan problemləri aradan qaldırmaqdır. Əks halda daha böyük fəlakətlərin baş verməsi qaçılmaz olacaq.

***Məftun Salmanov,***
***Trend***
*8 yanvar 2015*



# "XƏZƏR UNİVERSİTETİNDƏ BAŞQA AB-HAVA GÖRDÜM, AZAD DÜŞÜNCƏLİ, FƏRQLİ RUHLU TƏLƏBƏLƏR GÖRDÜM"

*Qonağımız şair, yazıçı, publisist Elnaz Eyvazlıdır*

*Elnaz Eyvazlı Bakı şəhərində anadan olub. 1998-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirib. 2007-ci ildə "Yaxşı ki yaza bilirəm" adlı şeirlər toplusu nəşr olunub. Şeirləri, hekayələri və publisistik yazıları müxtəlif mətbuat orqanlarında, antologiyakarda çap olunub. 2010-cu ilin Prezident təqaüdçüsüdür. "Nəsimi" Milli Ədəbiyyat Müsabiqəsinin qalibidir.*

**- İstərdim söhbətimizə sizin misralarınızla başlayım: *"Ürəyimdən keçənləri yazsam, qalın kitab olar. Nankorlara, haqsızlara ən tutarlı xitab olar"*. İki kitabınız artıq işıq üzü görüb. Hələ də ürəyinizdən keçənləri yaza bilməmisiniz?**

- Yazıb bitirə bilməmişəm.

**- İkinci kitabınızdan danışaq. "Kişi etirafı" oxucular tərəfindən maraqla qarşılandı. Bir qadın tərəfindən yazılan "Kişi etirafı"...**

- Kitabın adı kitaba daxil etdiyim şeirlərdən biri ilə bağlıdır. Və o şeirdə tənha bir kişinin qadınına etdiyi etiraflardır. Əslində, şeirə ad verməmişdim. Sonra gördüm yanlış anlaşılır, hətta soruşanlar da oldu ki, qadın bir kişiyə necə deyə bilər ki, gəl məni saçlarınla yuvama zəncirlə? Ona görə məcbur olub şeirin adını "Kişi etirafı" qoydum.

Belə deyim də, böyük çıxmasın, o şeir mənim yaradıcılığımda dönüş nöqtəsi oldu, üslubum qismən dəyişdi. Həm də şeir çox maraqla qarşılandı.

Oxucuların dediyinə görə, çox oxundu, sevildi və mən də onu dəyərləndirib kitaba bu şeirin adını verdim. Kitabın adı daha çox marağa səbəb oldu. Kitabı kim əlinə alırsa, ilk olaraq adına maraqlı reaksiya verir.

**- Sizin yaradıcılığınıza nəzər salanda nisgil, kədər hiss olunur. Bu nisgil, kədər şəxsi həyatınızla və ya cəmiyyətdə gördüklərinizlə nə dərəcədə əlaqəlidir?**

- Şeirlərdəki nisgil... Həyat yalnız bizim gördüklərimizdən və yaşadıqlarımızdan ibarət deyil. Məsələn, mən səhər işə gedəndə yolda gördüyüm insanların üzündəki, üstündəki bər-bəzəkdən çox onların gözündəki əzabı görürəm. Baxıram ki, bir qadındır, hər şey qaydasında: çox gözəl geyinib, əlində bahalı telefon, bahalı çanta-filan, amma gözlərində elə bir əzab var ki, heç nə ilə bir tərəziyə qoyula bilməz.

**- Sizin şeirlərinizlə yanaşı, nəsr əsərləriniz də var. Necə oldu ki, hekayə yazmağa başladınız?**

- Əsas şeirlərlə tanıyırlar məni. Ədəbi mühitə şeirlərlə daxil olmuşam, əgər daxil ola bilmişəmsə... Paralel olaraq publisistik yazılarım daha çoxdur və publisistikamda özüməməxsus bədiilik var, bu artıq bədii publisistikadır. Bilmirəm bu, şeir yazdığıma görədir, ya sadəcə olaraq xarakterdən gələn sentimentallıqdır, çöküb publisistikama. Və həmişə mənə deyirdilər ki, hər yazdığın köşənin üzərində bir balaca da işləsən, maraqlı bir hekayədir, hayıf etmə onları, köşə şəklində vermə saytlara.

Amma həmin vaxt heç kəs bilmirdi ki, mən hekayələr də yazıram. Üzə çıxarmırdım. Çünki həm yazan çoxdur, həm də nəsrə daha ciddi yanaşıram. Çünki o daha çox zəhmət tələb edir, daha çox vaxt alır. Mən də o vaxtı ona ayıra bilmirəm. Amma 2011-ci ildə "Nəsimi" Milli Ədəbiyyat Müsabiqəsində məhz hekayələrimlə qalib oldum. Və ondan sonra hamı bildi ki, mən həm də hekayə yazıram (*gülümsünür*).

**- Bəs bu hekayələr nə vaxtsa roman ola bilərmi?**

- Roman barədə düşünmürəm, çünki mən səbrsiz adamam, saatlarla oturub işləməyə hövsələm çatmır. Roman yazan adamın gərək aylarla, illərlə bir əsərin üzərində işləməyə səbri çatsın. Nə olar, nə olmaz... görək də...

**- Siz Yazıçılar Birliyinin üzvü olmusunuz və öz istyənizlə də üzvlükdən imtina etmisiniz.**

- Bilirsiniz, nə qəbul olanda, nə də çıxanda mən heç kəsə borclu olmadım. Mənim Yazıçılar Birliyi ilə əlaqələrim tələbəlik illərindən (1994-98) var idi. Orada tanıdığım adamlar var idi, mənim şeirlərimi oxumuşdular, fikir bildirmişdilər, tanıyırdılar məni. Tez-tez tədbirlərdə - təqdimatlarda, müəlliflərlə görüşlərdə iştirak edirdim. Rəhmətlik Arif Əmrahoğlu həmişə mənə deyirdi ki, sən mütləq kitab çıxart ki, mən səni burda təqdim edə bilim. Sən mütləq üzv olmalısan.

Amma mən düşünürdüm ki, yaradıcı adamın hansısa təşkilata üzv olması mütləq deyil. 2007-ci ildə ilk kitabım çapdan çıxdı və mən Arif müəllimlə görüşdüm. Ona görə yox ki, Birliyə üzv olam. Sadəcə olaraq, mənim şeirlərimə çox yüksək qiymət verən bir adam idi Arif müəllim və özümə borc bildim ki, aparım kitabımı görsün. Kitabımı əlinə alan kimi dedi ki, get ərizəni ver! Və gördüm ki, doğrudan da, fikrində qəti imiş. Ərizə yazdım. Amma həmin vaxt Birliyin binası təmirə saxlanıldı və xeyli vaxt qəbul dayandırıldı. 2009-ci ildə "Gənc Ədiblər Məktəbi"ndən AYB-yə üzv olmaq üçün bir qrup yazarların siyahısı getdi, onlarla eyni vaxtda mənim də ərizəmə baxıldı və qəbul olundum.

2010-cu ildə "Prezident təqaüdü" siyahısına salındım... və 2013-cü ildə çox götür-qoy etdikdən, çox düşündükdən sonra ərizə verib üzvlükdən çıxdım. Əvvəldə qeyd etdiyim kimi yaradıcı adam üçün hər hansı təşkilatın üzvü olmaq vacib deyil. Çıxdıqdan sonra heç də peşman olmadım. Hər dəfə söhbət düşəndə də fikirləşirəm ki, düz qərar vermişəm. Amma heç kəslə intriqam olmayıb, nə şəxsi, nə qeyri-şəxsi zəmində heç bir problem yaşamamışam. Düzdür, çıxdıqdan sonra münasibət dəyişikliyi hiss etdim, bir neçə tədbirdə iynəli sözlər eşitdim. Çox təəssüf edirəm... Məgər adamı hansısa təşkilatın üzvü olub-olmamasına görə dəyərləndirirlər?!

Amma AYB-də dostlarım var. Xətirlərini çox istəyirəm, görüşürəm, danışıram, çox yaxşı münasibətim var. Yəni belə adamlar da var. Mən Yaradana hər zaman təşəkkür edirəm ki, zaman-zaman mənim qarşıma yaxşı adamlar çıxarıb. Və bu adamları qarşıma elə bir vaxtda çıxarıb ki, məhz o zaman bir insan kimi ehtiyacım olub onlara.

**- Sevilən xanımsınız. Həm şairə kimi, həm də bir müəllimə kimi. Siz bu sevgini qazanmaq üçün xüsusi nəsə etmisiniz?**




- Ümumiyyətlə, sevgini qazanmaq üçün xüsusi nəsə etmək lazım deyil, sadəcə sevmək və səmimi, təmənnasız olmaq lazımdır. Mən müəllimliyi sevib seçməmişəm. Hətta Pedaqoji Universitetin filologiya fakültəsində oxuyanda tələbə yodaşlarım da, müəllimlərim də bilirdi ki, müəllim olmaq istəmirəm. Ona görə ki, artıq universitet vaxtlarında Dövlət Radiosunda çalışırdım, verilişim var idi və tələsirdim ki, diplomumu alıb sevdiyim işlə məşğul olum. Çünki jurnalist olmaq istəyirdim.

Mənim orta məktəb illərim müharibə dövrünə düşmüşdü. Salatın Əsgərovanın, Çingiz Mustafayevin şəhid olduğu illərə. Ona görə ürəyimdə daha çox alovlandı jurnalist olmaq istəyi. Jurnalist olmaq, onların yolunu davam etdirmək...həm də hərbi jurnalist olmaq istəyirdim. O arzuların arxasınca qaçdım. Düzdür, axıra qədər gedə bilmədim, tale belə gətirdi. Diplomumu alıb, çıxıb getdim.

Qalıb magistraturada oxumadım, amma indi çox peşmanam, olduqca peşmanam. Bilsə idim ki, gec-tez müəllim olacağam, elə bu sahə üzrə təhsilimi davam etdirərdim...

Müəllimliyə bağlıyam, həddindən artıq bağlıyam. Ancaq sırf insan sevgisinə görə. Məni məktəbə bağlayan şagirdlərimə olan sevgimdir. Başqa heç nə. Hazırda işlədiyim məktəbdə üç ildir çalışıram. On ildən çox başqa məktəbdə işləmişdim.

Bu məktəbə gələn ərəfədə 600-800 manat maaşla başqa bir iş təklifi aldım. Seçim qarşısında idim: ya çox az maaşla məktəbi, ya da o işi seçməli idim. Mək-

təbi seçdim. Çünki bir aya yaxın iş yerimi dəyişməyimə görə işsiz oturdum və gördüm ki, uşaqlarsız qala bilmirəm. Hər şeyi onlarla bölüşürəm, hər şeyi... Məsələn, beşinci sinfə dərs deyirəm, arada əsəbiləşirəm də, lazım olanda çox mülayim oluram, amma heç nəyə baxmayaraq, yerimdən qalxmağa imkan tapmamış uşaq gəlib o üzümdən, bu üzümdən öpüb sevgisini etiraf edəndə, sinifdən elə xoşbəxt çıxıram ki! Və fikirləşirəm: yaxşı ki, mən burdayam. Heç vaxt cəhd etməmişəm ki, şagirdlərim məni sevsin. Sadəcə olaraq onları sevmişəm, nəticədə görmüşəm ki, qarşılığında on qat artıq sevgi almışam. Çünki onlar mənim sevgimdən əmindirlər.




**- Dekabrın 26-da Xəzər Universitetində tələbələr tərəfindən yaradılan "Təkamül" kitab klubu tələbələrlə sizin görüşünüzü təşkil etdi. "Xəzər"dəki ab-hava sizə necə təsir bağışladı? Nə gözləyirdiniz, nə oldu?**

- Əvvəla, Xəzər Universitetinin, Azərbaycan dili və ədəbiyyat departamentinin rəhbərliyinə, tədbirin təşkilində zəhmət çəkən hər kəsə və mənimlə görüşə gələn bütün tələbələrə təşəkkür edirəm. Təşkilatçılar bir həftəyə yaxın bu işlə məşğul oldular. Mən bu zəhməti, təşəbbüskarlığı görürdüm, izləyirdim: facebookda kifayət qədər yazılarımı, şeirlərimi paylaşırdılar, dostlarını dəvət edirdilər. Açığı, çox həyəcanlı idim. Çox istəyirdim ki, bu görüş müzakirə tipli olsun, sadəcə, bir şairlə oxucunun görüşü kimi yox, səmimi mühit yaransın. Əvvəl hiss etdim bir az sıxıldı tələbələr, bəlkə də, mənə elə gəldi, amma bu çox az çəkdi. Əlimdən gələni etdim ki, tələbələr rahat ola bilsinlər. Və bu alındı.

Görüşdən o qədər stimul aldım ki! Onu da gördüm ki, tələbələr şeirlərimlə tanışdırlar, oxuyublar. Çox tutarlı suallar verirdilər, tam istədiyim mövzulara toxuna bildilər. Ürəyimcə oldu, çox ürəyimcə oldu. Çox tədbirlərdə oluram, dəvətlər alıram, amma bu görüş mənə yaxşı mənada tamamilə başqa cür təsir etdi. Xəzər Universitetində başqa ab-hava gördüm, azad düşüncəli, fərqli ruhlu tələbələr gördüm. Tədbirdən sonra Hamlet müəllimlə də görüşdük.

**- Bəs yaradıcılığınızla bağlı nə deyərdiniz?**

- Yaradıcılığımla bağlı, çox tənbələm (*gülür*), məktəb enerjimi çox alır, o qədər basdırdığım mövzular var ki...Şeir belədir ki, gəldisə, yazıram, ancaq, ümumiyyətlə, yazılarımın üzərində işləməyə ürəyimcə vaxt ayıra bilmirəm. Artıq bir kitablıq şeirim var. Onların üzərində işləmək lazımdır.

**- Sağ olun ki, dəvətimizi qəbul edib, bizimlə görüşdünüz.**

- Siz sağ olun ki, işin-gücün başdan aşan vaxtında vaxt ayırıb məni universitetinizdə görüşə dəvət etdiniz.

**- Sizə təşəkkür edirəm bu səmimi söhbətə görə, gözəl şeirlərinizə görə. Sizi "Xəzər"də yeni kitabınızın təqdimatında yenidən görmək isyərdik.**

- Hə, o tədbirin sonunda "Təkamül" kitab klubunun təşkilatçıları təklif etdilər ki, üçüncü kitab nə vaxtsa çıxarsa, onun təqdimatını biz keçirək. Gördüyüm bu sevgi dolu münasibətin qarşısında artıq üçüncü kitabı hazırlamağı özümə borc bilirəm.

Bütün bunlara görə klubun növbəti qonağı kimi məni məsləhət bilən, etimad göstərən Azərbaycan dili və ədəbiyyat departamentinin rəhbəri Vurğun Əyyuba təşəkkür edirəm. Artıq qapıdan içəri keçəndə elə bilirəm ki, öz doğma universitetimdəyəm.

**- Ona görə də mən sizə "hələlik" deyirəm. Yenidən sizi "Xəzər"də görmək ümidi iilə...**

- Hələlik.

*Müsahibəni hazırladı:*
*Nuranə Məmmədzadə,*
*Təhsil fakültəsinin üçüncü kurs tələbəsi*

## TURKİSH CULTURE - SPECIFIC POLYGRAPH SET FOR MANUFACTURE

*Daily sabah*
*İstanbul*
*Published December 23, 2014*




A polygraph machine, designed specifically to fit Turkish culture, will be manufactured as part of a project at Üsküdar University that focuses on transferring brain signals to a computer. The founding chancellor of the university, Professor Nevzat Tarhan, discussed the "domestic lie detector" project to Anadolu Agency.

Recently, an act has entered into force in Turkey enabling the use of polygraph machines, within the structure of national intelligence, by security forces. Every province and district will use a polygraph during interrogations.

According to Tarhan, this practice will require "a great deal of importation from other countries," forcing Turkey to spend foreign currency. "We believe that we have the necessary academic staff to manufacture our own polygraph machine," he added. He said that they are waiting on contributions from the Scientific and Technological Research Council of Turkey (TÜBİTAK) and other development agencies.

"We will manufacture a polygraph machine suitable for Turkish culture, because something that is considered a lie by other cultures can be a normal thing in Turkish culture. It is important that the person has to believe what he is telling is a lie for this machine to work. For instance, when an American is asked a question about his wife's jealousy, he might consider this as a normal question however, when this question is asked to a Turkish man, his brain gives different reactions, taking into account the Turkish culture," he continued.

He concluded by saying that if domestic polygraph machines become widespread, it can also be exported to other countries.

*http://www.dailysabah.com/science/2014/12/23/turkish-culturespecific-polygraph-set-for-manufacture*

## TURKS SPEND MORE TIME ON SMART PHONES THAN TV

*January 5, 2015 | BGNNews.com | İstanbul*

General Manager of technology retail giant Teknosa Necil Oyman expresses that Turks on average clock in 132 minutes on their cell phone compared 111 minutes on TV.

Speaking at Bugün TV's Üç Nokta show Oyman emphasized that mobile phones and social media are prominent areas of communication and entertainment for Turks.

The Teknosa General Manager also expressed that the company generated 38% of its revenue from the mobile phone market. He adds that 95% of all cell phones in Turkey have become smart phones while adding that their expectancy rate has dropped down to one year.

On a separate note he also highlighted that the technology market in Turkey was ever growing; stating "In 2013 the technology market which was around TL 30 billion has increased by 10% in 2014 to TL 33 billion." Oyman added that 3,500 of the company's 4,000 member team are in sales.

The development has pushed Teknosa to tailor their sales specifically prioritizing customer needs. "If you were to come to us and ask for a TV we try to understand what size the room is, what distance the customer wants to be seated from the TV and things like whether they prefer to watch movies or matches."

He continued "if a 70-year old consumer comes to us to purchase a laptop, he will most likely prefer one where he can easily go on the internet and read online newspapers. Therefore we will not sell him a computer that handles computer games, even if the price is higher."

*http://business.bgnnews.com/turks-spend-more-time-on-smart-phones-than-tv-haberi/2628*




## HAMLET İSAXANLININ ŞEİRLƏRİ FİNLANDİYADA ÇAP OLUNMUŞ ANTOLOGİYADA

2014-cü ilin sonuna yaxın Finlandiyada "Ntamo" nəşriyyatı tərəfindən Tahirə Cəfərovanın tərtib etdiyi Azərbaycan şeiri antologiyası çap olunmuşdur. Adı "Olen Helmi Simpukassa" ("Azərbaycan lirika antologiyası") olan kitabda orta əsr klassik Azərbaycan şairləri Xaqani, Nizami, Nəsimi, Füzuli, 20 - ci əsrin görkəmli şairləri M.Ə. Sabir, H.Cavid, S. Vurğun, S. Rüstəm, M. Müşfiq, R.Rza və digərləri, həmçinin 20-ci əsrin 2-ci yarısı və 21-ci əsrdə fəaliyyət göstərmiş Azərbaycan şairlərinin seçilmiş şeirləri verilmişdir (cəmi 27 Azərbaycan şairi).

Hamlet İsaxanlının görkəmli tərcüməçi Hannu Makela tərəfindən fincəyə (suomen) tərcümə edilmiş 6 şeiri də bu antologiyada yer almışdır.

## AZƏRBAYCAN VƏ İRAN MƏDƏNİYYƏTİNDƏ ÇİLLƏ GECƏSİ – ŞƏBİ - YELDA





Dekabrın 26-da Şərq dilləri və din araşdırmaları departamentinin təşkilatçılığı ilə "Azərbaycan və İran mədəniyyətində Çillə gecəsi – Şəbi -Yelda" adlı tədbir həyata keçirildi. Tədbirdə universitetin əməkdaşları, tələbələr və İran Mədəniyyət Mərkəzinin direktoru Seyid İbrahim İbrahimi də iştirak etdi.

Tədbirin açılışında fars dili müəllimi, fəlsəfə doktoru Zivər Hüseynova Azərbaycanda "Çillə gecəsi", İran mədəniyyətində "Şəbi - Yelda" olaraq bilinən və qışın ən uzun gecəsini simvollaşdıran bu xüsusi günün hər iki mədəniyyətin müştərək mədəni dəyərlərindən olması haqqında danışdı.Azərbaycanda və İranda Çillə gecəsi – Şəbi - Yelda adət-ənənələrinə dair tələbələrin təqdimatı oldu, Çillə gecəsinə dair farsca şeirlər oxundu. Çillə gecəsinin mühüm bir hissəsini təşkil edən "Hafiz falı" ilə əlaqəli qısa məlumat verildi və fəlsəfə departamentinin müdiri, fəlsəfə doktoru Mail Yaqubov Hafizin divanından bir neçə beyt oxuyaraq, şərh etdi. Şərq dilləri və din araşdırmaları departamentinin müəllimlərindən Nahid Şəfiyev və fəlsəfə doktoru Rüstəm Lazımov, Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri, dosent Vurğun Əyyub Azərbaycan və İran ədəbiyyatında Çillə gecəsinə dair şeirlərdən nümunələr oxudular.

İran Mədəniyyət Mərkəzinin direktoru Seyid İbrahim İbrahimi Azərbaycan-İran xalqlarının ortaq tarixi keçmişi və buna bağlı olaraq çoxsaylı müştərək mədəni dəyərləri, adət-ənənələri olduğunu qeyd etdi və bunlardan biri kimi Çillə gecəsinin əhəmiyyətini vurğuladı. Tədbirin sonunda iştirakçılar öz rəngarəngliyi ilə seçilən ənənəvi Çillə gecəsi süfrəsinə dəvət olundular.

## TƏLƏBƏMİZ MÜKAFATLANDIRILDI




Yanvarın 10-da Modern oteldə "MİRAS" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin yaranmasının beş illiyinə həsr olunmuş tədbir keçirildi. Xəzər Universitetinin beşinci tədris ili tələbəsi Vüsal Həsənova "MİRAS"-ın təşkil etdiyi tədbir və konfranslarda yaxından iştirak etdiyinə, mədəni irsin təbliğində görtərdiyi köməkliyə və Xəzər Universiteti ilə "MİRAS" ictimai birliyi arasında yaratdığı əlaqəyə görə "MİRAS" mükafatı təqdim olundu.

## XALQ ARTİSTİNİN XATİRƏSİNƏ TÖHFƏ

Azərbaycan xalq rəqslərinin toplanması və onlara yeni quruluş verilməsi, rəqslərimizin dünya səhnələrində nümayişi və tamaşaçılara sevdirilməsi sahəsində fədakar əmək sərf etmiş sənətkarlarımızdan biri də xalq artisti Əlibaba Abdullayev olmuşdur.

Xəzər Universitetinin Multimedia mərkəzinin rəhbəri Natella Barkaya və rəqs müəllimi, əməkdar artist Xanlar Başirov görkəmli sənətkarın xatirəsinə dəyərli töhfə hazırlamışlar.

N. Barkayanın öz arxivində və Xəzər Universitetinin arxivində saxlanan Ə. Abdullayevin quruluş verdiyi 10 rəqsin videoyazısı X. Başirovun yardımı ilə bərpa edilərək, sosial şəbəkədə yerləşdirilmişdir: *You Tube Əlibaba Abdullayev 100 il*

## KHAZAR UNIVERSITY DUNYA SCHOOL\`S IB STUDENT GETS OPPORTUNITY TO STUDY AT OXFORD UNIVERSITY

*Togrul Karimov, the IB 2 student at Dunya IB School affiliated with Khazar University received a pleased letter from the admissions office of the Oxford University*



*7 January 2015*

Dear Mr. Kerimov,

I am very pleased to be able to tell you that we would like to make you an offer of a place to read Computer Science, a 4 year course for admission in October 2015, on the condition that you obtain the following grades in your forthcoming examinations in the current academic year.

A total score 39 in the IB, with 7 in Mathematics and 6 in two other Higher level subjects. You will also be required to fulfill the University English language requirements as set out at

http://tinyurl.com/2b679xn by 31 July 2015

Congratulations , and we look forward to seeing you in October.

Yours Sincerely,
Dr. Alisdair Rogers
Senior Tutor and Tutor for Admissions
Keble College, Oxford OXI 3PG
Direct: +44(0) 1865 272708; Fax: +44(0) 1865 272769; Email:admissions@keble.ox.ac.uk

## THE JOBS CHALLENGE IN THE SOUTH CAUCASUS – AZERBAIJAN

*The World Bank*
*January 6, 2015*

Azerbaijan is a resource-rich country in the South Caucasus region that has used its resource wealth well over the past decade. Poverty has been reduced, the middle-class has grown, and the country has made progress on sharing prosperity among its population of 9.4 million citizens.

From 2007 to 2012, the incidence of poverty in Azerbaijan – based on the national poverty line – fell dramatically from 15.8 percent to 6 percent. During that same period, the unemployment rate dropped also – reaching about 5.2 percent in 2012.

Nevertheless, there are concerns today that the previous positive trends in poverty and unemployment reduction are at risk of stalling, or even reversing. Much of the risk relates to an over-dependency and concentration of employment in certain sectors, together with a rapidly growing population of young people entering the labor market. In addition, the current slowdown in oil revenue is compounding the risk even further.

Consequently, there is a growing need for the implementation of institutional reforms and a range of policy interventions that support increased employment in the private sector, greater entrepreneurship and competitiveness, and adequate skills training for young people.

While the unemployment rate is on the decline, the proportion of the employed among the work-able population has been decreasing. This is mainly due to the increased inactivity. Labor force participation declined from 83 percent in 2005 to 78 percent in 2012. Had labor force participation not decreased in recent years, unemployment would be about 11 percent today – 6 percentage points higher than the current rate of 5.2 percent.

One of the main obstacles to job creation in the country is the employment dependency on the agriculture sector. This low-productivity, low-growth sector remains Azerbaijan's largest employer, absorbing 37 percent of the workforce, but contributing only a little over 5 percent of GDP. Indeed, rural poverty is largely explained by the reliance on subsistence agriculture. The mining sector, on the other hand, is capital-intensive and, despite its contribution to over 40 percent of GDP, does not create many jobs: it employs only about 1 percent of the entire workforce.

Azerbaijan's “youth bulge” will also become a challenge in the years to come. With a significant portion of the population comprising young people, Azerbaijan expects a continuously large influx of youth into the labor market over the next three decades. At the beginning of 2014, young people under 25 years of age constituted 40 percent of the total population, while those under 35 years represented 60 percent of the total population.

More than 70 percent of the country's population is currently within the working-age range of 15 to 64 years, a share that is estimated to remain as high until the year 2025. By then, the working-age population is expected to have increased by a net number of more than 350,000 persons.

With such socio-economic and demographic developments, Azerbaijan faces a number of challenges regarding future poverty reduction and job creation, especially for young people entering the labor market.

### ECONOMIC RESTRUCTURING

Net job creation generally reflects the pace of economic restructuring. As such, institutional reforms are needed in Azerbaijan to support employment creation in the private sector. Promoting competition is also essential to this effort. Importantly, reforms made in recent years have helped Azerbaijan move up its ranking on the Global Competitiveness Index from 72 in 2011 to 38 in 2014-2015.

Nonetheless, Azerbaijan needs continued improvement. It will be important to define and enforce property rights, while decreasing costs and simplifying processes for tariffs and trade. In the 2015 Doing Business rankings, Azerbaijan ranked 80 out of 185 countries with regard to ease of doing business. Although ranked high on business entry indicators, constraints persist with regard to trading across borders, getting electricity, and dealing with construction permits.

### ENTREPRENEURSHIP

At 5 percent of the workforce, business ownership in Azerbaijan remains lower than the average of countries in the Europe and Central Asia region, which is 6 percent. Azerbaijan also compares unfavorably with other countries in the region when measuring the pool of potential entrepreneurs – those who are not yet entrepreneurs, but who aspire to be.

Only about 10 percent of the labor force and about 5 percent of the wage-employed can be considered latent entrepreneurs, far below the

regional average of 27 percent of the labor force and 22 percent of the wage-employed.

### SKILLED LABOR FORCE

In Azerbaijan, access to basic education – grades 1 to 9 – is almost universal and equitable. However, the country has not yet seen a visible improvement in terms of student performance at the general education level. For example, in the 2009 Program for International Student Assessment (PISA) test for 15-year olds, Azerbaijan did very poorly: out of 65 countries, it ranked 64 in reading, 63 in science, and 45 in mathematics.

With regard to tertiary education, Azerbaijan's government has initiated limited reforms, resulting in limited access and quality. The enrollment rate in university and college education is around 20 percent, which is low for an upper-middle income country, especially when when compared with 25.5 percent for middle income countries and 33.4 percent for upper middle income countries.

Access to tertiary education is not only limited, but also inequitable. In terms of quality, 54 percent of business firms indicated that lack of adequate skills and education of workers is a major obstacle, according to the latest Business Environment and Enterprise Performance Survey (BEEPS). An "inadequately educated workforce" is considered the third most problematic factor for doing business, after corruption and tax rates.

Although Azerbaijan's overall ranking in the 2014-2015 Global Competitiveness Index is 38th place, the country's ranking for the higher education and training pillar is only 90th, while the health and primary education pillar is ranked even lower at 104th.

### INCENTIVES TO WORK

Azerbaijan's achievements in poverty reduction and shared prosperity in recent years have been driven mostly by rising social transfers, pensions and real wages, rather than by an increase in access to more and better economic opportunities. Between 2005 and 2013, employment rate decreased from 77% to 74%.

Social transfers and pensions have grown substantially in recent years, benefiting primarily the poor and those at the bottom of income distribution ladder, and currently account for 4.8 percent of GDP. Creating opportunities and incentivizing people to work, therefore, needs greater attention and increased effort in Azerbaijan going forward.

*url:http://www.worldbank.org/en/news/feature/2015/01/06/jobs-challenge-in-the-south-caucasus-azerbaijan*

## SOCAR LENDING OFFICIAL SUPPORT TO CASPIAN ENERGY FORUM – 2015

*09.01.2015 [19:24]*
*Baku, January 9, AzerTAc*

The State Oil Company of Azerbaijan (SOCAR) has officially supported the 3rd International Caspian Energy Forum – 2015 (www.caspianenergyforum.com) which will take place in Baku on March 11, 2015.

"President of the Republic of Azerbaijan and Chairman of the Caspian European Club, His Excellency Mr. Ilham Aliyev has been invited to the opening ceremony of the 3rd International Caspian Energy Forum – 2015," CEO of the Caspian European Club Telman Aliyev said.

According to Aliyev, "executives of government agencies, ministries and departments of Azerbaijan, countries of the Caspian-Black Sea and Baltic regions, representatives of diplomatic and international missions accredited in Azerbaijan, executives of large international companies will also attend the event".

All aspects of the energy integration of the countries of the Caspian-Black Sea and Baltic regions into the global energy markets are planned to be discussed within the framework of the first part of the forum. Speakers, delegates and forum participants will focus their attention on Azerbaijan's key role in energy, transport and infrastructure projects, growing sector of gas upstream, Southern Corridor projects and the resource potential of the Caspian.

The Caspian European Forum, dedicated to the development of the non-oil sector, will be held in the second part of the forum. Issues of introduction of innovations in financial-banking, insurance, leasing, telecommunication, tourism, machine-engineering, construction and other sectors of the non-oil industry, issues of business doing, creation of government-to-business dialogue will be discussed within the framework of the Caspian European Forum.

The program of the event provides additional opportunities for working and communication of participants during coffee breaks and the business lunch.

Official ceremony of presentation of Caspian Energy Award – 2015 will be held within the framework of the evening gala-reception.



## "AVROPA TARİXİ OSMANLI ARXİVLƏRİ OLMADAN ÖYRƏNİLƏ BİLMƏZ"

*"Anadolu" agentliyinin verdiyi xəbərə görə, bunu Türkiyənin baş naziri Əhməd Davudoğlu dekabrın 24-də bəyan edib*

"Biz Avropa İttifaqına üzv olmaq istəyirik. Avropa tarixi Osmanlı arxivləri olmadan öyrənilə bilməz. Nə düşünürlər-düşünsünlər, bu, belədir. Avropalılar öz tarixlərini yaza bilməzlər. Bu, böyük həqiqətdir. Türkiyə Avropanın bir parçasıdır, bu, dəyişməz olaraq qalacaq.", - Türkiyənin hökumət başçısı belə deyib.

## "ERMƏNİ SOYQIRIMI"NDA YENİ SAXTAKARLIQ

*AzərTAc növbəti erməni saxtakarlığını üzə çıxarıb*

Belə ki, İraq Ali İslam Şurasının rəsmi mətbu orqanı olan "əl-İstiqamə" qəzetinin 8 yanvar tarixli nömrəsində dərc olunmuş məqalədə 20 Yanvar faciəsində öldürülmüş azərbaycanlıların fotoşəkli guya bir əsr bundan əvvəl türklər tərəfindən törədilmiş "erməni soyqırımı" qurbanları kimi təqdim olunub.

Eyni fotoşəkil, həmçinin uydurma "erməni genosidi"nin yüz illiyinin qeyd edilməsi üçün yaradılmış təşkilatın Qahirə komitəsinin Facebook səhifəsində də yerləşdirilib.

Qeyd edək ki, bu fotoşəkil 1990-cı il yanvarın 20-də AzərTAc-ın fotomüxbiri Oqtay Məmmədov tərəfindən çəkilib və onun originalı agentliyin arxivində saxlanılır.

Əslində, "genosidi" bu cür saxta "dəlil-sübutla" əsaslandıran ermənilər fərqinə varmadan onu inkar etmiş olurlar. Təsəvvür edin, mediada bir hadisənin yüzilliyindən bəhs edir və həmin məqalədə Azərbaycan xalqının tarixinə 25 il əvvəl qanla yazılmış 20 Yanvar faciəsini əks etdirən fotonu yerləşdirirlər. Bundan daha böyük saxtakarlıq nə ola bilər?

Ermənilərin belə açıq-aşkar saxtakarlığa əl atması birinci dəfə deyil. Üzdəniraq erməni təbliğatçıları bundan əvvəl 1918-ci ildə Şamaxıda, Qubada azərbaycanlılara qarşı törədilmiş soyqırımların, 1992-ci il Xocalı qətliamının fotolarını qondarma "erməni genosidi"nin izləri kimi təqdim ediblər.

Bu sahədə "ixtisaslaşmış" erməni "mediabazlar"ı "soyqırım" azarına tutulmuş və yaxud yoluxdurulmuş sadə erməniləri aldatmaqla kifayətlənmir, eyni zamanda, dünya ictimaiyyətində özlərinin psevdofaciələrinə mərhəmət hissi oyatmağa və ondan öz məkrli məqsədləri üçün istifadə etməyə çalışırlar. Amma onların bütün bu cəhdlərinə baxmayaraq, həqiqət hər zaman öz yerini tapır.

## TÜRKİYƏNİN DÖVLƏT GERBİ HAZIRLANACAQ

*Türkiyə mətbuatının verdiyi məlumata görə, bu təkliflə hakim Ədalət və İnkişaf Partiyası (AKP) çıxış edib*

Təklif qəbul edilərsə, Türkiyə Böyük Millət Məclisində dövlət gerbinin hazırlanması üçün komissiya yaradılacaq. Yeni gerbin dizaynını komissiya müəyyənləşdirəcək.

Osmanlı imperiyası süqut edəndən sonra Türkiyənin dövlət gerbi mövcud olmayıb. 1925-ci ildə gerbin hazırlanması üçün müsabiqəni rəssam Namiq İsmailin hazırladığı, üzərində Bozqurd təsviri olan gerb dizaynı qazansa da, bu gerb qeydə alınmayıb və istifadə edilməyib.

## ƏRDOĞAN: " TARİXİ FAKTLARIN SAXTALAŞDIRILMASINA YOL VERMƏYƏCƏYİK"

*Türkiyə tarixi faktların, o cümlədən 1915-ci il hadisələrinin saxtalaşdırılmasına yol verməyəcək*



Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada yanvarın 6-da səfirlərin 7-ci konfransında çıxış edərkən deyib.

R.T.Ərdoğan qeyd edib ki, dünyada bir sıra dairələr qondarma “erməni soyqırımı”nın 100 illiyini qeyd edəcəklər.

Dövlət başçısının sözlərinə görə, Ermənistan 1915-ci il hadisələrini “soyqırım” kimi təqdim etməklə həmin hadisələri saxtalaşdırmaq üçün hər cür səy göstərir: “Türkiyə bütün vasitələrlə Ermənistanın 1915-ci il hadisələrini “soyqırım” kimi təqdim etməsi cəhdlərinə qarşı mübarizə aparacaq".

## HƏR DOĞULAN UŞAĞA GÖRƏ QADINLARA PUL, ATALARA MƏZUNİYYƏT

*Bunu Türkiyənin Baş naziri Əhməd Davudoğlu yanvarın 8-də hökumətin yeni islahat proqramını açıqlayarkən bildirib*

Məlumata əsasən, birinci uşağa görə 300, ikinci uşağa görə 400, üçüncü uşağa görə isə bir dəfəlik 600 lirə veriləcək.

Bütün bunlarla yanaşı, yeni islahat paketinə əsasən, uşaq sahibi olan qadınların analıq məzuniyyəti artırılacaq və iş saatları yarı günə endiriləcək.

İslahat paketinə əsasən, yeni ata olmuşlara da bir həftəlik atalıq məzuniyyəti təqdim ediləcək.

Paketdə evlənmək istəyən gənclərə xüsusi imtiyazlar nəzərdə tutulur.

Banklarda 18 yaşına çatmamış qız və oğlanlar üçün xüsusi "cehiz" əmanəti yaradılacaq və adına hesab açılmış şəxs 18 yaşına çatdıqda dövlət hesabda toplanmış məbləğin 15 faizi həcmində vəsait verəcək.

Bütün bunlarla yanaşı, cəmiyyətdə qadına qarşı zorakılıqla mübarizə üsulları da sərtləşdiriləcək.

## TÜRKİYƏDƏ YENİ TİKİLƏN KÖRPÜYƏ “RƏCƏB TAYYİB ƏRDOĞAN” ADININ VERİLMƏSİ TƏKLİF EDİLİB

*“Adıyaman vilayətinin Kahta rayonu ilə Şanlıurfa vilayətinin Siverek rayonunu bir-birinə bağlayacaq yeni inşa edilən Türkiyənin üçüncü böyük asma körpüsünə “Rəcəb Tayyib Ərdoğan” adının verilməsini düşünürük”*



Bu sözləri Türkiyənin nəqliyyat, dənizçilik və kommunikasiya naziri Lütfi Əlvan yanvarın 8-də körpüdə görülən işlərlə tanış olduqdan sonra jurnalistlərə müsahibəsində deyib.

Ərazidə yaşayan vətəndaşlarla körpünün adı ilə bağlı müzakirələr apardığını vurğulayan L.Elvan qeyd edib ki, körpünün keçdiyi ərazidə yaşayan insanlar ona Türkiyə Respublikasının prezidentinin adının verilməsini istəyirlər.

L.Elvan deyib ki, vətəndaşlarımızın istəyini Türkiyə Prezidentinə çatdıracağam. Əgər onun razılığı olarsa, o zaman körpüyə “Rəcəb Tayyib Ərdoğan” adı verilə bilər.

## FİDEL KASTRO "ÇİN NOBELİ" ALDI

*Kuba inqilabının lideri Fidel Kastro Çinin Konfutsi adına Sülh mükafatına layiq görülüb*



16 ekspert və alimdən ibarət komissiya qalibi 20 namizəd arasından seçib. F.Kastro Koreya Respublikasının Prezidenti Pak Kın Heni və BMT-nin baş katibi Pan Gi Munu arxada qoyaraq, 9 səs qazanıb.

Ekspertlər bildirirlər ki, Kuba lideri hakimiyyətdə olarkən beynəlxalq mübahisələrin həllində güc tətbiqindən qaçıb, təqaüdə çıxdıqdan sonra isə dünya liderləri və beynəlxalq təşkilatlarla fəal ünsiyyəti davam etdirib. Həmçinin, komissiya F.Kastronun nüvə müharibəsinin qarşısının alınması uğrunda mübarizəyə verdiyi töhfəni də nəzərə alıb.

Tez-tez "Çin Nobeli" adlandırılan Konfutsi adına Sülh mükafatı 2010-cu ildə ÇXR-də Lyu Çjitsinya adlı iş adamının təşəbbüsü ilə yaradılıb. Mükafat sülhün möhkəmləndirilməsinə görə təqdim edilir, qalib 100 min yuan (15 min dollar) məbləğində pul mükafatı alır. BMT-nin sabiq baş katibi Kofi Annan da bu mükafata layiq görülüb. 2011-ci ildə bu mükafatı Rusiya Prezidenti Vladimir Putində alıb.

## ABŞ-IN HƏRBİ BÜDCƏSİ - 577 MİLYARD

*Prezident Barak Obama dekabrın 16-da ABŞ-ın 2015-ci il üçün federal büdcəsi haqqında qanunu təsdiqləyib*

Qanuna əsasən, federal büdcə 1,1 trilyon dollar həcmində müəyyənləşib. ABŞ-ın hərbi xərclərinə 577 mlrd. dollar, o cümlədən 64 mlrd. dollar xarici ölkələrdə hərbi əməliyyatların aparılmasına ayrılmasını nəzərdə tutur.

Sənəd "İslam hökuməti" adlanan terrorist qruplaşması ilə mübarizə üçün İraq hərbçilərinin, o cümlədən kürd silahlıları və Suriyanın müxalifətinin hazırlanmasına da sanksiya verir.

Bundan başqa, Energetika nazirliyinə nüvə silahı üzərində işlərin aparılması üçün 17,9 mlrd. dolların ayrılması nəzərdə tutulur.

Büdcə layihəsinin müzakirəsi Konqresin Nümayəndələr Palatasında və Senatda ciddi fikir ayrılıqları ilə müşayiət olunub. Senatda qanun layihəsinin lehinə 56, əleyhinə 40 senator səs verib.

## ŞAHZADƏ ÖLKƏNİ ŞOKA SALDI

*Tailand kral taxt-tacının varisinin xanımı, şahzadə Srirasmi Aharafonqriçi titulundan könüllü imtina edib*



Associated Press-in məlumatına görə, ölkə kralı, 87 yaşlı Phumipon Adulyadet şahzadənin müraciətini qəbul edib və ona müsbət cavab verib.

Srirasminin qərarına ailə üzvlərinin adlarının çəkildiyi korrupsiya qalmaqalı təsir edib.

Dekabrın 1-də varis şahzadə Maha Vadçiralonqkorn arvadının qohumlarını bütün fəxri adlar və titullardan məhrum etmişdi. O, bundan belə kimsə Aharafonqriçi soyadından istifadə etməsini yasaqlamışdı.

Bir qədər əvvəl şahzadə Srirasminin 3 qohumu polis tərəfindən rüşvətxorluq və korrupsiyada suçlanıb. Onların hamısı ölkənin Mərkəzi İstintaq Bürosunda rəhbər vəzifələrdə çalışırdılar.

Şahzadə Vadçiralonqkorn taxtda atası, kral Phumipon Adulyadeti əvəzləyəcək.

Srirasmi Aharafonqriçi 2001-ci ilin fevralında varis şahzadə Mahi Vatçiralonqkornla ailə qurmuşdu. 2005-ci ilin aprelində onların Dipanqkorn Rasmicoti adlı oğulları dünyaya gəlib.

Varis şahzadə sayca 3-cü arvadı olan Srirasmi ilə artıq 3 ildir ki, birlikdə yaşamır.

## TUNİSİN YENİ PREZİDENTİ

*Tunisin mərkəzi seçki komissiyası ölkənin yeni seçilmiş prezidentinin adını açıqlayıb*



Seçkinin dekabrın 22-də keçirilmiş ikinci turunda səslərin 55,68 faizini qazanan “Nida Tunis” partiyasının lideri Sibsi ölkənin yeni prezidenti seçilib.

Sibsinin rəqibi ölkəyə müvəqqəti rəhbərlik etmiş Məhəmməd əl-Munsıf əl-Mərzuki isə səslərin 44,32 faizini qazanıb.

Qeyd edək ki, 23 noyabrda Tunisdə keçirilmiş seçkilərin birinci turunda Sibsi 39,4, Mərzuki 33,4 faiz səs toplayıb.

## 128 JURNALİST QƏTLƏ YETİRİLİB

*Keçən il dünyanın 32 ölkəsində 128 jurnalist öldürülüb*

Bu barədə BMT-nin məşvərətçi təşkilat statusuna malik “Press Emblem Campaign” adlı qurumun hesabatında bildirilir.

Sənəddə qeyd olunur ki, xüsusilə Suriya, İraq, Fələstin, Pakistan və Ukraynadakı münaqişə və silahlı toqquşmalar nəticəsində xeyli sayda jurnalist həlak olub.

Bu il jurnalistlərin ən çox öldürüldüyü ərazilər siyahısında ilk yeri 16 jurnalist qətli ilə Qəzza bölgəsi tutur. Suriyada 13, Pakistanda 12, İraq da isə 10 jurnalist öldürülüb. Ukraynada isə 9 jurnalist öldürülüb ki, onlardan 4-ü Rusiya vətəndaşıdır.

Sonrakı yerlərdə Meksika (8), Əfqanıstan (6), Honduras (5), Somali (5), Braziliya (4) və Mərkəzi Afrika Respublikası (4) qərarlaşıb. Həmçinin məlum olub ki, 2014-cü ildə Kamboca, Qvineya, Paraqvay və Filippin kimi ölkələrin hər birində 3 jurnalist, Panama, Banqladeş, Kolumbilya, Türkiyə, Liviya, Peru və Yəməndə isə 2 jurnalist qətlə yetirilib.

Jurnalist qətli qeydə alınmış ölkələr arasında Myanma, Demokratik Konqo Respublikası, Dominikan Respublikası, Misir, Nigeriya, Panama, Rusiya, Salvador və Səudiyyə Ərəbistanı Krallığı da yer alır.

## RUSİYANIN HƏRBİ DOKTRİNASI DƏYİŞDİRİLDİ

*Rusiya prezidenti Vladimir Putin “Rusiya Federasiyasının hərbi doktrinası” haqqında yeni fərman imzalayıb*



TASS - ın verdiyi məlumata görə, bu sənəd Rusiyanın hazırda qüvvədə olan, 2013-cü il iyulun 5-də Rusiya Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş hərbi doktrinasına yeni redaktələri ehtiva edir.

Qeyd olunur ki, doktrinaya edilmiş dəyişikliklər Təhlükəsizlik Şurasının dekabrın 19-da keçirilən iclasında təsdiqlənib.

Təhlükəsizlik Şurasının rəsmi saytında bildirilir ki, dəyişikliklər ilk növbədə Rusiya üçün yeni – xüsusilə də, Ukraynadakı vəziyyətlə bağlı, həmçinin Afrikanın şimalında, Suriya, İraq və Əfqanıstanda təhdidlərin yaranması ilə bağlıdır. Bundan başqa, açıqlamada qeyd olunur ki, “Rusiya sərhədlərində NATO-nun potensialı güclənir, raket hücumundan müdafiə sisteminin qlobal yerləşdirilməsi istiqamətində fəal işlər həyata keçirilir”.

Bununla belə, vurğulanır ki, yeni doktrina özünün müdafiə xarakterli məzmununu qoruyur və hərbi gücdən istifadəni ancaq bütün dinc vasitələrin sıradan çıxmasından sonra məqbul sayır.



## XORVATİYADA MÜXALİFƏTİN NAMİZƏDİ PREZİDENT SEÇİLDİ

*Xorvatiyada yanvarın 12-də keçirilən prezident seçkilərinin 2-ci turunda müxalifətdəki sağ-mərkəzçi Xorvatiya Demokratik Birliyi Partiyasının namizədi Kolinda Qrabar-Kitaroviç qalib gəlib*

Hazırkı prezident İvo Yosipoviç məğlubiyyətini etiraf edib. "Hər şey bitdi, xanım qələbə çaldı" - deyə, o söyləyib.

Rəsmi məlumata əsasən K. Qrabar-Kitaroviç 50,42%, İ. Yosipoviç 49,58% səs alıb. İlk turda İ. Yosipoviç 38,48%, K. Qrabar-Kitaroviç isə 37,18% səs toplamışdı.

## RUSİYA "İSLAM DÖVLƏTİ" VƏ "CEBHAT ƏN-NUSRA"NI TERRORÇU TƏŞKİLAT KİMİ TANIDI

*Rusiya Ali Məhkəməsi "İslam dövləti" və "Cebhat ən-Nusra" qruplaşmalarını terrorçu təşkilat elan edib*

"RİA Novosti"nin verdiyi məlumata görə, məhkəmənin qərarı ilə həmin təşkilatların Rusiya ərazisində fəaliyyəti rəsmən qadağan olunub.

Qeyd edək ki, "İslam dövləti" və "Cebhat ən-Nusra" qruplaşmalarının terrorçu təşkilat kimi tanınması tələbi ilə Rusiya Ali Məhkəməsinə ölkənin Baş Prokurorluğu müraciət edib.

## QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN SAYI ARTIB

*BMT: 2014-cü ilin ilk yarısında dünyada 5,5 milyon insan ev-eşiyini tərk etmək məcburiyyətində qalıb*



Bu barədə BMT Ali Komissarlığının Qaçqınların İşləri üzrə İdarənin yeni hesabatında deyilir. Sənəddə qeyd olunur ki, 2014-cü ilin ortalarında dünyada məcburi köçkünlərin sayı 46,3 milyon nəfərə çatıb. Hazırda 13 milyon qaçqın və 26 milyon məcburi köçkün BMT Ali Komissarlığının qaçqınların işləri üzrə İdarənin himayəsi altındadır.

Hesabatda vurğulanır ki, dünyada qaçqınların sayına görə ilk dəfə suriyalılar ön sıralara çıxıblar. 2014-cü ilin iyunun sonuna olan məlumatlara əsasən, 3 milyondan çox suriyalı qaçqın düşüb. Hazırda dünyadakı qaçqınların 23 faizi Suriyanın payına düşür. Halbuki son 30 il ərzində qaçqınların sayına görə Əfqanıstan ilk sıranı tuturdu. Hazırda dünyada 2,7 milyon əfqanıstanlı qaçqın var. Siyahıda Suriya və Əfqanıstandan sonrakı yerləri Somali, Sudan, Cənubi Sudan, Konqo Demokratik Respublikası, Myanma və İraq tutur.

2014-cü ilin ilk yarısında ən çox qaçqın qəbul etmiş ölkə Pakistan olub. Bu ölkədə 1,6 milyon əfqan sığınacaq tapıb. Livan və İran da çoxlu sayda qaçqın qəbul edən ölkələrdir. Müvafiq olaraq Livanda 1,1 milyon, İranda isə 982 min nəfər sığınacaq tapıb.

BMT -nin qaçqınların işləri üzrə İdarənin ali komissarı Antonyu Quterriş hesabatın təqdimatı zamanı dünya ictimaiyyətini qaçqınlara və onları qəbul edən icmalara yardım göstərilməsi məsələsində həmrəyliyə çağırıb.

"Dünya birliyi mövcud münaqişələrin siyasi həll yollarını tapmayanadək və yenilərin yaranmasının qarşısını almayanədək, biz dramatik humanitar nəticələrlə qarşılaşmalı olacağıq", - deyə o vurğulayıb.

## ALMAN MƏŞHURLARI İSLAMOFOBİYANI PİSLƏYİBLƏR

*Almaniyanın 80 məşhur adamı – siyasətçilər, incəsənət aləminin nümayəndələri, sahibkarlar, idmançılar, şou-biznes ulduzları çərşənbə axşamı, yanvarın 6-da "Bild" adlı alman tabloidinin səhifələrində əcnəbilərə qarşı yalançı fobiyanı və dözülməzliyi pisləyərək, "Pegida" antiislam hərəkatı əleyhinə çıxdıqlarını bildiriblər*





Almaniyanın iki keçmiş federal kansleri – Helmut Şmidt və Herhard Şröder antiislam hərəkatının fəaliyyətini qətiyyən qəbul etmədiklərini qeyd ediblər. Şmidtin sözlərinə görə, "Pegida" hərəkatının aksiyaları "Almaniyaya xas olmayan anlaşılmaz xurafata, ksenofobiyaya və dözülməzliyə" çağırır. Şmidt deyib: "Biz tariximizə və iqtisadi dərrakəmizə müraciət etsək, başa düşərik ki, Almaniya qaçqınları və siyasi sığınacaq istəyən insanları rədd edə bilməz". O, "Pegida"ya birmənalı şəkildə "yox" deyərək, ölkəsinin dünyaya açıq olmasına çağırıb.

AFR-in keçmiş kansleri Herhard Şröder "Pegida" barəsində aydın mövqe tutan demokratik partiyaların və kilsənin mövqeyini bəyənib və xatırladıb ki, 14 il bundan əvvəl də Almaniyda ksenofobiyaya qarşı belə etiraz aksiyaları keçirilib. Düsseldorfda sinaqoqun yandırılması bu aksiyalara səbəb olmuşdu. Şröder deyib: "Bizim indi də belə aksiyalara ehtiyacımız var".

AFR-in maliyyə naziri Volfqanq Şoyble, iqtisadiyyat naziri Ziqmar Qabriel, xarici işlər naziri Frank-Valter Ştaynmayer, yazıçı və jurnalist Ulrix Vikert, aktyor Volfqanq Ştump və bir çox başqaları da "Pegida" antiislam hərəkatını pisləyiblər.

Almaniyanın futbol üzrə yığma komandasının meneceri Oliver Birhoff tərkibində bir çox miqrant oyunçuları olan bundestimin dünya çempionu olmasını misal göstərib. Buna görə Birhoff əminliklə bildirib ki, cəmiyyətdə də inteqrasiya "bizim yığma komandamızda olduğu kimi" həyata keçirilməlidir.

Bundan əvvəl bir çox şəhərlərdə, o cümlədən Kölndə və Berlində minlərlə adam "Pegida"nın aksiyalarına qarşı öz etirazını bildirmək üçün küçələrə çıxıb. Bununla belə, Drezdendə antiislam hərəkatı tərəfdarlarının sayı onun əleyhinə çıxanların sayından xeyli çoxdur.

## İRANDA YENİ HİCAB QANUNU PARLAMENTƏ QAYTARILDI



*İran mediasının məlumatına görə, qanunu araşdıran 12 nəfərdən ibarət nüfuzlu Mühafizlər Şurası qanunu təsdiq etməyərək, parlamentə qaytarıb*

İrandakı islam qanunlarına görə, qadının başı, saçları, boynu bağlı olmalıdır. Yeni qanun bu qaydaları bir az sərtləşdirirdi, ancaq Mühafizlər Şurası 24 maddəlik qanun layihəsində 14 müddəanı konstitusiyaya zidd sayıb.

Şura qanun layihəsini parlamentə qaytarıb. Parlament bu qanun layihəsini dekabrda qəbul etmişdi.

Qanun işçilərin hicab geyinməsinə görə məsuliyyəti həm də şirkət sahiblərinin üzərinə qoyur və işçiləri buna riayət etməyən şirkətlərə cərimə nəzərdə tutur.

## KEŞİŞİN QIZI QURANDAN TƏSİRLƏNİB MÜSƏLMAN OLDU

*İsveçin Upsala şəhərində keşişin qızı Jannika Sande Qurandan təsirlənərək müsəlman olub*



SVT İsveç Dövlət Televiziyası eyni evdə yaşayan xristian ata ilə müsəlman qızın ailəsinə qonaq olub. İsveç kilsəsində xristianlıq təhsili alaraq böyüdüyünü söyləyən Jannika Sande Quran oxuduqda Allahın nəzərlərini öz üzərində hiss etdhiyini və müsəlman olmağa qərar verdiyini deyib.

Atasının qibləni göstərməyə kömək etdiyini deyən gənc qız telefonuna yüklədiyi proqram sayəsində azan vaxtlarından xəbərdar olduğunu və namazını bu vaxtlarla qıldığını deyib.

Sunnersta kilsəsinin baş keşişi Rabbe Sande əvvəllər qızının fərqli görünən ibadətinə sonradan alışdığını və qızının fikirlərinə hörmətlə yanaşdığını dilə gətirib.

## SAXTA QURAN TAPILDI

*Səudiyyə Ərəbistanının hüquq mühafizə orqanları bəzi məscidlərdən içərisində xətalar və yolundan sapmış bəzi təriqətlərə aid səhv təfsirlər olan Quran nüsxələri aşkarlayıblar*



Səuiyyə Ərəbistanının İslam işləri naziri Şeyx Saleh əş-Şeyx bildirib ki, aşkarlanan nüsxələr müsəlman dünyasının başqa ölkələrində çap olunub və "xeyirxahlar" tərəfindən Məkkədə yayılıb. Onun sözlərinə görə, bir neçə belə kitab Məscid əl-Həramda aşkar edilib. Bəzi nüsxələr kənar nəşriyyatlarda, digər ərəb və müsəlman ölkələrində çap edilib.

Bu nüsxələrdən bəziləri keyfiyyətsiz nəşr olunub və kommersiya yolu ilə Məkkəyə gətirilib.

## MÜQƏDDƏS QURANIN ŞƏRƏFİNƏ 114 MƏRTƏBƏLİ QÜLLƏ

*Səudiyyə Ərəbistanının tikinti şirkətlərindən biri Afrika və Avropada ən yüksək qülləni inşa etməyə hazırlaşır*



Əl-Ərabiyyə kanalının verdiyi xəbərdə bildirilir ki, tikintisinə bu ilin iyul ayında Mərakeşin sənaye paytaxtı sayılan Kasablankada başlanılacaq binanın hündürlüyü 540 m-dir.

Bir qüllədən və geniş yaşayış və ticarət mərkəzindən ibarət kompleks 25 hektar ərazidə inşa olunacaq. 7 ulduzlu mehmanxana, iş mərkəzi və ticarət mərkəzi kimi fəaliyyət göstərəcək olan kompleks təxminən bir milyard dollara başa gələcək. Kompleksin 2018-ci ildə istifadəyə verilməsi planlaşdırılır.

Hələlik "ən-Nur" adı daşıyan layihənin inşası bitdikdən sonra Mərakeş kralının adına "Burc Muhəmməd əs-Sədis" adlandırılacağı bildirilir.

Qüllənin, həmçinin, müqəddəs Quranın şərəfinə 114 mərtəbədən ibarət olacağı bildirilir. Çünki Qurandakı surələrin sayı məhz 114-dür.

## BİR HƏRF SƏHVİ AYƏNİN MƏNASINI DƏYİŞDİ - YANLIŞLIQ YARIM ƏSRDƏN SONRA DÜZƏLDİLDİ

*Türkiyə Diyanət İdarəsinin İstanbulda restavrasiya etdiyi Mihrimah Sultan məscidinin tikintisi zamanı qübbənin üzərində yazılan ayənin səhv yazıldığı məlum olub*



Türkiyə mətbuatının verdiyi xəbərdə bildirilir ki, Diyanət İdarəsinə yazılı olaraq müraciət edən xəttat Hüseyin Kutlu 1956-cı ildə inşa olunan məscidin qübbəsində yazılmış ayədə “səməvət” kəlməsinin yerinə “səhəvət” yazıldığını bildirib. Ayədə səhv yazılan bir hərfə görə məna “Allah göylərin və yerin nurudur” əvəzinə “Allah səhvlərin və yerin nurudur” kimi tərcümə olunur.

Beləliklə, ayənin yazılışındakı 58 illik səhv beləcə düzəldilib.

## DİN DƏRSİ MƏCBURİ OLACAQ

*Türkiyə Milli Təhsil Şurası dekabrn 21- də təhsillə bağlı qaydalara əlavə və dəyişiliklər edib*

Əlavə və dəyişikliklər arasında din dərslərinə aid qərarlar da var. Çoxlu müzakirələrə səbəb olsa da, 1, 2 və 3-cü siniflərdə din dərsinin məcburi olması haqqında qərar qəbul edilib. Digər qüərarla isə, liseylərdə hazırda həftədə bir saat məcburi keçilən din dərsi iki saat olacaq.



## “ TACQOYMA MƏRASİMİNDƏ QURAN OXUNSUN”

*Britaniya kralı və ya kraliçasının tacqoyma mərasimində Qurani - Kərimdən ayələr oxumaq təklif edilib*

Bu təklifi Oksfordun keçmiş baş keşişi lord Riçard Harris irəli sürüb. Harris qeyd edib ki, bu addım növbəti tacqoyma mərasimində iştirak edənlərin sayını artıra bilər. Nümunə kimi keçmiş baş keşiş 2013-cü ildə keçirilən Bristol kilsə yığıncağını göstərib. Həmin vaxt mərasimlərdən birində ruhanilər İncil və Quran oxumuşdular. Həmin tədbirdə islam inanclı şəhər meri və qraflığın şerifi də iştirak etmişdi.

Böyük Britaniyanın beş faiz əhalisini müsəlmanlar təşkil edirlər ki, bu da 2,8 milyondan çox insan edir. Onların sayı daim artır. Ekspertlər qeyd edirlər ki, müsəlmanlar həmçinin ölkədə daha da nüfuzlu güc olurlar və siyasi sahədə fəallaşırlar.

## MƏSCİD DİVARLARINA SVASTİKA ÇƏKİLİB

*Almaniyada daha bir məscid vandalların hücumuna məruz qalıb*

Bu dəfə islamofobiyanın qurbanı ölkənin şimal-qərbində yerləşən Dormagen şəhərində yarıtikili məscid binası olub.

Cinayətkarlar tikinti meydançasına daxil olublar. Onlar yarıya qədər tikilmiş binanın divarları üzərinə svastika çəkib, təhqiramiz sözlər yazıblar, müsəlmanları konslagerə göndərmək çağırışı ediblər.

Bildirək ki, 2012-ci ildən etibarən Almaniyada məscidlərə 81 hücum qeydə alınıb.



# ПИАНИСТ РИАД МАМЕДОВ: «ЖЕЛАЮ ВСЕМ НАМ, ЧТОБЫ МЫ СОБРАЛИСЬ В ШУШЕ И СЛУШАЛИ ХОРОШУЮ МУЗЫКУ...»

*Новый герой рубрики «Наши за рубежом» - аспирант Московской государственной консерватории им. П.И.Чайковского, лауреат международных конкурсов, советник по вопросам культуры и искусства Всероссийского Азербайджанского Конгресса Риад Мамедов.*

*Насколько сложно сегодня пробиться молодому таланту на большую сцену? Об этом и многом другом в интервью с молодым пианистом.*

**- Риад, Ваше исполнение наполнено выразительной эмоциональностью и яркостью. Думаю, это характеризует Вас, или я ошибаюсь?**

- Может быть. Вам виднее. Учитывая, откуда я родом (смеется) - южная кровь, как говорится, дает о себе знать. Академическая музыка и строгие каноны создают тот стержень, центр тяжести, точку опоры, которая не дает тебе расслабляться на сцене перед слушателем. Именно этот фактор формирует ответственность за каждое движение и эстетически формирует тебя как личность.

Правда, порой сложно сохранять контроль во время исполнения таких крупномасштабных сочинений, как сонаты Прокофьева, этюды-картины Рахманинова. Это - музыка с большим наличием контрастов и долей сарказма. Ведь все это писалось в урбанистический период.

**- Как часто Вы приезжаете в Баку с концертами?**

- С концертом в Баку я приезжаю не в первый раз. В 2011 году при поддержке Министерства культуры и туризма и по рекомендации народного артиста России, выдающегося дирижера Геннадия Рождественского я и мой друг Георгий Мансуров - один из лучших кларнетистов России, солист оркестра Music Aeterna – организовали в рамках Международного музыкального фестиваля им. Узеира Гаджибейли концерт венской классической музыки на сцене Азербайджанской государственной филармонии им.М.Магомаева.

Мы с Георгием сами собрали оркестр, вели репетиции в стенах Московской консерватории, были продюсерами, художественными руководителями и солистами. Дирижировал наш хороший друг, студент Геннадия Николаевича Рождественского - Максим Емельянычев.

В 2012 году я оканчивал Московскую консерваторию. Одним из государственных экзаменов был экзамен по камерному ансамблю, где я с Георгием и Полиной Борисовой играли трио. Нам поставили 5+, и так получилось, что в июле этого же года мы с Георгием уже в камерном составе выступили на Международном музыкальном фестивале в Габале. На этот раз слушателю был представлен поздний романтизм, трио М. Бруха, «Контрасты» Бартока, а также вместе с блистательной альтисткой, выпускницей Московской консерватории Анной Никитиной мы исполнили сочинения А.Пьяццолла.

**- Вы учитесь в аспирантуре Московской государственной консерватории, и на конкурсах и фестивалях, в которых принимаете участие, выступаете как представитель Азербайджана. Похвально.**

- Помню один случай. Когда печатался каталог Дягилевского фестиваля, там указали, что я представляю Россию. Я тут же позвонил генеральному менеджеру и попросил изменить название на Азербайджан, и это несмотря на то, что я уже столько лет живу в России. Я считаю, что для моей страны это важное событие, когда она представлена на таком масштабном международном фестивале.

**- Слышала, что Вы увлеклись общественной деятельностью. Ну как, получается?**

- Летом прошлого года у моего отца, заслуженного художника Тахира Мамедова в Москве состоялась выставка живописи и фотографий, которую открывали Таир Салахов, Полад Бюльбюльоглу, исполнительный директор ВАК Ильгар Гаджиев, советник по вопросам культуры посольства Азербайджана в России Нигяр Ахундова, Тамилла Ахмедова и другие уважаемые люди. Так как отец большую часть времени находился в Баку, то, естественно, контроль над выставкой осуществлял я.

В тот вечер меня представили Ильгару Гаджиеву, который весьма заинтересовался моими организаторскими способностями и сказал, как мне с ним связаться. Когда мы с ним встретились в сентябре, он предложил мне должность завотделом культуры во Всероссийском Азербайджанском Конгрессе. Я, конечно, не мог не согласиться. 28 сентября мы с Фондом Гейдара Алиева уже организовывали концерт в поддержку нашего

Президента на выборах. А незадолго до этого я выступал в Баку с  Мюнхенским филармоническим оркестром. Представляете, какое количество информации вдруг навалилось на меня, и я должен был не только обработать ее, но и принять к исполнению. Работал как проклятый. Такой ритм продолжается и сегодня. Тяжело, не скрою, но мне нравится.

**- А музыка? Удается совмещать?**

- Творческий человек, конечно, нуждается в некой отрешенности. Сегодня очень сложно заниматься творчеством. Один из героев романа Ремарка «Три товарища» сказал, что быть романтиком в наше время - непозволительная роскошь. То же самое касается и творчества. Так уж сложилось, что заниматься творчеством без материальной поддержки сложно. Вот и весь разговор.

Процесс творчества очень личный, ему нужно отдавать всего себя и после него от тебя обычно ничего не остается. Порой мы очищаемся через страдания.

Я беру от жизни ровно столько, сколько мне дается. Если мне что-то посылается, то значит - я должен это сделать, тем более, если это получается.  Совмещать два разных направлениях деятельности всегда тяжело. Тем более в таком сумасшедшем городе, как Москва. Там все подругому: нравы, ментальность, характер. Я учусь быть дипломатичным. Ильгар Гаджиев объясняет, как нужно правильно общаться с людьми. Я стараюсь все постичь вопреки моему темпераменту (улыбается).

**- Но с эмоциями совладать порой не так-то легко…**

- В консерватории я учился у Михаила Лидского. Потрясающий музыкант, пианист, философ. На протяжении 5 лет он задавал мне один и тот же вопрос: «В чем отличие человека от обезьяны?» Ответ прост - процесс постоянного контроля над собой. Человек должен всю жизнь воспитывать себя. Но, конечно, бывают моменты, когда я взрываюсь.

Работа в Конгрессе – это не просто работа, это мое обучение в разных сферах. У меня сильная мотивация.

**- Вы делаете неплохую карьеру как пианист и, думаю, сможете достичь таких же успехов в любой другой сфере.**

- Знаете, когда я не занимаюсь день-два, мне дурно, когда проходят три дня, я уже становлюсь неадекватным. То, что происходит в Конгрессе, мне очень интересно. Но я в первую очередь академический музыкант. Часто подобного рода вопросы задают относительно того, как я совмещаю джаз и классику.




**- Музыкой, наверное, как и все творческие люди Вы увлекались с раннего детства…**

- Меня хотели отдать на гитару, потому  что у нас дома не было пианино. Отец привел меня в 21-ю школу  имени Ростроповича, но меня приняли в класс фортепиано. С 7-го класса я продолжил образование в школе  Бюльбюля, а еще в 5-м увлекся джазом. Кстати, меня привел к этому мой отец. У него феноменальные способности - он исполняет все партиты Баха наизусть и импровизирует голосом почти как Эл Джерроу.

Я поступил в Бакинскую музыкальную академию, а за год до этого принимал участие в республиканском конкурсе. Там я познакомился с Зохрабом Адыгезалзаде, выдающимся пианистом, педагогом, который жил в Турции. Именно он посоветовал мне поступать в Московскую консерваторию. И знаете, мне повезло, что я там учусь. Меня поддерживал Фархад Бадалбейли. И каждый год, когда  я приезжал в Баку после сессии, поражался тому, как этот человек находит время, чтобы принять меня у себя в кабинете. Это человек, который олицетворяет для меня академическую культурную жизнь Азербайджана.

Когда я видел Московскую консерваторию по телевизору, никогда не думал, что когда-нибудь буду учиться в стенах, где творили такие великие музыканты, как Рахманинов, Скрябин, Нейгауз, Рихтер, Ростропович и другие.

**- Вы уехали, когда Вам было 17. Тяжело, наверное, одному в чужой стране?**

- Этот город закалил меня. Меня пошвыряло как накипь в чайнике.

Я живу в общежитии, а до аспирантуры был единственным азербайджанцем, обучающимся в консерватории. Каждый день вставал в 5.30, чтобы записать репетиторий. Шел занимать очередь. В 7 открывались двери, и я с другими ребятами заходил в комнату для записи репетитория. Положено было 3 часа в день, не больше. Если проспал, то не успел позаниматься, потому что в 10 начинались занятия в консерватории. Потом я возвращался в общежитие и опять занимался. И так каждый день.

Я хотел бы отметить, что меня поддержало наше правительство. Я имею честь быть Президентским стипендиатом, и именно благодаря этой

стипендии, учрежденной нашим уважаемым Президентом Ильхамом Алиевым, такие молодые люди, как я, могут обучаться за границей, ведь их обучение будет оплачено. Сами знаете, в Москве жизнь недешевая. Не каждое государство может позволить себе оплачивать обучение студента, его проживание, билеты и даже страховку.

**- Какие планы после окончания учебы?**

- Я не строю планов. Что буду делать, предположим, через год, утверждать не могу. Только Берлиоз был уверен в том, что он будет делать через определенное время.



**- Я хотела узнать, планируете ли Вы вернуться в Баку?**

- Моя нынешняя деятельность связана с продвижением Азербайджана за рубежом. То, что я сейчас нахожусь не на своей Родине, не говорит о том, что я отделился от нее. Я работаю в Конгрессе и делаю все от меня зависящее, чтобы достойно представлять свою страну. Благодаря своей работе я познакомился со многими российскими политическими и культурными деятелями - с представителями мэрии, Госдумы. Мне очень хочется продолжать работать в этом направлении и приносить пользу.

Кроме того, я уже привык к тому бешеному ритму, в котором живу в Москве. Баку по сравнению с Москвой – курортный город. Тут все иначе. Здесь дом, покой. А я живу именно этим драйвом, и мне его всегда не хватает.

С Азербайджаном я буду связан всю жизнь. Я представлял свою страну и в Канаде, и на лучших фестивалях Москвы. Неважно, где я нахожусь, важно, что я делаю и как это сказывается на отношении людей к нашей культуре.

**- Хотелось бы послушать о Ваших родителях…**

- Моя мама Наиля Исмаилова – искусствовед, научный сотрудник со стажем 35 лет. Работает в Государственной картинной галерее. В советское время организовала огромное количество выставок как в Азербайджане, так и в других республиках. Мама - это некий бэкстейдж меня и папы, если бы не она, все могло бы быть совершенно по-другому. Папа - Тахир Мамедов - живописец-эксцентрик, человек, которому удается самое сложное - идти в ногу со временем, оставаться на гребне волны и видеть тонкую грань между вчера, сегодня, завтра. Он также - профессор Академии искусств. В 90-е годы, когда наша страна переживала нелегкие времена и многие культурные деятели уезжали, мой отец принял решение остаться, хотя его звали в Париж. Видимо, это чувство патриотизма у меня от него. Не люблю это слово, но по-другому назвать это чувство не получается. А еще мой папа занимается творческой фотографией. Еще задолго до того, как появились «Инстаграм», «Фейсбук», в далеком 2002 году он предвидел, что в ближайшем будущем фотография станет неотъемлемой частью жизни каждого человека. Так и случилось. Посмотрите, сейчас все в «Инстаграме».

Отец также работает над вторым учебником по фото-арт. До него никто подобных изданий не печатал. Он потратил на это 5 лет, хотя мог заниматься творческими проектами. Отец считает, что студенты должны разбираться и в фотографии, и желание научить и показать, а не сохранить в тайне движет им, как локомотив.

**- А Вы сами рисуете?**

- Приходится (смеется). На Дягилевском фестивале я выступил в качестве музыканта и художника вместе с Георгием Мансуровым. Это был авторский проект нашего дуэта RELOVE, который я очень хочу поставить в Баку и Москве. Проект о любви, о вечном вопросе взаимоотношений мужчины и женщины. Впервые мы представили собственную музыку и поэзию. Проект ультрасовременный, молодежный. После Дягилевского фестиваля он имел большой резонанс. Проект поддержали блистательные деятели искусств Азербайджана, России, Греции, Франции, а именно - выдающийся кинорежиссер России, обладатель премии «ТЭФИ» Сергей Гинзбург, художественный руководитель оркестра Music Aeterna, художественный руководитель Дягилевского фестиваля Теодор Курентзис, генеральный менеджер Театра оперы и балета Перми Марк де Мони, выдающийся художник, галерист, скульптор Айдан Салахова, а также Фонд Гейдара Алиева, Всероссийский Азербайджанский Конгресс и др. Кстати, скоро появится наш сайт RELOVE, где можно будет увидеть и услышать авторскую музыку, поэзию, перформанс и элементы изобразительного искусства, а также танца.

Мне нравится рисовать, хотя я и не занимаюсь этим профессионально. Никогда не жалел, что пошел в музыку. И скажу вам по секрету, что музыка более сложное искусство, чем изобразительное. Эта сфера, где получается больше сказать, где двери для выражения своих чувств и эмоций открыты шире, по крайней мере для меня.

Сфера, где процесс работы постоянен.

**- А как долго нужно заниматься, чтобы достичь таких результатов?**

- Все индивидуально. 13-летний пианист может сыграть так, что взрослый ахнет. Но академическое образование должно быть однозначно, чтобы суметь себя контролировать и говорить с инструментом. Это вечный процесс. Пока ты живешь, ты творишь. Пока ты борешься, ты жив. Диалектика. Я в музыке 19 лет. И мне многое дала Московская консерватория, в которой я сейчас учусь в классе профессора Ксении Кнорре. Вместе с Ксенией Вадимовной имел честь выступать в сентябре на одной площадке в Баку на фестивале им. Узеира Гаджибейли. Это большая честь для меня. Сейчас редкость, когда площадку делят учитель и ученик.

**- Неожиданно, но все же. Тема Вашей диссертации?**

- «Система жанров в современной азербайджанской музыкальной культуре». Буду поднимать историю мугама, ашугской музыки и писать работу, где впервые рассматриваются все жанры азербайджанской музыки.

**- Вы прилагаете какие-то усилия, чтобы достичь целей, или у Вас все получается само собой?**

- Честно говоря, с легкостью мне мало что дается в жизни. Есть такие вундеркинды, которые легко могут справиться с любой задачей. Я знаю, что у меня нет таких качеств, и знаю, что ничего не дается в жизни легко.

**- Интересно, о чем Вы мечтали в детстве?**

- Меня всегда вдохновляли хирурги. У меня даже есть друг-врач, с которым я очень люблю беседовать. Да, и еще пилоты. Вот это я понимаю профессии – они держат в руках человеческие жизни.

**- И последнее. Что бы Вы пожелали нашим соотечественникам.**

- Чтобы мы все собрались в Шуше и слушали хорошую музыку.

*Ругия Ашрафли*
*Фото: Адыль Юсифов*
*1news. az*
*24.12.2014*

## “ОСНОВНОЙ ЦЕЛЬЮ НАШЕЙ ОРГАНИЗАЦИИ – АКТИВНАЯ ПРОПАГАНДА ДОСТИЖЕНИЯ АЗЕРБАЙДЖАНА”



Глава Молодежного отделения «Конгресса азербайджанских общин» в Республике Беларусь Эльвира Иманова родилась в городе Минске. Окончила одну из лучших школ столицы. После окончания средней школы поступила в Белорусский государственный экономический университет на факультет Международных экономических отношений, там же окончила магистратуру по специальности мировая экономика.

В настоящее время работает по специальности в одной из белорусских компаний, параллельно с этим возглавляет молодежное отделение Международного общественного объединения «Конгресса азербайджанских общин» Республики Беларусь.

С 1 мая 2012 года открылось молодежное отделение «Конгресса азербайджанских общин», которое активно участвует во всех мероприятиях, проводимых Конгрессом, охватывает азербайджанских студентов как обучающихся в городе Минске, так и во всех городах республики, сотрудничает с белорусскими молодежными организациями.

Основной целью нашей организации – говорит Эльвира Иманова – является содействие всестороннему развитию и укреплению культурных и социальных связей между народами Беларуси и Азербайджана, активная пропаганда достижения, культуры, истории, традиций и реалий Азербайджана.

# HƏYAT

*(Hekayə)*

***Dino Bussati***



*Dino Bussati məşhur İtaliya yazıçısıdır. O,1906-cı ildə anadan olmuş, Milanda hüquq təhsili almışdır. 30-cu illərin əvvəllərində "kafkasayağı" tərzdə qələmə aldığı ilk romanları dərc olunmuşdur. 1963-cü ildə "Sevgi" romanı çapdan çıxandan sonra məşhurlaşmışdır. Dino Bussati "Altmış hekayə" kitabına görə Streqa mükafatçısıdır (1958). Bir çox əsərləri ekranlaşdırılmışdır. "Maraqlı hadisə" dramını (1953) Alber Kamyu 1956-cı ildə fransız dilinə tərcümə etmişdir.*

*Dino Bussati 1972-ci ildə Milanda dünyasını dəyişmişdir*

O lənətə gəlmiş arayış üçün kontora yollanası oldum. Zaldakı köşklərin önündə artıq uzun-uzun növbələr yaranmışdı və aralarında da sən deyən fərq yox idi. Nisbətən qısa olanını seçib, saydım: önümdə düz iyirmi yeddi adam dayanmışdı. Bu ara qonşu növbəyə qoşulmağı daha uyğun saydım, çünki onun uzunluğu bizim növbədən seçilməsə də, sıraya düzülənlər cəmi iyirmi iki nəfər idi, sadəcə bəziləri şişman olduğundan, digərləri isə yanında çamadan daşıdığından bir-birindən aralı dayanmışdılar. Ancaq qonşuluqdakı növbəyə dayanmaq cəhdim gözümdə qaldı, çünki həmin iyirmi iki nəfərə zala təzəcə girən daha səkkiz nəfər əlavə olundu.

Zal qaranlıq, natəmiz və cansıxıcı idi, köhnəhal divarların suvağı yer-yer tökülmüşdü. Zalda cəmi doqquz köşk vardı və bunlardan lap içəri tərəfdəkilər neon işıqlarıyla aydınlandığından adamın gözlərini qamaşdırırdı. Çarəsiz nigaranlığın əsirinə çevrilən insanlar susmağı uyğun görürdülər. Hərdənbir, həm də çox nadir hallarda onlar bir addım, bir addım irəliləyirdilər.

Hər köşkün önündə gərəkli sənədləri və kağız-kuğuzu qoymaq üçün rəf var idi. Növbədə birinci olan və bu arzulanan köşkə yanaşan şəxs həmin rəfə qoyduğu dirsəklərini geniş aralayır, sanki bununla özünün mövcud duruma hakim olduğunu başqaları qarşısında sübuta yetirirdi. Onun uzun növbədən sonra yorulub gərilən sifəti isə yuxarıdan düşən işığın şüaları altında tanınmaz dərəcədə dəyişirdi. Həmin an o adam necə də bəxtəvər görünürdü! Qarşısındakı məmurla necə inamla söhbətləşir, ona necə də şux gülümsəyirdi. Pəncərəyə sarı əyildiyindən onun donqarlaşan beli iri, qara ləkə kimi özündən sonrakıların qarşısında ciddi maneəyə çevrilirdi.

O ara sırada ikinci və üçüncü olan şəxslər növbədən çıxaraq, həmin o birinci adamın sağ-solunu kəsdirirdilər. Onlar da eyni rəfə dirsəklənirdilər, həm də yalnız bir dirsəklərinə söykəndikləri üçün üzlərinə işıq düşmürdü. Burada duranda onlar qarşıdakı həzzi qismən dadırdılar sanki: növbədə birinci dayananın hərəkətlərinə səbirsizliklə göz qoyur, onun işləmləri əbəs yerə uzatmadığından, yersiz suallar vermədiyindən, hazırda tutduğu üstün mövqedən sui-istifadə etmədiyindən əmin olmağa çalışırdılar, çünki rəfə bu cür arxayınlıqla söykənən və məmurla göz-gözə danışan birisi mütləq buna cəhd edə bilərdi.

Növbədə ikinci və üçüncü olan adamlar da artıq arxalarında dayanan və onlara da növbənin yetişəcəyi anı uzun-uzadı gözləməyə hazır insanlara əsla bənzəmirdilər. Ara-sıra geri qanrılmaqla onlar uğurlarından məmnun halda geriyə, qət etdikləri uzun məsafəyə göz qoyur, nisbətən gec gəldikləri üçün çarəsiz və bədbəxt görkəmlə dayananları, bu yarışa təzəcə qoşulan zavallıları xüsusi həzz ilə süzürdülər.

Qəfildən, həm də bəlli olmayan bir mənbədən zalda şayiə yayıldı ki, müraciət edənlərin böyük axınını nəzərə alaraq, burada daha iki pəncərə xidmətə açılacaq. Növbəsi lap yaxınlaşan birisi əsəbiləşib, özündən çıxdı və: "Yox, əşşi! Heç belə də şey olar?!" – dedi, çünki bu qədər zillətə

qatlaşandan sonra, ən nəhayət, önə keçən bu adam özünü bir növ aldadılmış biri sayırdı: axı, belə olarsa, zala yeni daxil olanlar da onunla eynihüquqlu sayılacaqdılar!

Bənzər hallarda olduğu kimi, indi də əsəblər tarım gərildi. Sonrakı olaylar bir göz qırpımında baş verdi. Pəncərələrin arxasında anlaşılmaz hənirtilər duyuldu və az sonra bayaqdan bəri hər hansı həyat nişanəsi sezilməyən iki pəncərənin də işığı yandı. Bərq vuran şüşənin ardında məmurun başı görünən kimi pəncərə açıldı. Zaldakı növbələrdə bayaqdan səbrlə duran insanlar bir-birinə dəydi, onların gözlərindəki hərislik birə-beş artdı və qadınlı-kişili onlarla insan, yırtıcı məxluqlar kimi, bu rahat yerlərə tərəf cumdular.

Mən isə saymağımdan qalmırdım. Qarşımda cəmi iyirmi adam dayanmışdı. Bircə dəqiqə tərəddüdə qapılandan sonra hamı kimi mən də yaxınlıqdakı o bir cüt pəncərəyə tərəf götürüldüm. Lakin mənim o qısamüddətli tərəddüdüm başıma oyun açdı. Təzə yerə çatdığımda ordakı bir dəstə adam qəzəblə növbədə kimin kimdən sonra olması barədə mübahisəyə başlamışdı. Əsl döyüş səhnəsiydi bu. Köhnə növbəyə qayıtmaq fikrinə təzəcə düşmüşdüm ki, bir də gördüm "özümünkü" saydığım o növbə də sıxlaşdı. Buradakı alaqaranlıqda o növbədə duranların məni tanıyacağını ummaq mənasız idi. Üstəlik, mənim öz bayaqkı növbədə öz yerimi tutmaq istəyim də hədsiz gülünc görünə bilərdi.

Beləliklə, mən yeni növbədə qaxılıb, qaldım. Saymağa başladım və önümdə ən azı otuz beş nəfərin dayandığını anlayınca, boğazım qurudu. Həm də bu pəncərədə işləyən məmur, deyəsən, təcrübəsizin biriydi, çünki onun iş yoldaşları iki-üç vətəndaşı yola salanda, bu, bircə nəfərə ancaq xidmət göstərə bilirdi.

Aradan xeyli vaxt ötdü. Toz basdığı üçün dar və uzun pəncərələrdən süzülən işıq daha da öləzidi. Başımı qaldıranda mən tavanın lap altında bir cüt elektrik lampasının indicə yanmağa başladığını sezdim, lakin onların ətrafa yaydığı ölgün işıq qaranlığı yarmağa qadir deyildi.

Neçə saat gözlədiyimi bilmirdim, ancaq xeyli irəliləyəndən sonra anladım ki, məndən öndə yeddi nəfər dayanıb. Bu vaxt pəncərənin önündə növbəti əngəl yarandı və mübahisə qopdu. Saatlarca, həm də üzücü intizara qatlaşan vətəndaşı məmur digər pəncərəyə yollamaq istəyirdi və orada növbənin sonunda dayanmalı olan bu kişi üçün məşəqqətlər təzədən başlanacaqdı. Bunun səbəbi isə sənəddə yol verilən hansısa bürokratik xəta idi.

Məmur vətəndaşa deyirdi ki, yalnız qonşu pəncərədə qəbul aparan məsləkdaşı bu müşküldən baş çıxara bilər, özü bu şöbədə təzə-təzə çalışır, təcrübəsizdir, işlər sürətlənsin deyə və sırf kömək xətrinə onu buraya çağırıblar, odur ki, o, yalnız xarakterik durumlardan baş çıxara bilir. Bu dilləşmə on beş dəqiqə sürdü və məmurun dediyində duracağını anlayan vətəndaş sustaldı və mübahisəni kəsdi.

Bir də xəbər tutdum ki, pəncərənin lap önündəyəm. Tamamilə heydən düşdüyüm üçün bunun heç fərqinə varmamışdım. Budur, mən də dirsəklərimi aralı qoymaqla, rəfə söykənmişəm, üzümə düşən işıq mənə gümrahlıq hissi aşılayır və mən də məmura gülümsəyirəm. Ancaq ciddiyyətini qoruyan məmur əlini irəli uzadaraq: "Sənədləri bəri verin", – deyir.

Arxadan kimsə deyinməyə başlayır: "O maymaq orada çox qaxılıb duracaq görəsən? Düz yarım saatdır kəsdirib pəncərənin önünü!"

Halbuki mən indicə buraya yanaşmış, hətta bircə kəlmə kəsməyə də macal tapmamışdım.

Arayışımı alıb, pəncərədən aralandım. Qəribə idi. İndi, əlimdə tutduğum an ona qarşı tam biganəlik duyurdum.

Növbənin böyrüylə cəld keçib gedərkən, baxışlarım nisbətən yaxınımdakı qonşulara sataşdı, onların dərin intizar içində donub qaldığını görəndə içimi əsl xəcalət hissi bürüdü. Budur, yarım saat əvvəl mənim çəkdiklərim indi də bunların qismətinə yazılıb: qayğılı çöhrələri qarşılaşdıqları absurd şərtlərdən və küt eqoizmdən çarəsiz bir görkəm alıb, mənə dikilən qəzəbli, həsəd dolu baxışlarından isə mənasızlıq, tamahkarlıq və sırf özlərinə bəslənən bir heyranlıq oxunur.

*Tərcümə:*
***Azad Yaşar***

## QADINLARIN İŞLƏMƏSİ QADAĞAN EDİLƏN İŞ YERLƏRİNİN SİYAHISI LƏĞV OLUNACAQ

*Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov Yeni Azərbaycan Partiyasının saytına müsahibəsində bildirib*



Nazir deyib: "Dəyişdirilmiş Avropa Sosial Xartiyası"nın qadın və kişilərə bərabər imkanlar prinsipinə uyğun olaraq, qadınların işləməsi qadağan edilən iş yerlərinin siyahısının ləğv olunması, yalnız hamilə və yaş yarımadək uşağı olan qadınların işləməsi qadağan edilən iş yerlərinin müəyyən olunması üçün əmək qanunvericiliyində dəyişiklik edilməsi gözlənilir."

Nazir əlavə edib ki, "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması qaydaları"nın təkmilləşdirilməsi üçün də müvafiq işlər aparılır. Onun sözlərinə görə, "Azərbaycan Respublikasında əməyin təhlükəsizliyi və sağlamlaşdırılması üzrə Milli Strategiya"nın layihəsi bu ilin oktyabrında artıq hökumətə təqdim edilib. Layihədə Əməyin Mühafizəsi üzrə Milli İnformasiya Mərkəzinin, Dövlət Əməyin Mühafizəsi Fondunun, əməyin mühafizəsi vasitələrini istehsal edən müəssisələrin yaradılması, əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanması üçün təhsil müəssisələrinə dövlət sifarişlərinin verilməsi və s. kimi mühüm yeniliklər nəzərdə tutulur. Strategiya qəbul edildikdən sonra onun icrası üçün Dövlət Proqramı hazırlanacaq.

S. Müslümov deyib ki, sosial tərəfdaşların qarşılıqlı fəaliyyətinin sistemli şəkildə qurulması üçün yaradılacaq Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın Əsasnaməsinin layihəsi isə daha təkmil variantda hökumətə təqdim olunub.

## AZƏRBAYCAN İQTİSADİYYATINDA İŞLƏYƏNLƏRİN SAYI VƏ ƏMƏK HAQQI AÇIQLANIB

*Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, ötən il dekabrın 1-nə Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1507,7 min nəfər olub, onlardan 883,7 min nəfəri iqtisadiyyatın dövlət bölməsində, 624,0 min nəfəri isə qeyri-dövlət bölməsində fəaliyyət göstərib*

Muzdla işləyənlərin 22,5%-i təhsildə, 18,8%-i ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində, 12,3%-i sənayedə, 8,7%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində, 6,8%-i tikintidə, 4,9%-i nəqliyyat və anbar təsərrüfatında, 3,8%-i peşə, elmi və texniki fəaliyyət sahəsində, 3,0%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 1,8%-i informasiya və rabitə sahəsində və 17,4%-i iqtisadiyyatın digər sahələrində məşğul olublar.

2014-cü ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 442,1 manat olub. İqtisadiyyatın mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyətində, informasiya və rabitədə, peşə, elmi və texniki fəaliyyət sahəsində, tikintidə orta aylıq nominal əmək haqqı daha yüksək olub.



## AZƏRBAYCANDA NİKAHDAN QABAQ TİBBİ ARAYIŞ QANUNİLƏŞDİ

*Prezident İlham Əliyev 2014-cü il dekabrın 15-də "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli Qanununun tətbiqi barədə fərman imzalayıb*



Dəyişikliyə əsasən, nikah müvafiq icra hakimiyyəti orqanı tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə edilməklə ərizə verdikləri gündən 1 ay sonra onların iştirakı ilə bağlana bilər. Nikaha daxil olmaq istəyən şəxslər siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən xəstəliklər üzrə tibbi müayinədən keçirlər.

Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi, habelə həmin şəxslərə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların müraciəti ilə yaşayış yeri üzrə dövlət və (və ya) bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçirilir.

Nikaha daxil olmaq istəyən şəxslərə onların tibbi müayinəsinin nəticələri ilə yanaşı, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış verilir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış tibbi müayinədən keçmə faktını və tibbi məsləhətin verildiyini təsdiq edir və həmin şəxslərin tibbi müayinəsinin nəticələrini əks etdirmir.

Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış onların müvafiq icra hakimiyyəti orqanına nikaha daxil olmaq barədə verdikləri ərizəyə əlavə olunur. Müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri nikaha daxil olmaq istəyən şəxslərdən onların tibbi müayinəsinin nəticələrini tələb edə bilməz.

Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə qaydası və nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayışın forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin nəticələri həkim sirridir.

Nikaha daxil olan şəxslərdən biri özündə dəri-zöhrəvi xəstəliyinin və insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin olmasını o birindən gizlətdikdə, digər tərəf nikahın etibarsız sayılması tələbi ilə məhkəməyə müraciət edə bilər.

Nikaha daxil olmaq barədə ərizəyə nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə olunur.

Bu Qanun 2015-ci il yanvarın 1-dən qüvvəyə minmişdir.

## ÖTƏN İL AZƏRBAYCANDA DOĞULAN UŞAQLARA ƏN ÇOX QOYULAN ADLAR

*Ötən il ərzində Azərbaycanda doğulan uşaqlara qoyulan adlar arasında üstünlük təşkil edən adların siyahısı açıqlanıb*

Ədliyyə Nazirliyindən APA -ya verilən məlumata görə, oğlan adları arasında ən çox populyarlıq qazanan ad Yusif adıdır.

Belə ki, ötən il ərzində doğulmuş oğlan uşaqlarından 3967 nəfərə Yusif adı verilib. Daha çox qoyulan oğlan adları arasında Hüseyn (2610), Əli (2526), Murad (1717), Ömər (1611), Məhəmməd (1446), Ayxan (1078), Uğur (1021), İbrahim (987), Tunar (907), Kənan (890) da var.

Qız uşaqlarına verilən ən populyar ad isə Zəhra adıdır. Belə ki, 3608 uşağa Zəhra adı verilib. Populyarlıq qazanan digər qız adları isə Nuray (2538), Fatimə (2504), Aylin (1803), Ayan (1694), Zeynəb (1693), Xədicə (1244), Mədinə (1170), Mələk (1163), Məryəm (1162), Leyla (1112) adlarıdır.

Qeyd edək ki, Zəhra və Yusif adları son beş ildə Azərbaycanda ən çox qoyulan adlar siyahısında birinci yeri tuturlar.



# SƏRDAR FƏRƏCOVUN «4 VALS»I

*Zülfiyyə Sadıqova*

Arxada qoyduğumuz iki əsr vals burulğanında yırğalanır – desək yanılmarıq. Valsı hamı tanıyır. Onu dünyanın hər yerində dinləyir, rəqs edirlər. Vals insanı eyforiya halına çatdıracaq qədər qüdrətlidir və romantik əhvala köklənmiş insanların ən sevimli rəqsidir. Sərdar Fərəcovun «4 vals»ının musiqi mədəniyyətimizdə yerini dəqiqləşdirmək üçün ən əvvəl vals janrının tarixinə bir nəzər salaq.

Valsın nə vaxt yarandığını dəqiq bilən yoxdur. Amma yaranışının 18 əsr Avropa xalqlarının rəqslərindən qidalandığı şübhəsizdir. Vals allemanda, kuranta kimi rəqslərlə müqayisədə çox cavandı. Bəziləri İtaliyanın «volta» rəqsinin başlanğıc qoyduğunu deyir. Başqa bir mənbədən Avstriya rəqsi «lendler»in valsın əcdadı olduğunu öyrənirik. Vals elementlərini alman rəqsi valserdə də görmək olar. Vals dreyer, şlyapyer, lan-qauz rəqslərinə də oxşayır. Çox guman ki, tanıdığımız vals ərsəyə gəlincə böyük dəyişikliklərdən keçib və dövrün bütün sevimli rəqslərinin elementlərini özündə cəmləyib.

18-ci əsrin sonunda artıq kübar cəmiyyət valsı qəbul etdi. Bu proses o qədər də hamar olmadı. Sadə kəndlilərin oynadığı bir rəqsi öyrənmək o qədər asan idi ki. Əsas duruşu tutmağı bacarmaq, valsın üç təqtili formuluna uyğunlaşmaq kifayət edirdi. Amma dövrün başqa rəqsləri, məsələn, menuet və mazurkanı xüsusi duruş tərzini, mürəkkəb fiqurları qavramadan, məşq etmədən ərsəyə gətirmək mümkün olmurdu. Vals 1816-cı ildən saray rəqsləri siyahısına əlavə edilsə də dini və mənəvi liderlərin fikrinə görə «ayıb» və «pozgun» sayılırdı. Çünki rəqsdə partnyorların sıx təması mütləq şərt idi. Bu gün müasir rəqslərin fonunda, sadəlöhv, hətta «məsum» səslənən valsın bu qədər inqilabi keçmişi olduğunu təsəvvür etmək çətindir. 1804-cü ildə Parisə gəlmiş alman səyyahı yazırdı: «Alman rəqsinin bu miqyasda qəbul edilməsi, sevilməsi yenilikdir və müharibə dövrünün siqaret çəkmək kimi vulqar dəblərindən biridir». Xalq sevgisi valsın üzərinə vurulan bütün nalayiq damğaları tez bir zamanda silib təmizlədi.

Ola bilər, romantizm dövrünün İohann Ştraus, Frans Lanner kimi bəstəkarları olmasaydı vals hələ də «ədəbsiz» adlanaraq təqib edilərdi. Nəcibləşdirilmiş, əsilzadə simasına qədər yüksəlmiş vals artıq salonların, kubar ziyafətlərin gözü idi və bir növ dövrün simvoluna çevrilmişdi. 20-ci əsrin gəlməyi ilə vals inkişafını dayandırmadı, əskinə ən sevilən rəqslərdən biri oldu. Keçən əsrin rəqs tarixcəsinə ötəri nəzər salsaq görərik ki, əvvəl «amerikalı» fokstrot irəli çıxdı. Sonra 20-ci illərdə ağır Argentino tanqosu dəbə gəldi. Bütün Avropa çarlstonu rəqs etdikdən sonra onu da 40-cı illərdə rok-n-roll, buqi-vuqi, tvist və şeyk əvəz elədi. Yalnız bir rəqs – vals – 200 ildən artıq bir müddətdə yerini və üstünlyünü heç bir rəqsə vermədi. Hazırda valsın onlarla müxtəlif növü var: Vyana valsı, yavaş vals, qəmgin vals, eleqant vals, tanqo-vals və s. Amma onların bir ümumi cəhəti var – üçtəqtili ölçü və birinci təqtiyə vurğu. «Bir, iki, üç» - bu valsın strukturu və ürək döyüntüsüdür. Vals həmişə dövr edir.

Vals artıq rəqs musiqisindən aralanaraq müstəqil instrumental həyatını yaşayır. Vals ritmində minlərlə mahnı səslənir. Opera və operettalarda, kino musiqisində vals az qala həmişə mövcuddur. Biz Vyana valsı, fransız valsı, ingilis valsını tanıyırıq. Milli bəstəkarlıq irsimizi gözucu araşdırsaq belə artıq milli valsın yarandığını əminliklə deyə bilərik. Professional musiqi məktəbimizin banisi Üzeyir Hacıbəylinin Avropa musiqisinin milli mədəniyyətimizə gətirilməsi məsələsində öz mövqeyi vardı. «Musiqidə tərcümə» adlı məqaləsində Üzeyir bəy ədəbiyyatda olduğu kimi musiqidə də tərcümə ideyasını ortaya atır və deyir ki, musiqi sistemləri tamam fərqli olduğuna görə Qərb musiqisinin daha anlaşıqlı olması üçün onları lad baxımından «tərcümə» etmək lazımdır: «Qərb musiqi əsasından qeyri-olanlardan ən ümdəsi Şərq musiqisi əsasıdır. Böylə olduğu surətdə Qərb musiqisi əsası üzərində yazılmış olan bir musiqi əsərini, formasını və ideyasını da saxlamaq şərtilə Şərq musiqi əsasına çevirsək, zənnimcə, əsil tərcümədən anlaşılan məqsəd hasil olar». Avropa musiqi formalarına gəlincə Üzeyir bəy belə yazırdı: «Bu növ məşğələ yuxarıda zikr edilən faydalardan əlavə Şərq və Qərb musiqisi üslubunu müəyyən surətdə şagirdlərə aşkar etməkdə, Şərq musiqisini Qərb musiqisinin bir çox biməzmun valsları, maçiçləri (yəni marşları) və sair danslarının sui-təsirindən uzaq saxlar». Amma 20-ci əsrin əvvəlində Avropa not sisteminə əsaslanan musiqi təhsili və professional bəstəkarlıq məktəbinin təməlinin qoyulmasının nəticəsi kimi dünya musiqisi maneəsiz olaraq azərbacanlıların səs yaddaşına inteqrasiya oldu deyən artıq vals, marş, himn və s. janrların musiqi tərcüməsinə ehtiyac qalmadı.

Şərq və Qərb musiqisinin qovşağında yaradılmış bəstəkarlıq məktəbimizin hər yeni nailiyyəti ilə milli mədəniyyət abidələri yaratmaqla bərabər eyni zamanda həm də Avropa musiqi formalarının mənimsənməsi prosesi gedirdi. Milli opera, balet, milli simfoniya, kvartet, kamera musiqisi, romans və s. janrlarla yanaşı milli vals öz inkişaf yolunu keçirdi. Qara Qaryevin «yeddi gözəl» baletindən dünyaca məşhur Valsı xatırlamaq kifayətdir ki, milli vals barədə müəyyən təsəvvürlər yaransın. Qarayevin skripka və fortepiano üçün «Kiçik vals»ı, Fikrət Əmirovun «Sevil» operasındann vals, fortepiano üçün «Uşaq lövhələri» fortepaino silsiləsindən

vals, yaxud kamera orkestri üçün yazdığı Vals milli vals janrının klassik nümunələridir. Niyazinin «Konsert valsı», Arif Məlikovun fortepiano üçün «Vals»ını, Aqşin Əlizadənin «Qəmgin vals»ı, Əziz Əzizlinin «Vals»ını da xatırlaya bilərik. Daha sonra Cahangir Cahangirovun «Kaspi» mahnısı, Emin Sabitoğlunun «Bəlkə də» mahnısı, Tofiq Quliyevin «Qızıl üzük» mahnısı, «Bəxtiyar» filmindən «Sevgi valsı» vals ritmində yazılmış mahnılardır. Tofiq Qulievin «Cəmilənin albomu»ndan «Lirik vals»ı, estrada orkeçtri üçün «Gənclik valsı»nı, eləcə də Musa Mirzəyevin uşaqlar üçün Vals, romantik «Vals-poema»sını xatırlaya bilərik. Sərdar Fərəcovun «4 vals»ını da bu sıraya əlavə etməklə vals janrının Azərbaycan musiqisində keçdiyi təşəkkül və inkişaf yolunu aydın görmək mümkündür.

Sərdar Fərəcovun valsları gənclik illərindən bəri bir qədər ara verməklə müxtəlif illərdə yazılmış əsərlərdir. Bəstəkarın vals janrına münasibəti də xüsusidir: «Bizim nəsil Qarayevin, Şostakoviçin valslarını dinləyərək tərbiyə alıb. Özümü tanıyanı vals yazmaq istəmişəm. Həyatımın ən duyğusal, emosional, vurğunluq anlarında hisslərimi ifadə etmək üçün vals mənə daha uyğun bir janr olub. Bəlkə də ona görə onlar qəmgin, sentimental və lirikdir. Çünki daxilimdəki «niyə», «nə üçün», «nəyə görə» kimi münaqişəli suallara valslarda cavab axtarmışam. Ən böyük arzum bu «4 vals»ın orkestrləşməsini bitirib onların konsert ifasını dinləməkdir». Sərdar Fərəcovun vals janrına xüsusi münasibətini daha bir əsərində də izləmək olar. «Cavad xan» simfonik süitasının hissələrindən biri vals janrındadır. İri, çoxhissəli vals bədii fikrin çatdırılmasında bəstəkara ən münasib bir janr kimi əlverişli olub.

***Haşiyə:*** *Sərdar Fərəcov (08.12.1957) Azərbaycan bəstəkarı, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Ü. Hacıbəyovun ev-muzeyinin direktoru, «Mədəniyyət» televiziya kanalında «Musiqi xəzinəsi» adlı verilişin müəllifi və aparıcısı. 1984-cü ildə Azərbaycan Dövlət Koservatoriyasını prof. Xəyyam Mirzəzadənin sinfində bitirib. Əsərləri Avropa, Amerika və keçmiş SSRİ ərazisində müxtəlif ansambllar və ifaçılar tərəfindən ifa edilib. S. Fərəcov simfoniya janrı üzrə ümumittifaq laureat adına layiq görülən yeganə Azərbaycan bəstəkarıdır. 2 simfoniya, 3 operetta («Müsyö Jordan və dərviş» - 1998, «Bankir adaxlı» - 2000, «Səhnədə məhəbbət» - 2000), 1 uşaq rok-operası («Şəngülüm, Məngülüm» - 2000), simli orkestr üçün süita, 1 müzikl, simfonik poema, xor üçün konsert, simli kvartet, trio, 2 piano üçün konsert süitası, çoxlu sayda mahnı, teatr və kino musiqisinin müəllifidir. Ü. Hacıbəyli irsinin tədqiqatçısı kimi S. Fərəcov 1986-cı ildən mətbuatda məqalələri ilə çıxış edir. Ü. Hacıbəyli yaradıcılığı üzərində apardığı tədqiqatlar onun «Üzeyir işığında» kitabında toplanıb. Sərdar Fərəcovun ədəbi yaradıcılığında 1000-ə qədər şeir, hekayə, pyes, habelə tərcümələr və s. yer tutur. 10-a qədər kitabın tərtibatçısı və redaktorudur. Respublika Mədəniyyət fondunun mükafatçısı, Dövlət Gənclər və Musiqili Komediya teatrı bədii şurasının üzvüdür. Bəstəkar kimi 10-dan artıq müsabiqə laureatıdır. 2007-ci ildə «Əməkdar incəsənət xadimi» fəxri adına layiq görülüb. 2014-cü il 8-14 oktyabrında keçirilmiş 1-ci Hannoy Asiya Avropa yeni musiqi festivalının xüsusi medalına layiq görülüb. "Koroğlu" simfonik freskası Vyetnam simfonuk orkestrinin ifasında səslənib. (Yapon dirijoru Xolla Tetsuşi)*

***

«4 vals» silsiləsinin birinci nömrəsi «Zərif vals»dır. (Onun premyerası Moskvada Raxmanonov adına konsert salonunda 2004-cü ildə olub. Dirijor Kajlayev, pianoçu Zülfiyyə Sadıqova. Vals silsiləsinin bütün nömrələrinin ilk ifaçısı pianoçu Zülfiyyə Sadıqovadır). Proqram başlağından göründüyü kimi lirik və minor boyalıdır.

*1. Zərif vals*




Vals incə, bir qədər nostalji duyğuludur. Başlanğıcdakı metso-pianodan kulminasiya anındakı akkord fakturalı fortissimoya qədər rəvan, dövr eləməyinə bir saniyə də ara verməyərək artan musiqi dairəsini genişləndirərək inkişaf edir. Kulminasiyanın yeri klassik əsərlərdə olduğu kimi «qızıl bölmə» nöqtəsinə düşür. Sonra yenidən əvvəlki temp və başlanğıc təkrar edilir.

Sırada ikinci olan «Salon valsı» xasiyyət və musiqi materialı baxımından 18-ci əsr salon musiqisinin stilizə edilmiş variantıdır. Sanki parikli, pudralanmış, əlində yelpinci və pensnesi olan saray əhli aramla rəqs meydanında dövr edir. Bir-birinə təzim edir, qalant ədalar göstərir və xəfif təbəssümlə rəqs partnyorunu maraq dairəsində saxlayır. Bəstəkar Şostakoviç və Lyadovun valslarındakı büllur səslənmələri almağa çalışıb.

*2. Salon valsı*




Əgər bu eleqant valsın 6 diyezli tonallıqdan 4 bemola qəfil keçidi, kulminasiyada klassik musiqiyə qəti xas olmayan harmoniya və fakturası olmasaydı onu 18-ci əsrdə saray ballarının birində ifa edilən valslarla səhv salmaq da olardı. Klassik vals nümunələrində adətən ilkin

əhvalın kəskin dəyişməsi, gözlənilməz tonal irəliləyişlər olmur. Amma dövr öz sözünü deyir. 21-ci əsrin bəstəkarı parikli saray əhlinin eleqant rəqs ədalarını nə qədər bəyənsə və təsvir etməyə çalışsa da o öz dövrünün musiqisini yazır. Burada xromatik gedişlər, sinkopa, hər hansı pillənin septakkordu dönmə halında normal səslənir. Melizmlər və melodik bəzəklərsə dinləyicini gülümsəməyə vadar edərək yenə də qalant dövrə qaytarır.

3-cü kimi nömrələnmiş valsın adı «Arzu valsı»dır. Araşdırdığımız 4 valsın içində o, ən həyacanlı və ən narahat pyesdir. Bəstəkar onu həyatının mürəkkəb, tərəddüdlər və sual dolu bir məqamında yazıb. İnsanın özözünə verəcəyi suallar, taleh düyünlərinin açılmasında gələcəyə yönəldilmiş nidalar, etirazlar əsərin musiqi dilində çox aydın hiss olunur.

3. Arzu valsı




Valsın maraqlı lad-harmonik dili var. Açarda 2 diyezin durması onun si minorda olmasına işarədi. Bilirik ki, musiqi ədəbiyyatında ən faciəvi əsərlərin tonallığı si minordur. Valsda ikinci pilləsi əskildilmiş lad nədənsə frigik ladı xatırlatmır, səs yaddışımızdan bizə daha mərhəm gələn səslənmələri yada salır. Bu vals si minorun si mayəli segahla qəribə şəkildə yerdəyişməsini, çulğalaşmasını nümayiş edir:

Si minor (dorik)



Si segah

Bu vals si segahda yazılıbda demək olmur. Çünki şur ladının, xüsusilə də Hicaz şöbəsinin intonasiyası da aydın hiss olunur. Belə spesifik lad xüsusiyyəti pyesin sonluğunda daha da maraqlı həllini tapır. Vals muğamdan sitat ilə bitir. Özü də nə si tonikasında, nə də si mayəsində. Bu da növbəti bir cavabsız sualı xatırladır.




Ümumiyyətlə millilik məsələsi müasir musiqi elminin qarşısına qoyduğu ən aktual məsələlərdən biridir. Bunu durmadan artan sosial kommunikasiya tələblərinin təsiri altında formalaşan geopolitika prosesləri diqtə edir deyən müxtəlif mədəni abidələri araşdırarkən ən əvvəl milli mədəniyyət faktoruna vurğu ön plana çıxır. Dünyada qloballaşma prosesi gedir və milli mədəniyyətlərin bu nəhəng təsirin altında itib getmə təhlükəsi var. Pyesin sonunda muğamdan sitat varsa bu bir növ bəstəkarın əsərin sonuna xalqın adından atdığı imzaya bənzəyir. Onu başqa mədəniyyətlərin heç biri ilə çaşdırmaq mümkün deyil.

Silsilənin sonuncu pyesi «Vals-reqtaym» adlanır. (Reqtaym – ing. ragtime – keçən əsrin əvvəllərindən Amerika musiqisində çox popolyar bir janr idi. Reqtaym xanənin zəif hissələrində olan vurğuları, sinkopası ilə fərqlənir. Reqtaymı cazın sələfi sayırlar. Caz reqtaymdan melodiyanın məhz belə, sanki «axsaq» ritmini mənimsəyib) Tempin yanındakı - Gvazi jazz - aydınlatması (kvazi sözönlüyü guya deməkdir, yəni guya caz kimi) əsərin janrını dəqiq müəyyənləşdirir.

4. Vals-reqtaym




Bu valsın kiçik yaranma tarixcəsi var. Bəstəkar Venesiyada səfərdə olarkən küçədə kiçik ansamblın eleqant pyesləri ifa etməsinin şahidi olur. Ansambl caz ruhunda kiçik valslar ifa edirdi. Amma caz üçün spesifik olan saksafon yox, klarnet, violonçel səslənirdi. Ola bilər Venesiyada qayıq gəzintisinin də müəyyən emosional təsiri olubmuş. Bu açıq hava altında verilən balaca konsertin təəssüratını müəllif həmin bu vals-reqtaymda bir daha xatırlamağa çalışıb.

Tələsmədən dövran edən cazvari pyes valsın 3/4 ritmini reqtaymın spesifik 2/4, yaxud 4/4 təqtisi ilə birləşdirib. Ona görə də əsərdə vürğu valsda olduğu kimi birinci təqtiyə düşmür deyən təzadlı təəssürat yaradır. Bu vals oynaqlığını tamamilə itirib, daha çox mahnıvari, ya da blyuz kimi səslənir. Caz harmoniyaları bəstəkarın lirik və mahnıvari valslarına bir qədər optimizm əhvalı qatıb. Pyes səsləndikcə adamın xanənin hər ikinci payında «büdrəyən» valsı yellənmək həvəsi də rahat buraxmır. Amma arabir əzalar vals ritmində deyil, çırtıq vurub caz ruhunda tərpənməyə də can atır. Araşdırdığımız valslar

içində sonuncusu ən həyatsevəridir.

***

Fortepiano ifaçılığı baxımından valsları araşdırırkən ən əvvəl səsin keyfiyyətini vurğulamaq lazımdı. Alətdən işıqlı, sanki akvarel rənglərlə çəkilmiş lövhədəki kimi aydın səs çıxarmaq vacibdir. Arabir fakturada milli ornamentikamız özünü göstərəndə o, ümumi fondan kəskin seçilməməli və bir naxış kimi fakturaya oturuşmalıdır. Caz səslənmələri də eynən bu cür şəffaf olmalıdır və diqqəti çəkməklə xüsusi seçilməməlidir. Yumşaq, bütün dinamik diapazonu boyu fortepiano *bel canto*-su, yəni oxunaqlı səslənmə nümayiş edilir. İdeal *legato*-ya can atmaq şərtilə səsin qırılmamasına nail olmaq vacib şərtdir.

Valsların ümumi dinamikasına da diqqət ayırmağımız lazımdır. Bəstəkar klavirdə dinamik işarələri minimum dərəcədə göstərdiyindən bəzi kulminasiya anlarında seçim ifasının üzərinə düşür. Burada şimşək kimi çaxan fortissimo, ya da pıçıldayan pianissimo təzadı yaratmaq lazım deyil. Dinamik təzadları bir qədər yumşaltmaq, hamarlamaq məsləhətdi. Bu, əlbəttə ki, dalğavari qalxıb enmələrin təbii axarına yeknəsəklik gətirməməlidir.

Valsların melodiyası son dərəcə sadədir. Hətta o qədər oxunaqlıdır ki, onları fakturadan ayırıb mahnı kimi oxumaq mümkündür. Səslərin dialoqu emosional məntiqi pozmur və harmonik qovuşma baş verir. Müəllifin verdiyi proqram başlığı yaradılacaq xüsusi emosional atmosferə bağlıdır. Zərif vals, salon valsı, arzu valsı, valsreqtaym (Gvazi jazz) tövsiyyəsi əsərlərin emosional dairəsini dəqiq müəyyənləşdirir. Hər musiqi fikrinin, frazanın oxunaqlığı, *rubato*-nun tətbiqində arasıkəsilməzlik məntiqli və eyni zamanda kifayət qədər duyğusal olmalıdır. Aparıcı melodiya opera prima kimi fakturanı deşib keçməməli və başqa səslərə uyuşmalıdır.

Valslar forma cəhətdən çox aydın, anlaşıqlıdır. Musiqi dili dəqiq və lakonikdir. Burada artıq, qeyri-müəyyən, yerinə düşməyən, uydurulmuş və süni heç nə yoxdur. Müəllif ikinci dərəcəli hər bir artıqlığı yığışdıraraq musiqi fikrinin konsentrasiyasına nail ola bilmişdi. Bunun sayəsində vals kimi kiçik bir janrda böyük emosiya çələngi verə bilmişdir. «4 vals»ın nümunəsində biz deyə bilərik ki, Sərdar Fərəcovun sənət kriterilərindən biri də sadəlikdir. Sadəlik həm forma baxımından, həm də fortepiano ifaçılığı prizmasından əsas fikir daşıyıcı faktora çevrilir. Texniki yeniliklər müstəqil elementə çevrilib qabardılmır. Əksinə, vahid emosional fonun yaradıcı faktoruna, bədii obrazın tərənnümçüsünə çevrilir.

Fortepiano ifaçılığı baxımından «4 vals»ın bəzi ümumi cəhətlərini aşkara çıxarmaq mümkündür: aqoqikanın təbiiliyi, vurğuların təbii, nitqvari məntiqə uyğun gəlməsi, hər şeyin oxunaqlı, mahnıvari olması, təmkinli templərin diqtə etdiyi ifadəli ornamentallıq, ifaçılıqda pianist aparatının azadlığı, improvizə illüziyası yaradan yüngüllük. Buna yalnız fortopiano alətinin texniki imkanları ilə yaxından tanış olan bəstəkar nail ola bilərdi.

*İSTİNAD MƏNBƏLƏRİ:*


1. Вальс: *https://ru.wikipedia.org/wiki/?????*

2. Энциклопедия танца: вальс- *http://hnb.com.ua/articles/s-sport entsiklope diya_tantsa_vals-2322*

3.История вальса: *http://www.valsis.ru/index.php?option=com_co nnt&view=article&id=71&Itemid=69*

4. История вальса : *http://manyunya.com/istoriya valsa/*

5. Азербайджанский композитор Сардар Фараджев приедет в Казань на фестиваль «Европа-Азия-2013» - *http://music gazeta.com/article/5039/*

6. Sərdar Fərəcov: *http://az.wikipedia.org/wiki/Sərdar_Fərəcov*

7. Sərdar Fərəcov: *http://adam.az/index.php?option=com_sobi2&sobi2Task=sobi2Details&catid=38&sobi2Id=1650&Itemid=53*

8. Görkəmli bəstəkar və pedaqoq - Gülnarə Ələsgərova, Respublika.- 2012.- 8 dekabr.- S. 7. *http://www.anl.az/down/meqale/respublika/2012/dekabr/282635.htm*

9. Sərdar Fərəculla oğlu Fərəcov - Vaqif Ağayev *http://novxanililar.narod.ru/index/s_rdar_f_r_co v/0-118*

10. Vikipediya, açıq ensiklopediya - Vals *http://az.wikipedia.org/wiki/Vals*

11. Əfrasiyab Bədəlbəyli – Musiqi lüğəti – Vals *http://lugat.musigidunya.az/az/data.pl?id=2610&lang=ru*

12. Ü. Hacıbəyov – "Musiqidə tərcümə" *http://uzeyir.musigi-dunya.az/az/article43.html*

13. Azərbaycan Bəstəkarlar İttifaqı - *http://zeynj-info.com/index.php*



***"Musiqi dünyası" jurnalı***
***№4/61 2014***




*Dərc olunmuş yazılardan seçmələr*

## "YAXŞI QURTARDIQ, KEÇƏL DEYİL..."

"Xəzər Xəbər" jurnalında dizayner kimi işə başlayanda baş redaktorun müavini Əlirza müəllim mənə dedi ki, jurnalın estetik görünüşü, oxucuların zövqü korlanmasın deyə, jurnalda bir qayda olaraq keçəl kişilərin şəklini vermirik (o, başında tük olmayan kişiləri "keçəl" adlandırır). Tapşırdı ki, bunu nəzərə alım.

Əlbəttə, sonralar gördüm ki, istisnalar da olur. Misal üçün, hər il Nobel mükafatı laureatlarını təqdim edəndə, universitetə rəsmi bir qonaq gələndə və s. Ancaq, əsas etibarilə, bu "qayda"ya əməl olunur.

... Günlərin bir günü məlum oldu ki, universitetə rektor vəzifəsi üçün müsabiqə elan edilib. Əlirza müəllim bərk narahatlıq keçirməyə başladı: "Keçəl olsa, jurnal batdı".

Həqiqətən də, həyəcanlanmağa dəyərdi. Rektorun şəkli jurnalın rəngli qismində hər nömrədə, özü də çox vaxt 5-10 yerdə gedir. Keçəl rektorla bu səhifələri təsəvvürə gətirməyin özü, doğrudan da, ağır iş idi.

Buna görə də, Əlirza müəllimin narahatlığı davam etməkdə idi...

Nəhayət, günlərin bir günündə də məlum oldu ki, müsabiqəyə yekun vurulub, rektor müəyyənləşib və yaxın günlərdə Amerikadan Bakıya gəlişi gözlənilir. Əlirza müəllim: "Əlövsət müəllim onu tanımamış olmaz, gedim soruşum, görüm başında tükü var, ya yox" deyərək, Əlövsət müəllimin yanına getdi. Mən həyəcanla gözləyirdim. Bir azdan Əlirza müəllim sevincək otağa qayıtdı: "Yaxşı qurtardıq, keçəl deyil. Əlövsət müəllim deyir ki, başında yaxşı tükü var". Beləliklə də, Con müəllimin şəkli jurnalda maneəsiz çap olunmağa başlandı...

... Lap bu günlərin söhbətidir. Əlinizdə tutduğunuz bu nömrəni hazırlayırdıq. Əlövsət müəllimin keçirdiyi tədbirin şəkillərinə baxarkən, bir neçə dazbaş kişini görüb, hirslənibmiş kimi, Əlövsət müəllimə zəng etdi (onu da qeyd edim ki, bəzən Əlirza müəllimin zarafatı ilə ciddi sözünü ayırd etmək çox çətin olur): "Əlövsət müəllim, niyə tədbirə adam dəvət edəndə bir baxmırsan ki, başında tükü var, ya yox?"

Əlövsət müəllim nə dedisə, dəstəyi qoyub, ürəkdən gülməyə başladı. Mən də ona qoşulub, gülə-gülə Əlövsət müəllimin nə cavab verdiyini soruşdum.

- Dedi ki, sən bu keçəllərdən nə istəyirsən? Allahın işidir, birinə tük verir, birinə vermir...

*Yəmən Haşımova*
*№302, dekabr 2011*

## "ORDA HEÇ DƏRSƏ GEDƏCƏK Kİ?"

4-5 il bundan qabaq olardı. Bir gün yaxşı tanıdığım bir tələbənin valideyni yanıma gəldi. Buradakı şəraitdən, təhsilin keyfiyyətindən razılığını bildirdi. Amma təhsil haqqını ödəyə bilmədiyini söyləyərək, övladının Azərbaycan Beynəlxalq Universitetinə köçürülməsinə razılıq verməyimizi xahiş etdi və söhbətinə belə davam etdi: "Burada həm təhsil haqqı bahadır, həm də uşağa ayaqqabı, paltar almaqdan cibimdə pul qalmayıb". Bu maraqlı səbəb məni bir qədər qurdaladı. "Yaxşı, təhsil haqqını ödəmək çətinliyiniz olduğunu qəbul etdim və tutaq ki, köçürülməyə icazə verdik. Amma mənim üçün maraqlıdır, tələbə o universitetə gedəndə siz ona ayaqqabı, paltar almayacaqsınızmı, uşaq ayaqyalınmı gedəcək?" - dedim. Valideynin cavabı: "Orda heç dərsə gedəcək ki?!"

*İsaxan İsaxanlı*
*№303, yanvar 2012*

## BİR METODUN SƏRGÜZƏŞTİ




Cümə günlərinin birində Hamlet müəllimlə redaksiya ilə əlaqədar universitetə aid bir məsələni müzakirə edirdik. Dedim ki, Hamlet müəllim, siz **inzibati - amirlik metodu**ndan istifadə etmirsiniz... Bir an duruxdu, sonra dedi ki, yox, məndən nə asılıdırsa edərəm və məsələnin bazar ertəsi günü geniş tərkibdə müzakirə olunması üçün tapşırıq verdi.
Bazar ertəsi prorektor Rafiq müəllim başda olmaqla digər əməkdaşların iştirakı ilə Hamlet müəllimin yanında məsələnin müzakirəsini davam etdirdik. Mən yenə inzibati - amirlik metodundan istifadə etmək lüzumunu ortaya atdım. Görünür, Hamlet müəllim şənbə - bazar günlərində bu barədə fikirləşmişdi ki, cavabı artıq hazır idi. Dedi ki, inzibati – amirlik metodundan yox, **inzibati - inandırıcı metod**dan istifadə etmək lazımdır.

Ertəsi gün Rafiq müəllim zəng etdi: Əlirza müəllim, həmin məsələ ilə əlaqədar dekanları yığmışam, Hamlet müəllim metodu necə demişdi? Dedim ki, inzibati – inandırıcı metod. Dedi ki, bəs mən axı dekanlara **inandırıcı - inzibati metod** dedim. Dedim ki, hə, siz bir az da yumşaltmısınız. İkimiz də ürəkdən güldük...

İndi inandırıcı - inzibati metodla işləyirik. Nəticəsi barədə oxucularımıza məlumat verəcəyik...

*Əlirza Balayev*
*№303, yanvar 2012*

## "QIRX" MƏRASİMİNƏ GEDİRƏM

2005-2006-cı illər olardı. Oruc müəllimin universitetimizdə işlədiyi dövrlər idi. O vaxtlar Oruc müəllim burada işləməkdən əlavə, imkan düşdükcə, müxtəlif yerlərdə yas mərasimlərində mollalıq etməklə də əlavə pul qazanırdı. Mən də onun maddi vəziyyətini nəzərə alaraq, belə mərasimlərdə iştirak etməsinə, imkan dairəsində, şərait yaratmağa çalışırdım. Bir gün, o, mənə yaxınlaşaraq, yenə bir neçə saatlığına icazə istədi. Mən - "Oruc müəllim, xeyirdimi, hara gedirsən?"- deyə sual etdiyimdə onun cavabı belə oldu: ***"Bəli, xeyirdi, bir "qırx" mərasimi var, oraya getmək istəyirəm".***

*İsaxan İsaxanlı*
*№307, may 2012*

## ALTIAĞACA SƏYAHƏT

Bir yay səhəri Altıağac meşəsinə səyahətə yollandıq. O vaxtlar "Xəzər"in bir avtobusu və bir əvəzedilməz sürücüsü – İsa var idi. Hər yerə onunla gedərdik və hər dəfə də ya benzin qurtarardı, ya da təkər sıradan çıxardı. Meşə yolunda hər yarım saatdan bir mən deyirdim: "İsa, saxla, işimiz var". İsa da dinməz-söyləməz maşını saxlayırdı. Hər dəfə də 3-4 xanım düşür, ora-bura baxır, sonra avtobusa minirdilər. Mənsə komanda verirdim: "Hə, İsa, getdik!"

Bu minvalla meşə yolunda avtobus 3-4 dəfə dayandı. Axırda arxada oturan Hamlet müəllimin səbri tükəndi:

- Ay Firəngiz müəllimə, nə olub? Bu avtobusu niyə belə tez-tez saxlayırsınız?

Mən də günahkarcasına dilləndim:

- Hamlet müəllim, maqnitofona batareya qoymaq yaddan çıxıb, deyirik bəlkə yolda tapa bildik.
- Eləmi? Mən bilmirdim ki, Altıağac meşələrində batareya bitir...

*Firəngiz Nəsirova*
*№310, sentyabr 2012*

## BAKI DÜNYANIN ƏN GÖRMƏLİ 52 ŞƏHƏRİNDƏN BİRİ SEÇİLİB

*Bakı ABŞ-ın "The New York Times" qəzetinin hazırladığı 2015-ci il üzrə dünyanın ən görməli 52 məkanı siyahısına daxil edilib*



Siyahıya dünyanın müxtəlif mədəniyyətlərini təmsil edən Kuba, Makedoniya, Zimbabve, Florida, Milan və s. kimi ölkə və şəhərlər daxildir.

"The New York Times" qəzetində yerləşdirilən və siyahıdakı bütün məkanlar haqqında məlumat verilən məqalədə Bakı haqqında bunlar yazılmışdır: "Qədim mədəniyyət və Dubay tərzindəki ekstravaqantlığı Bakını turistlərin getmək istədikləri məkanlardan birinə çevirir. Azərbaycanın paytaxtında baş verən ikinci neft bumu Xəzər dənizinin sahilində yerləşən bu şəhərə var-dövlət qazandırmış və yeni üfüqlər açmışdır. Hökumət neftdən əldə olunan gəliri UNESCO-nun Dünya Mədəni İrsi siyahısına salınmış İçərişəhəri dövrəyə alan zəngin memarlıq layihələrinə yönəldir. Şəhərin ən gözəl binalarına misal olaraq Alov qüllələrini və Zaha Hadidin memarlığı ilə tikilən Heydər Əliyev Mərkəzini göstərmək olar. Şəhərdə Four Seasons, Hilton və Kempinski kimi beynəlxalq nüfuza malik otellər fəaliyyət göstərir. Bu yay Bakıda keçiriləcək Birinci Avropa Oyunları ərəfəsində 33 mərtəbəli Trump International oteli və Bakı qülləsi də bu möhtəşəm tikililər siyahısına əlavə olunacaqdır".

## BEYNƏLXALQ TURİSTLƏRİN SAYI SÜRƏTLƏ ARTIR

*AzərTAc Dünya Turizm Təşkilatının (DTT) "Dünya turizminin barometri" adlı məruzəsinə istinadla xəbər verir ki, 2014-cü ilin sonuna qədər beynəlxalq turistlərin sayı 1,1 milyard nəfərdən çox olmuşdur*

Sənəddə qeyd edilir ki, 2014-cü ilin yanvar-oktyabr aylarında turistlərin sayı 978 milyon nəfərə çatıb. Bu, keçən ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 45 milyon nəfər çoxdur.

DTT-nin baş katibi Taleb Rifai deyib: "Bu meyil davam edərsə, 2014-cü ilin sonuna qədər beynəlxalq turistlərin sayı yəqin ki, rekord həddə çatacaq".

Ekspertlərin fikrincə, bu il səyahətə çıxmış insanların ümumi sayı dekabrın sonuna qədər 1,1 milyarda çatacaqdır.

DTT rəhbəri deyib: "Maraqlıdır ki, ölkələrin çoxunda turizm sektoruna siyasi dəstəyin artması müşahidə olunur. Bu, nikbin olmağa əsas verir. Xüsusən ona görə ki, turizm əhalinin məşğulluğunu çox uğurla təmin edə biləcək sektorlardan biridir".

2014-cü ildə turist marşrutları arasında ən populyar istiqamət yenə Avropa olub. Cari ilin yanvar-oktyabr aylarında Avropaya gələn beynəlxalq turistlərin sayı 4 faiz artıb. Lakin bu il Avropa ölkələrinin heç də hamısı populyar olmayıb. Məsələn, Şimali Avropaya və Aralıq dənizi regionu ölkələrinə gələn turistlərin sayı keçənilki ilə müqayisədə 7 faiz artdığı halda, Mərkəzi və Şərqi Avropa ölkələrində durğunluq müşahidə olunub, yəni burada heç bir artım olmayıb.

Afrikada beynəlxalq turistlərin sayı 3 faiz, Amerika qitəsində 8 faiz artıb.



## QIZ QALASI "MÜKƏMMƏLLİK SERTİFİKATI 2014" MÜKAFATINA LAYİQ GÖRÜLÜB

*Dünyanın ən nüfuzlu turizm internet portalı olan "TripAdvisor"un apardığı tədqiqatlara görə Azərbaycanın paytaxtı Bakı 2014-cü ilin nəticələrinə əsasən ən yaxşı turizm məkanlarından biri hesab edilərək, "Yüksələn turizm məkanları" kateqoriyasına daxil edilib*

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin mətbuat xidmətindən AzərTAc-a bildirilib ki, on milyonlarla istifadəçi auditoriyası olan "TripAdvisor" şəbəkəsinin istifadəçiləri tərəfindən Bakıda ziyarət olunması tövsiyə edilən görməli yerlər sırasında İçərişəhər ən çox ziyarətçi rəyi alan məkandır.

İçərişəhər ərazisində yerləşən dünya əhəmiyyətli abidələrdən biri olan Qız qalası isə bu il həm də "TripAdvisor"un "Mükəmməllik Sertifikatı 2014" ("Certificate of Excellence 2014") mükafatına layiq görülüb.

2002-ci ildən təqdim olunmağa başlanan və hər il dünyanın müxtəlif ölkələrindən milyonlarla "TripAdvisor" istifadəçisinin rəy və münasibətləri əsasında verilən "Certificate of Excellence" mükafatı bu internet portalının təqdim etdiyi ali mükafatdır. Milyonlarla insanın dünyanın müxtəlif şəhərləri, gəzməli yerlər, tarixi məkanlar, keyfiyyət, xidmət və digər sahələrdəki məmnuniyyəti əsasında "TripAdvisor" ildə bir dəfə "yaxşıların yaxşısını" seçir və dünyaya təqdim edir.

Bakı şəhərinin "Yüksələn turizm məkanları" kateqoriyasına daxil edilməsi və konservasiya işlərindən sonra yenilənmiş muzey ekspozisiyası ilə qapılarını açan Qız qalasının "Certificate of Excellence 2014" mükafatına layiq görülməsi Azərbaycanın zəngin tarixi-memarlıq irsinin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsinin daha bir göstəricisidir.



## ELEKTRON TURİST VİZASININ TƏTBİQİ ÖLKƏMİZDƏ TURİZMİN İNKİŞAFI ÜÇÜN YENİ İMKANLAR AÇIR

*Ölkəmizə gələn xarici turistlərin sayının artırılması, gəlmə turizminin daha da inkişaf etdirilməsi və bu sahədə olan problemlərin həll olunması istiqamətində Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mütəmadi olaraq tədbirlər görülür*

Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə 2013-cü ilin mart ayından xarici turistlərə elektron turist vizalarının verilməsinə başlanılıb.

Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildirilib ki, hazırda elektron turist vizasının verilməsi ilə bağlı nazirlik tərəfindən 55 turizm şirkəti akkreditasiyadan keçib.

2013-cü il ərzində turizm şirkətləri tərəfindən elektron turist vizası vasitəsilə ölkəmizə gələn xarici turistlərin sayı 6.147 nəfər təşkil edib. 2014-cü ilin ilk altı ayında bu rəqəm 11.933 nəfər olub.

Bütün bunlar deməyə əsas verir ki, bu sistem vasitəsilə elektron turist vizası alan xarici turistlərin sayı artacaq və gəlmə turizmi inkişaf edəcəkdir.

## AZƏRBAYCAN LİDER ÖLKƏLƏR ÜÇLÜYÜNDƏ

*Müstəqil Dövlətlər Birliyi ölkələrinin sakinlərinin istirahət etmək üçün getmək istədikləri üç lider ölkədən biri Azərbaycandır.*

AzərTAc MDB Parlamentlərarası Assambleyasının saytına istinadla xəbər verir ki, 2014-cü ilin MDB-də Turizm ili elan edilməsi ilə əlaqədar bu saytda aparılan səsvermədə 216 mindən çox sakin "Siz Birliyin üzvü olan hansı ölkədə istirahət etmək istərdiniz" sualına cavab verib.

Rusiyalı turizm operatorları MDB ölkələrinə turlara tələbatın davamlı artmasını qeyd edirlər. Onlar bildirirlər ki, turistlərin üstünlük verdiyi istiqamətlərin müəyyən edilməsində turların dəyəri mühüm rol oynayır. Uzaq xarici ölkələrlə ilə müqayisədə Birlik ölkələrinə turlar xeyli ucuzdur. MDB istirahət məkanlarında rahatlıq səviyyəsi isə artıq Baltikyanı ölkələrlə müqayisə edilə bilər.

## MOSTAR (BOSNİYA VƏ HERSEQOVİNA)
### Qədim Körpü (*Old Bridge*)



Mostardakı Qədim körpü, yaxud Mostar körpüsü, Bosniya və Herseqovina Respublikasının Mostar şəhərindən keçən Neretva çayı üzərində yerləşir. Memar Sinanın şagirdi memar Xeyrəddin tərəfindən 1566-cı ildə inşa edilib.

Neretva çayından 24 m yüksəklikdə, 30 m uzunluğunda, 4 m enində olan Mostar Körpüsü, o dövr üçün inkişaf etmiş texnologiya ilə tikilib.

Körpünün inşası üçün memar Xeyrəddin 456 üzlük daşdan istifadə edib. Körpü tikiləndən sonra yaxınliqdakı şəhərə də onun adı verildi, şəhərdə ticarət canlandı və zənginləşdi. Bununla da Mostar Herseqovinanın ən əsas şəhəri oldu. Məlumata görə, Mostar şəhərinin kişiləri, nişanlılarına cəsarətlərini sübut etmək üçün toydan öncə körpüdən atlanırdılar.

1992-ci ildə Bosniya və Herseqovinada başlayan vətəndaş müharibəsi zamanı körpüyə ilk hücumu bosniyalı serblər təşkil edib. Bir il sonra Xorvatiya tankları körpüyə daha böyük zərbə vuran hücumlara başlayıb.

1993-cü il noyabrın sonunda körpü tamamilə dağıdıldı. Körpünün nəhəng daşları, Neretva çayının sularına qərq oldu. Bu körpü var olduğu 427 il boyunca Bosniyada mədəni müxtəlifliyin simvolu sayılırdı, şəhərin müsəlman və xorvat seqmentini bir-birinə bağlayırdı.

Körpünün dağıdılması, Mostarın çoxmillətli mirasının rədd edilməsi mənasını verirdi.

Döyüşdən sonra ingilislər körpünün yerinə keçici dəmir körpü tikdilər. Mostar ətrafındakı digər körpülər də korlandığından çayın iki sahilini birləşdirən təkcə bu körpü qaldı.

1997-ci ildə YUNESKO və Dünya Bankının dəstəyi ilə Mostar Körpüsünün köhnə görüntüsünə uyğun yenidən tikinti işləri başladı.

Körpünün tikintisini bir türk şirkəti öz üzərinə götürdü. Macar ordusunun dalğıcları körpünün orijinal daşlarını çay yatağından tapıb çıxardı. Ətrafdakı daş karxanalarından yeni daşlar da gətirilərək körpü istehsalında istifadə edildi. Tikinti şirkəti orijinal modelə sadiq qalaraq, körpünün özülünü də möhkəmləndirdi. Körpünün kəmərindəki iş 2002-ci ilin iyununda başladı və kilid daşı 2003-cü ilin avqustunda yerinə qoyuldu.

Körpünün 2004-cü il 23 iyulda ingilis şahzadəsi Çarlz tərəfindən açılışı oldu. Açılış telekanallar tərəfindən canlı yayımlandı. Beləcə Mostar Körpüsü, köhnə Mostar şəhəriylə birlikdə 2005-ci ildə Dünya Mədəniyyət İrsinə əlavə olundu.

## ROMA (İTALİYA) KOLİZEY (COLOSSEUM)





İtaliyanın paytaxtı Romada yerləşən Kolizey e.ə. 72-80-ci illərdə inşa edilən qədim amfiteatrdır. Roma deyiləndə ilk ağıla gələn tarixi abidə olan Kolizey həm də şəhərin əsas simvoludur.

Qədim Romanın ən əzəmətli tarixi abidəsidir, eyni zamanda dünyadakı ən böyük antik amfiteatr sayılır. Eskvilin, Palatin və Çelio təpələrinin arasında yerləşir. Bura Flavi sülaləsinin nümayəndələri tərəfindən tikildiyi üçün Flavi amfiteatrı adlandırılıb.

Kolizeyin inşasına imperator Vespasianın Fələstindəki qələbəsindən sonra başlanıb və onun oğlu Titin dövründə bitirilib. VIII əsrdən etibarən Kolizey adlandırılmağa başlayıb. Bura uzun zaman qladiatorların və vəhşi heyvanların döyüş səhnələrinə, dəniz döyüşlərinin imitasiyasına ev sahibliyi edib. Ən çox qladiator döyüşlərilə xatırlanan arenada 2000-dən çox qladiator ölüb. Katolik kilsəsinin mifik fərziyyələrinə görə, xristianlığı qəbul edənlər məhz burada edam edilirmiş.

İmperator Makrinin dövründə tikilidə güclü yanğın olub. Daha sonra Aleksandr Severin əmri ilə yenidən bərpa edilib. 405-ci ildən amfiteatrda qladiator döyüşləri ləğv edilir, amma vəhşi heyvanlara qarşı döyüşlər hələ də keçirilirdi.

Varvarların hücumlarından sonra tikili dağıdılmağa başlanır. 1132-ci ilədək adlısanlı romalılar üçün qala funksiyası daşıyıb. 1332-ci ildə burada öküz döyüşləri keçirilirmiş. Elə o zamandan da onun dağıdılması davam etdirilir. Onun daşlarından tikinti materialı mənbəyi kimi digər tikililərin inşasında istifadə edilib. Papa II Pavel Venesiya sarayının tikintisi üçün daşları məhz buradan götürüb. Amfiteatrda V-IX əsrlərdə kustar fabriklər də fəaliyyət göstərib.

Kolizey indi İtaliya hökuməti tərəfindən diqqətlə qorunur. Alim arxeoloqların tövsiyələri əsasında tikili qismən bərpa edilərək dağılmasının qarşısını almaq üçün bir çox tədbirlər görülüb. Kolizey Romanın ən parlaq simvolu kimi ən məşhur turist obyekti sayılır. 7 iyul 2007-ci ildən dünyanın 7 yeni möcüzəsindən biri sayılır.

Hesablamalara görə, Kolizey 50 min tamaşaçı qəbul etmək imkanına malik olub. Kolizey ellips formasındır, eni 156 m, uzunluğu 188 m, çevrəsi 527 m, hündürlüyü 48 m-dir. Üstü xüsusi tent vasitəsilə günəş şüalarından qorunmaq üçün örtülürmüş. Döşəməsi taxtadandır və altında 7 m dərinliyində zirzəmi yerləşib.

VIII əsr salnamələrində belə bir ifadə mövcuddur ki Kolizey durduqca Roma da duracaq, nə vaxt Kolizey yox olacaqsa o vaxt Roma, onunla birlikdə isə dünya da məhv olacaq.

## "YAŞIL APTEK" HƏMİŞƏ FAYDALIDIR?

*Bir sıra xəstəliklərin müalicəsində ənənəvi təbabətdən daha çox türkəçarəyə inananlar az deyil; hətta vərəm və ya xərçəng xəstəliklərinin çarəsini də "ot-ələf"də arayanlar var*



Fəqət alimlərin apardıqları son araşdırmanın nəticələri göstərir ki, balıq yağı və zəncəfil kimi ən populyar türkəçarə vasitələri əslində xərçəng xəstələri üçün çox təhlükəlidir.

Çünki bu ərzaqlar orqanizmdə dərman preparatlarının təsirinə maneələr yaradır.

Milli.Az Lancet-ə istinadən bildirir ki, Avstraliyanın Melburn şəhərindəki Piter MakKallum adına Xərçəng Mərkəzinin (Melbourne's Peter McCallum Cancer Centre) hesabatında 10 qeyri-ənənəvi təbabət vasitələrinin adı çəkilir. Onlar balıq yağı, kurkuma, koenzim Q10, yaşıl çay, zəncəfil, laktobakteriyalar, astraqal, yeralması və reyşa göbələyidir.

Kiçik miqdarda bu nəsnələr zərərsizdir. Amma bioloji əlavələrdə onların konsentrasiysı çox olur.

Siyahıdakı məhsulları qəbul edən xərçəng xəstəsi kimya terapiyası kursu keçirsə, effekt azalır, müalicə orqanizmi zəhərləyir. Üstəlik, dərman preparatlarının effektivliyi aşağı düşür. Türkəçarə metodlar xərçəng xəstəsinin şüa terapiyası vasitəsilə müalicəsinə də mənfi təsir edir.

## TƏBABƏTDƏ İNQİLAB SAYILACAQ YENİLİK

*Mütəxəssislər adətən deyirlər ki, ağ ciyər xərçəngini ilkin mərhələdə aşkar etmək mümkün olsa, onu müalicə etmək effektivliyi də 90 % çox olur*

İngiltərəli alimlərin sayəsində vəziyyət xeyli dəyişib. İndi onkoloji xəstəliyi ağız və burun seliyindən də müəyyən etmək mümkündür.

İngiltərəli mütəxəssislər ağır xəstəliyin selikli qişalarda etdiyi dəyişiklikləri aşkar ediblər. Həmin dəyişikliklər xəstəliyin ilkin mərhələsində baş verir. Heç xəstənin ağlına gəlmədiyi bir zamanda. Sən demə, onkoloji xəstəliyə yoluxan insanların ağız və burun selikləri ultrabənövşəyi şüaların altında sağlam insanlarla müqayisədə tamam başqa rəngə çalır.

Alimlər həm də müəyyən ediblər ki, onkoloji xəstəliyə yoluxmaq riski olan insanlarda da bu cür dəyişiklik olur. Bu isə o deməkdir ki, ağ ciyər xərçəngini əvvəlcədən müəyyən edərək qarşısını almaq mümkün olacaq.

## ÇOX YATANLAR ÜÇÜN BƏD XƏBƏR

*Alimlərin müxtəlif yaş qruplarından olan insanlar üzərində apardıqları araşdırmalardan sonra məlum olub ki, həddən artıq çox yuxu insan beyninə yuxusuzluq qədər neqativ təsir göstərir*

Uorvik universitetinin alimləri 50-64 yaş arası 9000 adam üzərində araşdırma aparıblar. Gün ərzində 8 saatdan az yatan adamlarda yaddaş və diqqət problemləri üzə çıxıb. Gün ərzində 8 saatdan çox yatan adamlarda da analoji problemlər ortaya çıxıb.

Araşdırmanın müəlliflərindən biri, professor Françesko Kappussio deyir ki, yalnız doğru miqdarda yuxu yaşlı adamlarda əqli geriləmənin qarşısını ala bilər: "Fiziki və əqli sağlamlıq üçün yuxu olduqca vacibdir". Optimal yuxu ahıl yaşlarındakı insanların beyinlərinin funksiyasını normada saxlayır.





# OTURAQ İŞ İNSANIN PSİXİ VƏZİYYƏTİNƏ PİS TƏSİR GÖSTƏRİR

*Tasmaniya Universitetinin mütəxəssisləri dövlət qulluğunda çalışan 3367 işçi arasında sorğu aparıblar*

Bir ay çəkən tədqiqat zamanı narahatlıq və depressiya hallarının səviyyəsi araşdırılıb. Bundan əlavə, könüllülər fiziki işin miqdarını və işdən məmnunluq dərəcəsini müşahidə ediblər. AzərTAc xəbər verir ki, bu məlumatları "Psych Central" nəşri təqdim edib.

Məlum olub ki, oturaq həyat tərzi və bir yerdə oturub işləmək insanın psixi vəziyyətinə mənfi təsir göstərir. Gün ərzində kompüter qabağında altı saatdan çox oturan insanlarda ruh düşkünlüyünün və narahatlıq hissinin səviyyəsi yüksək olur.

Tədqiqat zamanı kişilərin hər biri hər gün iş yerində təqribən beş saat, qadınlar isə dörd saat vaxt keçiriblər. Depressiya ilə bədənin statik vəziyyəti arasında əlaqə qadınlar arasında daha çox hiss olunub.

Qeyd edək ki, gün ərzində yığılan gərginlikdən yaxa qurtarmağa hətta idman zalına getmək də kömək etməyib. Alimlər arada özünə fasilə verib, elə iş yerindəcə sadə gimnastika hərəkətləri etməyi məsləhət görürlər. Bunun üçün hətta xüsusi "ofis" proqramları da mövcuddur.

# XƏSTƏLİKLƏRƏ QƏNİM KƏSİLƏN ƏDVİYYAT

*Darçın hələ qədim zamanlardan xalq təbabətində geniş istifadə olunub*



Bu ədviyyat darçın ağacının qurudulmuş budaqlarından hazırlanır. Orqanizm üçün saysız-hesabsız faydaları olan darçın sözün əsl mənasında bir çox xəstəliklərə qənim kəsilən ədviyyatdır.

Darçının ən faydalı xüsusiyyətlərindən biri qanda şəkəri tənzimləməsidir. Şəkərli diabeti olanlar bu ədviyyatın faydasından bəhrələnə bilərlər.

Darçın qanda xolesterinin səviyyəsini azaldaraq, ateroskleroz, miokard infarktı, iflic ehtimalını azaldır. Damarları genişləndirərək beynin fəaliyyətini yaxşılaşdırır. Bağırsaq iltihablarına qarşı mübarizə aparır.

Orqanizmin toksinlərdən təmizlənməsinə kömək edir. Böyrək, qaraciyər və öd kisəsinin fəaliyyətinin normallaşdırır. Qəbizlikdən əziyyət çəkənlər üçün xeyirlidir. Mədə ağrılarını aradan qaldırır.

Bədənin müqavimətini artıraraq, orqanizmin immun sistemini gücləndirir.

Darçınla balın qarışığı bir çox xəstəliklərin müalicəsində istifadə olunur. Soyuqdəymə, qrip, öskürək zamanı bir çay qaşığı balla çay qaşığının üçdə bir hissəsi qədər darçını qarışdırmaq və qəbul etmək lazımdır. Yorğunluğu və halsızlığı aradan qaldırmaq üçün də darçın və baldan istifadə etmək olar. Bunun üçün bir stəkan suya bir çay qaşığı bal və çay qaşığının dörddə bir hissəsi qədər darçın əlavə etməli və səhərlər içilməlidir. Səhər yeməklərində sıyıqların üzərinə azacıq darçın səpməklə orqanizmin ümumi tonusunu lazımi səviyyədə saxlamaq mümkündür.

Nəzərə almaq lazımdır ki, digər faydalı qida məhsulları kimi darçından da qədərində istifadə etmək lazımdır. Çünki darçının tərkibində kumarin adlı maddə var ki, orqanizm onu artıq qəbul edəndə həmin maddə qaraciyər üçün ziyanlı ola bilər. Buna görə də, darçının faydalarından bəhrələnmək istəyənlər darçının seylon növünə üstünlük verməlidirlər. Onun tərkibində kumarin maddəsi digər növlərdən daha az olur.



# SAĞLAM OLMAĞIN 7 ƏLAMƏTİ

*Qədim Çin təbabətinə görə sağlam olmağın 7 əlaməti mövcuddur ki, onlar insanın həm fiziki, həm də psixi və emosianal vəziyyətinin yaxşı olduğunu bildirir*

1 Sağlam olmağın birinci əlaməti insanın yerişinin qətiyyətli, gözlərinin parlaq, baxışlarının canlı, bütün gördüklərini maraqla seyr etməsi, qamətinin düz olmasıdır. Məhz belə əlamətlər kənardan insanı tam enerjili, bütün işlərin öhdəsindən yorulmadan və xoş əhvalla lazımınca gəlməyi bacaran bir varlıq kimi göstərir.

2 Şərq müdriklərinin belə bir deyimi var: "Yeməyi almaq olar, iştahanı yox". Sağlam olmağın əlamətlərindən biri insanın iştahalı olmasıdır. Sağlam insan süfrə arxasına məmnunluqla, həvəslə keçməlidir. Şərqdə iştahalı olmaq, qidalanmaq təkcə aclığı aradan qaldırmaq kimi dəyərləndirilmir, o həm də yeni fəaliyyət, yaşamaq istəyi üçün insanın növbəti bir cəhdi kimi qiymətləndirilir.

3 Şərq müdriklərinin belə bir deyimi də var: "İstənilən yatağı almaq olar, amma yuxunu almaq mümkün deyil". Çin təbibləri sağlam olmaq üçün ən azı 4-6 saat dərin yuxunun vacibliyini xüsusilə vurğulayırlar. Onların qənaətinə görə, sağlam insan üçün 4-6 saat yuxu yetərlidir. Əgər insan sutka ərzində 10-12 saat yatırsa, yaxud səhər tezdən oyananda özünü tam gümrah hiss etmirsə, bu artıq sağlamlıqda olan ciddi problemlərə işarədir. Normal, sağlam, dərin yuxu sağlam olmağın əlamətidir.

4 Sağlam olmağın digər əlamətlərindən biri istənilən yaşda yaddaşın normal olmasıdır. Elə düşünmək lazım deyil ki, yaş artdıqca yaddaş zəifləməlidir. Qədim Çin təbabəti bu fikri yanlış sayır.

Sağlam insan yaşından asılı olmayaraq uzaq keçmişində və yaxın ötən günlərdə baş verən hadisələri asanlıqla xatırlamalıdır.

5 Sağlam insan yumor hissinə malik olmalıdır. O təkcə ətrafında olan hadisələrə deyil, həm də özü ilə bağlı bəzi məqamlara yumor hissi ilə yanaşıb gülməlidir. Əgər insanda yumor hissi yoxdursa, demək onun sağlamlığında problemlər var.

6 Qədim Çin təbabətində sağlam olmağın əlamətlərindən biri də insanın öz işinə, ailəsinə, dostlarına, ona ehtiyacı olanlara, çətin vəziyyətə düşmüş insanlara mərhəmət göstərməyi, kömək etməyi bacarmasıdır. Bunu bacarmayanlar sağlamlıqları haqqında ciddi düşünməlidirlər.

7 Sağlam olmağın yeddinci əlaməti odur ki, insan qarşıya çıxan və ya onu gözləyən problemi vaxtında aradan qaldırmağı bacarır, düzgün qərarlar verir və öz enerjisini lazımi istiqamətə yönəltməyi bacarır. İstənilən bir problemin həllində yubanma, qorxu və qəzəb hissi, yaxud inciklik, paxıllıq, qisas kimi digər hisslər bədənin enerji balansının pozulması, tənasübsüzlüyü kimi xəstəliyin göstəricisidir.

*Çalışın, bu 7 əlamət sizdə olsun və o zaman siz dünyanın əvəzsiz neməti olan sağlamlığa malik olarsınız.*

# MOZAİKA

## QORBAÇOV İNDİ DƏ AMERİKANI DAĞITMAQ İSTƏYİR

*"ABŞ-ın "yenidənqurma"ya ehtiyacı var"*



Bunu SSRİ-nin sabiq prezidenti Mixail Qorbaçov "Russia Today"a müsahibəsində deyib. "ABŞ-ın vaxtilə SSRİ-də həyata keçirilən iqtisadi və siyasi islahatlara ehtiyacı var" - deyə, o vurğulayıb.

Amerikalıların müharibə istəmədiklərini deyən M. Qorbaçov bununla belə qeyd edib ki, ABŞ öz təzyiq siyasətini həyata keçirmək və məsuliyyəti öz üzərindən atmaq üçün düşmən obrazını yaratmağı bacarır.

"Öz təcrübəmə əsaslanıb deyə bilərəm ki, bu siyasi xəttə yaxşı bələdəm. İndi də köhnə "təzyiq siyasəti"nə qayıtmaq üçün ABŞ-ın düşmənə ehtiyacı var. Onlar bunsuz yaşaya bilmir. ABŞ hələ də köhnə siyasətinin əsiridir" - deyə, o bildirib.

## QƏRİBƏ, HİBRİD MAŞIN

*Amerikanın Krossblade şirkəti həm avtomobil yollarında hərəkət edən, həm də havada uça bilən SkyCruiser adlı nəqliyyat vasitəsinin konsepsiyasını təqdim edib*

Bu konsept kiçik ölçülü təyyarənin, helikopterin və avtomobilin hibrididir. Üfüqi uçuşu quyruq hissədəki qoşa pərlər təmin edir. Layihə müəlliflərinin fikrincə kreyser sürəti təxminən saatda 500 km olacaq. Qeyri-adi nəqliyyat vasitəsi şaquli qalxma və enmə ilə xarakterizə olunur.

Avtomobil yolları ilə yaxın məsafələrə gedərkən təkərlərdə quraşdırılmış elektrik mühərrikləri işə qoşulur. Bu zaman bütün qanadlar yığılır və gizlənir. Yerdə maksimal sürət 120 km/saat təşkil edir.

## DİKTATORDAN DAHA BİR ƏCAİB QADAĞA

*Şimali Koreyada daha bir qeyri-adi qərar qəbul edilib*



Ölkədə son zamanlarda qəbul edilən qeyri-adi qadağalardan taksilər də öz nəsibini alıb. Bundan sonra Şimali Koreyada taksilər nömrələrinin tək və cüt olmasına görə bir gün işləyəcək, bir gün işləməyəcək.

Beləliklə də, taksi sürücüləri bir gündən bir işləməyə məcbur olacaqlar. Paytaxt Pxenyanda isə bu addımın nə məqsədlə atıldığına dair hələlik hər hansı bir məlumat yoxdur.

Pxenyanda hazırda 1500 ədəd taksi var və bu avtomobillər hər gün nəqliyyatda hərəkət edir. Taksilərin sayının indiki prezident Kim Çen Inın hakimiyyətə gəlməsindən sonra artdığı bilinir. Pxenyana idxal edilən taksilərin böyük əksəriyyəti isə Çindən gətirilir.

Qeyd edək ki, analoji addım bir müddət öncə Çin tərəfindən atılıb. Pekində bu cür qərarın qəbul edilməsi ilə paytaxt havasının zəhərli qaz tullantılarından təmizlənəcəyi planlaşdırılırdı.



## FİLİPPİNLİ QIZ DÜNYA GÖZƏLİ OLDU

*Filippin nümayəndəsi 20 yaşlı gözəl Jamie Herrell dünyanın nüfuzlu gözəllik müsabiqələrindən sayılan "Miss Earth-2014" yarışının qalibi elan olunub*

Gözəllik müsabiqəsinin final mərhələsi Filippinin Luzon adasında yerləşən Quezon City şəhərinin teatrında təşkil edilib.

Rusiya nümayəndəsi Anastasia Trusova - ikinci, ABŞ nümayəndəsi Andrea Neu - üçüncü yer, Venesuela nümayəndəsi Maria Alejandra Rodriguez isə dördüncü yeri qazanıblar.

"Miss Earth" (Yer kürəsi gözəli) Filippində 2001-ci ildən keçirilir və "Miss World" (Dünya gözəli) ilə yanaşı, dünyanın ən nüfuzlu gözəllik müsabiqələrindən biri hesab olunur.

## ƏN KİÇİK BİBLİYA YARADILDI

*“Jerusalem nano Bible” şirkəti tərəfindən yaradılmış mikroskopik Əhdi-cədid Ginnesin Rekordlar Kitabı naşirlərinin versiyasına görə, dünyanın “Ən kiçik bibliyası adına namizəddir*

Nano-Bibliyanın yaradıcıları bildiriblər ki, tərəfləri 4.76 mm olan kiçik kvadrat çipə yunan dilində çap edilmiş 27 Əhdi-cədid kitabı daxil edilib.

“Məqsədimiz məhsulumuzun kütləvi istehsalına başlamaq və bu bibliyanın hər bir kəsin cib kitabına çevrilməsinə nail olmaqdır” – Jerusalem Post nəşri şirkətin marketinq və satış bölməsinin rəhbəri Devid Elmonqun bu sözlərini sitat gətirib.






## 18 MİLYON DOLLARI QARAJDA BELƏ UNUTDU

*Fransanın kəndlərinin birində bahalı maşınların kolleksiyası 1970-ci illərdən bəri istifadəsiz qalıb*

Avropa.info-nun verdiyi xəbərdə qarajda saxlanılan 60 avtomobilin dəyərinin 18 milyon dollar olduğu bildirilir.

İstifadəsiz saxlanılan avtomobillər arasında "Ferrari" və "Maserati"nin nadir modelləri də var.

Kolleksiyanın bu qədər qiymətli olacağını təxmin etməyən sahibi 10 il əvvəl vəfat edib.

## "FERRARİ"DƏN *BAHA VELOSİPED*

*Velosipedin qiyməti 400 min dollar dəyərindədir*

İngiltərədə dünyanın ən bahalı velosipedi hazırlanıb. Əşyaları lüks formada bəzəməsi ilə məşhur olan “Goldgenie” şirkəti daha bir yeniliyə imza atıb. Şirkət əsas hissəsi 24 əyar qızıldan ibarət velosiped hazırlayıb.

Kişilər üçün nəzərdə tutulan dağ velosipedinin sükan hissəsindən tutmuş hərəkətedici hissəsi olan zəncirlər və pedalları da qızılla təchiz olunub.

Goldgenie®

## MƏŞHUR AKTRİSAYA GÖNDƏRİLMİŞ BAHALI MƏKTUBLAR

*Merilin Monronun həyat yoldaşlarının ona yazdığı məktublar 121 min dollara satılıb*



Tanınmış aktrisanın ayrıldığı ikinci həyat yoldaşı Jo Dimagio və sonuncu həyat yoldaşı Artur Miller tərəfindən yazılan məktuba pul sayan adamın kimliyi açıqlanmır. Alıcının kimliyi məlum olmasa da, ikinci həyat yoldaşının yazdığı məktubun 78, sonuncu ərinin yazdığı məktubun isə 43 min dollara satıldığı açıqlanıb.

## ADADA "ULDUZ MÜHARİBƏLƏRİ"

*Əbu-Dabinin yaxınlığında "Ulduz müharibələri" muzeyi açmaq planlaşdırılır*

Burada "Ulduz müharibələri" kinoepopeyasının yeddinci hissəsinin çəkilişləri gizli şəkildə aparılmışdır.

Filmin çəkilişlərini təşkil etmiş şirkət çəkiliş zamanı istifadə olunmuş rekviziti və dekorasiyaları – qüllələri, kosmik gəmini və qədim bazarı saxlamağı planlaşdırır. Muzey hələlik dəqiq məlum olmasa da, çox güman, Saadiyat adasında yerləşəcəkdir.



## PREZİDENTİN QATİLİNİN QƏBRİNİ DƏ SATDILAR

*ABŞ-ın 35-ci prezidenti Con Kennedinin ehtimal edilən qatilinin qəbri satılıb*

Rusiya KİV- lərinin məlumatına görə, Texasın Fort-Vors şəhərinin dəfn bürosu qəbri hərracda 87.5 min dollara satıb. Bu qəbirdə Kennedinin ehtimal edilən qatili Li Harvi Osvald dəfn olunub.

Li Harvi Osvald Kennedinin qətlindən iki gün sonra Dallasda qətlə yetirilib. Fort-Uertada dəfn olunub. Bir müddət sonra isə qalıqları məzardan çıxarılaraq, başqa yerdə dəfn olunub.

## ÇİLİDƏ MƏKTƏBLİLƏR YEDDİ MİN YAŞI OLAN MUMİYA TAPMIŞLAR

*Çilidə bir qrup məktəbli yeddi min yaşı olan mumiya aşkar etmişlər*

Yerli məktəblərdən birinin şagirdləri istirahət günlərində arxeoloji ekskursiyaya getməyə hazırlaşarkən belə bir uğurla rastlaşacaqlarını yəqin ki, güman etməzdilər.

Tapıntı Peru ilə Çilinin sərhədi yaxınlığında aşkar edilmişdir. Mütəxəssislərin fikrincə, həmin mumiya bu ərazidə eramızdan əvvəl IX–II minilliklərdə mövcud olmuş Çinçorro mədəniyyətinə aiddir. Bu yerlərə ekskursiyaların təşkilatçıları hesab edirlər ki, bu ərazini mühafizə olunan zonaya çevirmək lazımdır. Milli mədəni irsin qorunması üçün cavabdeh olan yerli hakimiyyət orqanları tapıntının ətraflı öyrənilməsi üçün oraya mütəxəssislər göndərmişlər.

Mumiyanın Çilidə bu il aprel ayında baş vermiş 8,2 maqnitudalı zəlzələdən sonra üzə çıxması ehtimal edilir. "Time" qəzetinin verdiyi məlumata görə həmin kataklizmdən sonra bir sıra başqa qiymətli artefaktlar da sözün hərfi mənasında yerin səthinə çıxmışdır.

## GÜLƏŞÇİLƏRİMİZ ÜÇÜN ƏN UĞURLU İL

*Azərbaycan güləşçiləri 2014-cü ildə beynəlxalq turnirlərdə 294 medal qazanıblar*




Bunlardan 102-si qızıl, 81-i gümüş, 111-i isə bürünc medal olub.

AzərTAc xəbər verir ki, bu sözləri cari ilin yekunlarına həsr olunan tədbirdə Azərbaycan Güləş Federasiyasının baş katibi Əjdər Cəfərov deyib.

Baş katib bildirib ki, 2014-cü ildə qazanılan medalların 60-ı dünya, Avropa çempionatları və yeniyetmələrin ikinci yay Olimpiya Oyunlarının payına düşür. Çinin Nankin şəhərində təşkil olunan yeniyetmələrin ikinci Yay Olimpiya Oyunlarında pəhləvanlarımız uğurla çıxış edərək üç qızıl və iki gümüş medala sahib oldular. Bu, ölkəmizdə həyata keçirilən uğurlu idman siyasətinin bariz nümunəsidir.

Qarşıda güləşçilərimizi ciddi sınaqların gözlədiyini diqqətə çatdıran Ə.Cəfərov başa çatan ölkə çempionatının gələn il respublikamızda təşkil ediləcək birinci Avropa Oyunları üçün heyətin formalaşmasında mühüm tədbir olduğunu bildirib.

Vurğulanıb ki, idmançılarımızı qarşıda 3-4 beynəlxalq turnir gözləyir. Bundan sonra isə bütün güləş ictimaiyyətinin diqqəti Azərbaycana yönələcək. Biz birinci Avropa Oyunlarına ciddi hazırlaşırıq. Ümid edirəm ki, güləşçilərimiz bu yarışda da doğma azarkeşlər önündə uğurla çıxış edib xalqımızı sevindirəcəklər.

Sonra güləş federasiyası üzrə "İlin ən yaxşıları" elan olunub. İlin hakimi Sədi Quliyev, yunan-Roma güləşi üzrə məşqçisi Şaban Donat, sərbəst güləş üzrə çalışdırıcı Əsgərxan Novruzov seçiliblər. İlin qadın güləşçisi adına Səbirə Əliyeva sahib olub. İslam Abbasov ilin ən yaxşı yunan-Roma güləşçisi, Hacı Əliyev isə sərbəst güləşçisi seçilib.

## YENİ YARADILAN KLUBLAR KOMİTƏSİNİN SƏDRİ SEÇİLDİ

*AFFA-nın Klublar Komitəsinin ilk iclası keçirilib*



AFFA prezidentinin əmrinə əsasən yaradılan Klublar Komitəsinin ilk iclası keçirilib. İclasda AFFA-nın baş katibi Elxan Məmmədov və Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev iştirak edərək fikir və təkliflərini bildiriblər.

Sonra görüş yalnız Premyer Liqa klublarının nümayəndələrinin iştirakı ilə davam etdirilib və olkə futbolunun inkişafi ilə bağli ətraflı muzakirələr aparılıb.

İclasda "Xəzər Lənkəran" klubunun vitse-prezidenti Tuyqun Nadirov Klublar Komitəsinin sədri seçilib.

## PELE ÖMÜRLÜK MÜQAVİLƏYƏ QOL ÇƏKDİ

*Braziliyanın "Santos" klubu əfsanəvi futbolçu Pele ilə ömürlük müqavilə imzalayıb*




Adı çəkilən klub bundan sonra da marketinq kampaniyalarında "Futbol kralı"nın obrazından istifadə edəcək. Bununla bağlı klubun rəsmi saytında məlumat yayılıb: "Razılaşma əsasında Pele və "Santos" brendləri həmişə birgə fəaliyyət göstərəcək. Pele bütün dövrlərin dahi futbolçusudur. O, "Santos"un keçmişi, bu günü və sabahıdır".

Qeyd edək ki, Pele keçən ay sağlamlıqla bağlı problem yaşayaraq, xəstəxanaya yerləşdirilmişdi. Hazırda müalicə alan 74 yaşlı əfsanəvi futbolçunun durumu normaldır.

## MERKELLƏ ÇƏKDİRDİYİ "SELFİ"Nİ HƏRRACA ÇIXARDI

*İngiltərənin "Arsenal" komandasının almaniyalı futbolçusu Lukas Podolski xeyriyyə hərracı təşkil edib*



L.Podolski Almaniya Kansleri Angela Merkellə çəkdirdiyi "selfi"ni hərraca çıxarıb.

"Selfi" 2014-cü il dünya çempionatının final matçından sonra soyunub-geyinmə otağında çəkilib.

Hərraca, həmçinin "Arsenal"ın baş məşqçisi Arsen Vengerin gödəkçəsi, Almaniya millisinin qapıçısı Manuel Noyerin əlcəkləri, "Liverpul"un futbolçusu Mario Balotellinin butsları, L.Podolskinin komanda yoldaşı Bastian Şvaynştayqerlə "selfi"si və digər suvenirlər çıxarılıb.

Hərracda əldə edilən bütün vəsait xeyriyyə məqsədləri üçün istifadə olunmuşdur.

## ALMANİYA YIĞMASI HÜCUMÇUSUNUN BUTSLARI İKİ MİLYON AVROYA ALINIB

*Mario Getse butslarını hərraca çıxardı*

Braziliyada keçirilmiş Dünya çempionatının final oyununda Almaniya yığmasının hücumçusu Mario Getsenin Argentina komandasının qapısından qələbə topunu keçirərkən geymiş olduğu futbol butsları iki milyon avroya alınıb.

Getse butslarını hərraca qoyaraq, elan edib ki, onun sahibi ağır xəstəliklərdən əziyyət çəkən uşaqlara kömək göstərən "Ein Herz für Kinder" xeyriyyə fondunun keçirdiyi xüsusi tədbir çərçivəsində xeyriyyəçiliyə ən yüksək məbləğdə ianə verən şəxs olacaq.

Getse hərracların yekunlarını belə şərh edib: "Bu, ağlasığmazdır. Heç yuxuma da gəlməzdi. İki milyon – bu, çox böyük məbləğdir".

Dünya birinciliyinin həlledici oyununda Getse 88-ci dəqiqədə meydana çıxsa da, verilmiş əlavə vaxtda (113-cü dəqiqədə) cənubi amerikalıların qapısını fəth edə bilmişdi.





# "VALENSİYA"NIN
## YENİ PREZİDENTİ QADIN OLDU

İspaniyanın "Valensiya" klubunun yeni prezidenti müəyyənləşib. Amadeo Salvonun istefasından sonra boş qalmış bu vəzifəyə sinqapurlu biznesledi Çan Lay Hoon gətirilib. O, "Valensiya"nın ilk qadın prezidenti kimi klubun tarixinə düşüb.

# AVRO-2017-NİN
## EV SAHİBİ MÜƏYYƏNLƏŞDİ

*2017-ci ildə qadınlar arasında qitə birinciliyi Hollandiyada keçiriləcək*

Bu qərar İsveçrədə keçirilən UEFA İcraiyyə Komitəsinin iclasında qəbul edilib.

Final mərhələsində ilk dəfə 16 komanda mübarizə aparacaq ki, seçmə yarışlarında 47 yığma vəsiqə uğrunda döyüşə atılacaq. Andorra millisi isə qitə birinciliyinin seçmə mərhələsində ilk dəfə çıxış edəcək.

Xatırladaq ki, daha əvvəllər də Hollandiyada gənclər arasında keçirilən DÇ-2007-nin, 20 yaşlılardan ibarət kişilər arasında baş tutan DÇ-2005-in və AVRO-2000-nin təşkilatçısı olub.

Qeyd edək ki, qadınlar arasında Avropa çempionatının (2013) son qalibi Almaniya yığmasıdır. Bundestim təmsilçisi İsveçdə keçirilən qitə birinciliyində Norveç yığmasına finalda 1:0 hesabı ilə qalib gəlmişdi.

# FRANSA FUTBOLUNUN CANLI ƏFSANƏSİ TYERİ ANRİ KARYERASINI RƏSMƏN BAŞA VURUB




*AzərTAc xəbər verir ki, bundan sonra şərhçilik edəcəyini açıqlayan 37 yaşlı futbolçu deyib: "20 illik futbol karyeramı bitirməyi qərara aldım*

"Monako", "Yuventus", "Arsenal", "Barselona", "Nyu-York Red Bulls" və Fransa millisindəki komanda yoldaşlarım və mənə dəstək olan hər kəsə təşəkkür edirəm. Londona qayıdaraq, "Sky Sports"a qatıldığım üçün məmnunam.

Qeyd edək ki, 2010-cu ildə "Barselona"dan ayrılaraq "Nyu-York Red Bulls" klubuna üz tutan təcrübəli futbolçu bu komandanın heyətində keçirdiyi 122 oyunda 51 qol vurub və 42 məhsuldar ötürmə edib. 2012-ci ildə komandanın ən dəyərli futbolçusu seçilən Anrinin karyerasının parlaq dövrü "Arsenal"da olub.

1999-cu ildə "Yuventus"dan "Arsenal"a transfer olunan Anri London təmsilçisinin heyətində keçirdiyi 377 oyunda 228 dəfə rəqib qapılarına yol taparaq klubun ən çox qol vuran futbolçusu adını qazanıb. O, "Arsenal"ın heyətində iki dəfə Premyer Liqa çempionluğunu, üç dəfə İngiltərə federasiya kubokunu (FA) qazanıb. Dörd dəfə Premyer Liqanın ən məhsuldar futbolçusu olan Anri 2007-ci ildə "Arsenal"ı "Barselona"ya dəyişmişdi.

# BRAZİLİYADA OLİMPİADAYA HƏSR OLUNAN SİKKƏLƏR BURAXILIB

2016-cı ildə Olimpiya və Paralimpiya Oyunlarına ev sahibliyi edəcək Braziliyada maraqlı addım atılıb. Ölkənin mərkəzi bankı Olimpiadaya həsr olunmuş 9 fərqli sikkə buraxıb. Bəzi qəpiklərin üzərində ölkənin tanınmış yerləri təsvir edilib. 1 reala bərabər sikkənin üzərində isə olimpiya və paralimpiya idman növləri əks olunub.

Olimpiadanın startına qədər Braziliyada ümumilikdə 36 növ sikkə buraxılacaq.


Xəzər Universiteti "Dünya məktəbi"
2011-2012 – ci tədris ili üçün şagird qəbulu elan edir!
Sizin dünyaya açılan pəncərəniz!!!
və bizimlə dünyanı kəşf et!

DÜNYA MƏKTƏBİ
Xəzər Universiteti "Dünya məktəbi"
2014-2015-ci tədris ili üçün şagird qəbulu elan edir!
Sizin dünyaya açılan pəncərəniz!!!
WORLD SCHOOL
ib
Beynəlxalq statuslu "Dünya Məktəbi"nin şagirdi ol
və bizimlə dünyanı kəşf et!
Az 1130, Bakı şəhəri, 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9
Telefon: + (994 12) 563 59 47, 563 59 48 Mobil: + (994 70) 844 08 88

Xəzər Universiteti "Dünya məktəbi"
2011-2012 – ci tədris ili üçün şagird qəbulu elan edir!
Sizin dünyaya açılan pəncərəniz!!!
və bizimlə dünyanı kəşf et!

# XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan,
xaricə ən çox tələbə göndərən,
xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,
xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.
siteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və
Xəzər Univer diplomları Avropa və Amerikanın universitetləri tərəfindən tanınır.

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

**"QS"** təşkilatının 2014-cü il dekabr ayının 17-də elan etdiyi reytinq cədvəlinə əsasən **Xəzər Universiteti** Azərbaycanın ən yaxşı ali məktəbi olmaqla yanaşı, Şərqi avropa, keçmiş sovet ölkələri və Türkiyə daxil olmaqla böyük bir regionun 100 ən yaxşı universiteti sırasına daxil edilmişdir. *http://www.iu.qs.com/eeca2014-rankings-results/*

**EDUNIVERSAL** Beynəlxalq Elmi Cəmiyyətinin 2014-cü il dekabr ayının 24-də açıqladığı reytinq cədvəlinə görə Xəzər Universitetinin ***Menecment, İqtisadiyyat, Mühasibat uçotu və audit*** ixtisasları üzrə MBA proqramları 2014-cü ildə dünyanın ən yaxşı 200 magistr proqramı sırasına daxil olub. Eyni zamanda, hər 3 proqram Avrasya və Yaxın Şərq bölgəsi üzrə ən yaxşı 10 magistr proqramı siyahısında yer alıb. *www.best-masters.com*

***

*Xəzər Universiteti ilk gündən beynəlxalq təcrübəyə əsasən quruldu və Azərbaycanda ingilis dilində tədrisə keçən ilk universitet kimi tanındı. Təhsil sahəsində ən qabaqcıl ölkələrin təcrübəsini öyrənmək və tətbiq etmək ilkinliyi də məhz Xəzər Universitetinə nəsib oldu. Dünya təhsil məkanında qabaqcıl mövqeyi və nüfuzu ilə diqqətçəkən Universitetin beynəlxalq əlaqələri yalnız təlim-tədris sahəsində deyil, yüksək ixtisaslı dünya insanı hazırlığında da əhəmiyyət daşıyır. Demokratizm və humanizm, plüralizm və şəffaflıq, müasirlik və təşəbbüskarlıq, ən son təlim texnologiyalarından istifadə, beynəlxalq proqram və layihələrdə fəallıq və digər bu kimi hallar bütünlüklə Universitetdə işgüzarlıq şəraiti yaradır, tələbələrin fəallığı və müstəqilliyini təmin edir.*

***Professor Əjdər Ağayev,***
***Azərbaycan Təhsil Şurasının sədri***

## Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

## Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

## Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. Imtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**




**Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:**

**I qrup üzrə:**

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Biotibbi texnika mühəndisliyi

**II qrup üzrə:**

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix müəllimliyi
- Coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər

**III qrup üzrə:**

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Politologiya
- Tərcümə (ingilis dili və digər dillər)

**IV qrup üzrə:**

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Psixologiya

**Ünvan: Məhsəti küçəsi, 11.**
**(Neftçilər metrosunun yaxınlığında)**
**Əlaqə telefonları: (012) 408-81-78, (012) 421-68-11,**
**(012) 421-79-27**
**Faks: 012 498-93-79**
**İnternet: http://www.khazar.org**